# BEYNƏLXALQ VERGİ – MALİYYƏ TERMİNLƏRİNİN İZAHLI LÜĞƏTİ

**Azərbaycan Respublikası**

**Vergilər Nazirliyinin**

**TƏDRİS MƏRKƏZİ**

**Şamaxı - 2015**

## A

| | | | |
|---|---|---|---|
| “A” qaydası üzrə emissiya | Aksizlər | “Alicənab cəngavər” | Arbitraj (I) |
| Açıq emissiya | Aktivlər | Amortizasiya | Arbitraj (II) |
| Açıq hesab | Aktivlərin beta əmsalı | Alınmış saziş | Arbitraj qiymətqoyma |
| Adlı istiqraz vərəqələri | Aktivlərin dövretmə əmsalı | Alternativ xərc | Avrodollar |
| Agent nəzəriyyəsi | Aktivlərin xalis dövriyyə kapitalına nisbəti | Alternativ minimal vergi | Avrodollarlı depozit sertifikatı |
| "Ağ fil" | Aktivlərin rentabelliyi | Amerika/Avropa kolu | Avroieyen istiqraz vərəqələri |
| Akkreditiv | Aktivlərin sahibi/istifadəçiləri (Lizinq üzrə) | Annuitet | Avroistiqrazlar |
| Aksept | Aktuar | Annuitet əmsalı | Avtomatik bərpa olunan kredit |
| Akseptləşdirilmiş ticarət vekseli | Aktuar hesablamaların xətaları | Anomal gəlir | |

## B

| | | | |
|---|---|---|---|
| Bank holdinqi | Bazar riski | Birbaşa lizinq | Bonus |
| Balans (mühasibat) dəyəri | “Bazar-balans dəyəri” əmsalı | Birbaşa vergilər | Borc |
| Balans mənfəəti | Bazis dərəcə | Birinci dərəcəli aksept | Borc intizamı |
| Balansdankənar maliyyələşmə | Bazis faiz dərəcəsi | Birja | Borc, istiqraz |
| Bank aksepti | Benefisiar | Birləşmələr və aktivləri | Borc və istiqrazlar |
| Başlanğıc yüklənmə effekti | Beta kitabı | Birləşmənin maliyyələşməsi | Borcla yüklənmə əmsalı |
| Barter | Bərabərsürətli amortizasiya | Biznes-plan | “Borc-xüsusi kapital” əmsalı |

| | | | |
|---|---|---|---|
| Bazar | Bərpa olunmayan xərclər | Biznes fəaliyyətinin bitməsi dəyəri | Borcun konsolidasiyası |
| Bazar aktivliyi əmsalları | Bir-birini inkar edən layihələr | Blank ötürülməsi | Broker |
| Bazar qiyməti | Bir-birini tamamlayan resurslar | Bonifikasiya | Broker fəaliyyəti |
| | | | Buraxılmış səhmlər |

## C

| | | |
|---|---|---|
| Cari əmsal | Cini indeksi | “Çörək və qırmanc” |
| Cari likvidlik əmsalı | Çağırışsız akkreditiv | |

## D

| | | | |
|---|---|---|---|
| Daxili gəlirlilik norması | Dəyişən dərəcə | Diversifikasiya olunan risk | Dividendlərə qanunvericilik məhdudiyyətləri |
| Debitor borc | Dəyişən dərəcəli istiqraz vərəqələri | Dividend gəliri | Dividendlərin səmərəliliyi |
| Debitor borcların ödənməsinin orta müddəti | Diskont | Dividend gəlirin norması | Dividendlərin ödənişi |
| Defisit | Diskont dərəcəsi | Dividend ödəmələr əmsalı | Dolayısı vergilər |
| Dempinq | Diskont istiqraz vərəqələri | Dividend siyasəti | Dou-Cons indeksi |
| Deponent | Diskontlaşmış ödənmə müddəti qaydası | Dividend siyasəti və səhmlərin alınması | Dönərli qiymətli kağızlar |
| Deport | Diskontlaşdırma əmsalı | Dividend siyasəti və səhmlərin qiymətlərinin hesablanması | Dönərli istiqraz |
| Depozit sertifikatı | Dispersiya | Dividend siyasəti və vergilər | Dövriyyə kapitalı |
| Depozitar | Dispersiya portfel riskinin meyarı kimi | Dividendlər | Dövriyyə kapitalına aksept |

| | | | |
|---|---|---|---|
| Depozitar fəaliyyət | Diversifikasiya | Dividendlər və kapital artımı | Dövriyyə kapitalının maliyyə planlaşdırması |
| Dəyərlərin cəmlənməsi prinsipi | Diversifikasiya məhdudiyyətləri | Dividendlər və risk | Dövrün dəyərləndirilməsi |

## E

| | | | |
|---|---|---|---|
| Effektiv bazar | Ehtiyatlar | Emissiya qiyməti | Etibarlı qəbz |
| Effektiv portfel | Ehtiyatların dövretməsi əmsalı | Etibarnamə | |
| Effektiv vergi dərəcəsi | Emissiya | Etibarlı ekvivalent | |

## Ə

| | | | |
|---|---|---|---|
| Əksinə dəyişən dərəcə | Əlavə dividendlər | Əməliyyat leverici | Əmlakın qalıq dəyəri |
| Əks dəyişən dərəcəli istiqraz vərəqələri | Əlavə mənfəət | Əməliyyat lizinqi | Əmlakın verilməsi |
| Əlavə dəyər vergisi | Əlavə öhdəliklər | Əmlak | |

## F

| | | | |
|---|---|---|---|
| Faiz dərəcələri | Faktorinq şirkət | Forvard | Françayzinq |
| Faiz dərəcələrinin paritetləri nəzəriyyəsi | Fayda - xərc əmsalı və ya rentabellik | Forvard bazarı | Franşiza |
| Faiz dərəcələrinin zaman strukturu üçün gözləmə fərziyyələri | Fond | Forvard diskont | Fyuçers |
| Faizin ödənməsi əmsalı | Fond birjası | Forvard kursu | Fyuçers bazarı |
| Faizlər | Fonddankənar borc | Forvard mükafatı | Fyuçers qiyməti |
| Faktorinq | Fonddankənar öhdəliklər | Forvard müqavilə | Fyuçers müqaviləsi |

## G

| | | | |
|---|---|---|---|
| Gəlir | Gəlirli səhmlər | Gəlirliyin faktiki qiyməti | Girov barəsində neqativ qeyd-şərt |
| Gəlirin forvard norması | Gəlirlik norması | Gətirilmiş dəyər | Gözləmə nəzəriyyəsi |
| Gəlirli istiqraz vərəqələri | Gəlirlik norması qaydası | Gətirilmiş dəyər cədvəli | |

## H

| | | | |
|---|---|---|---|
| “Hava şarı” | Həqiqi dəyər | “Hər şey və ya heç nə” | Hüquqsuz səhmlər |
| Hedc əmsalı | Həll olma | Həssaslıq | |
| Hedcinq (sığortalanma) | Həmişəyasıl kredit | Hüquqi şəxslərin torpaq vergisi | |

## X

| | | | |
|---|---|---|---|
| Xalis diskontlu istiqraz vərəqələri | Xalis dövriyyə kapitalı | Xarici investisiyalar | Xüsusi dividendlər |
| Xalis dövriyyə kapitalının dövretməsi əmsalı | Xalis lizinq | Xarici istiqraz vərəqələri | Xüsusi kapitalın gəlirliliyi |
| Xalis gətirilmiş dəyər | Xalis mənfəət | Xəzinə vekseli | |
| Xalis gətirilmiş dəyər qaydası | Xalis mənfəət norması | Xəzinədar | |

## İ

| | | | |
|---|---|---|---|
| İcarə | İqtisadi icarə | İnflyasiya tempi | İstehlakçı krediti |
| İcarəçi | İqtisadi mənfəət | İnvestisiya dərəcəsi | İstiqraz dəyəri |
| İcarə haqqı | İmtiyazlı abunə | İnvestisiya sinifli istiqrazlar | İstiqraz üzrə reqress |
| İcarədə olan əmlakın mülkiyyətçisi / istifadəçisi | İmtiyazlı səhm | İnvestisiyalar | İstiqraz vərəqələri |
| İcarəverən | İndividual risk | İnvestisiyalar üçün əlverişli müddət | İstiqrazların müddətindən əvvəl alınması |

| | | | |
|---|---|---|---|
| İcra üçün müqavilə | İnflyasiyanın mühasibat mənfəətinə təsiri | İnvestisiyanın dəyərləndirilməsi | İstiqrazın reytinqi |
| İerarhiya nəzəriyyəsi | İnformasiyanın assimetrikliyi | İnvestisiyanın gəlirliyinin hesablanması | İşgüzarlıq imici |
| İxtisaslı məhdud məsuliyyətli əsas yoldaşlıq | İnformasiyanın dəyəri | İnzibati məsrəflər və ya lizinq | İşgüzarlıq imici |
| İki dərəcəli vergi sistemi | İnstitisional alıcı | İpoteka istiqraz vərəqələri | İşgüzarlıq riski |
| İkimərtəbəli vergi sistemi | İqtisadi amortizasiya | İpoteka sabiti | İştirakçı |
| İki səviyyəli saziş | İnflyasiya | İstehlak betası | "İştirakçı sertifikatı" |
| | | | İzafi güc xərcləri |

## K

| | | | |
|---|---|---|---|
| Kapital | Kommersiya krediti | Konversiya dəyəri | Kredit |
| Kapital bazarı | Kommersiya krediti alətləri | Konversiya qiyməti | Kredit riskinin təmərküzləşməsi |
| Kapital qoyuluşlarının post - auditi | Kommersiya vekseli | Konversiya nisbəti | Kredit xətti |
| Kapital lizinqi | Kommersiya vərəqi | Korlaşmış satış | Kredit tutumu |
| Kapitala artan (kumulyativ) ehtiyac | Kompensasiya qalığı | Korporasiyanın borcu | Kredit-dəyər təminatı əmsalı (LTV əmsal) |
| Kapitalın normallaşması | Kompromis saziş | Korrelyasiya | Kreditin kəmiyyət qiymətləndirilməsi |
| Kapitalın strukturu | Konqlomerat birləşmə | Korrektə edilmiş beta | Kreditin normallaşması |
| Kapitalın strukturunun beta əmsalına təsiri | Konsorsium (qiymətli kağızların yerləşməsi üzrə) | Kovariasiya | Kreditin ötürülməsi |
| Kapitalizasiya dərəcəsi | Kontanqo | “Köhnədəbli” faktorinq | Kreditor borcu |
| Klassik vergi sistemi | Kontrakt | Köhnə-kürüş istiqraz | Kreditlərin sığortası |
| Klirinq bankı | Konversiya | Köməkçi faktorinq | Kupon ödənişləri |
| | | | Kvadratda R |

## Q

| | | | |
|---|---|---|---|
| “q Tobin” əmsalı | Qarşılıqlı surətdə asılı olan şəxslər | “Qızıl paraşüt” | Qiymətli kağızlar bazarı xəttindən kənar səhmlər |
| Qaimə xərcləri | Qayıtmaz xərclər | Qısa hedc | Qısamüddətli aktivlər |
| Qalıq risk | QE3 - “üçüncü kəmiyyət yumşaldılması” | Qiymət-mənfəət əmsalı | Qısamüddətli borc |
| “Qapmaq və qaçmaq” | “Qəbirüstü abidə” | Qiymətləndirilən aktivlər | Qısamüddətli veksel |
| | | | “Qrupun ümüdi” |

## L

| | | | |
|---|---|---|---|
| Laffer əyrisi | Ləğvetmə və ya yenidən təşkil | Likvidliyin üstünlüyü nəzəriyyəsi | Lizinqin vergiyə cəlb olunması |
| Layihənin beta əmsalı | Levericləşmiş xüsusi kapital | Lizinq | London banklararası bazarların kredit dərəcələri |
| Leveric | Likvidləşmə dəyəri | Lizinq xidməti | London qızıl fiksinqi |
| Ləğvetmə | Likvidli vəsaitlər | Lizinq sənayesi | LONGER modeli |
| Ləğvetmə dividendləri | Likvidlik əmsalları | Lizingin kapitalizasiyası | Lorens əyrisi |

## M

| | | | |
|---|---|---|---|
| Maliyyə aktivləri | Maliyyə vekseli | Monte Carlo modeli | Mühasibat gəlirliyinə inflyasiyanın təsiri |
| Maliyyə asılılığı əmsalları (Maliyyə leverici əmsalı) | Maliyyələşmə | Mübadilə vekseli | Mühasibat mənfəəti |
| Maliyyə leverici | Marjinal vergi dərəcəsi | Müddətin uzadılması hüquqlu istiqraz vərəqələri | Mühasibat uçotu |
| Maliyyə lizinqi | Mədən vergisi | Müddətli bank depoziti | Mükəmməl kapital bazarı |
| Maliyyə planlaşdırılması | Məhsulla ödəniş | Müddətli likvidlik əmsalı | Mükəmməl rəqabət |
| Maliyyə çətinlikləri | Mənfəət | Müddətsiz renta | Mümkünlüyün sərfəliyi |

| | | | |
|---|---|---|---|
| Maliyyə əmsalları | Mənfəətin dinamikası | Müflisləşmə | Müntəzəm aşınma |
| Maliyyə fyuçersi | Məsrəflər | Müflisləşmə məsrəfləri | Müntəzəm illik məsrəflər |
| Maliyyə maneəsi | Miller – Orr modeli | Müflisləşmənin birbaşa xərcləri | Mürəkkəb faiz |
| Maliyyə meneceri | Milli istiqrazlar | Mühasibat betası | Mütləq likvidlik əmsalı |
| Maliyyə riski | Monopolist rəqabət | Mühasibat gəlirliliyi | |

## N

| | | |
|---|---|---|
| NASDAQ fond birjası | Nominal vergi dərəcəsi | Normal xərclər |
| Natural formada ödəniş hüquqlu istiqraz vərəqələri | Normal artım | Normal paylanma |

## O

| | | | |
|---|---|---|---|
| Opportunist fəaliyyət | Opsion konversiyası | Opsion deltası | Opsionun dəyəri |
| Opsion | Opsion put | Opsionların qiymətləndirilməsinin binominal metodu | Opsionun ekvivalenti |
| Opsion koll | Opsion varrantı | Optionların qiymətləndirilməsi üçün Blək-Şols formulu | Optimal maliyyə planı |
| | | | Ortamüddətli veksel |

## Ö

| | | |
|---|---|---|
| Örtülmüş varrant | Ödənmə qaydası | “Ölü prokat” |
| Ödənmə gətirilmiş xalis gəlirin alternativi (əvəzi) kimi | Öhdəliklərin konsolidasiyası | Ötürülən depozit çeki |

## P

| | | | |
|---|---|---|---|
| Planlaşdırma dövrü | Proyekt vekseli | Pul formasında dividendlər | Pul vəsaitlərinin diskontlaşmış axını |
| Portfel | Proyektlərin qarşılıqlı təsiri | Pul vəsaitləri büdcəsi | Pul vəsaitlərinin dəyişməsinə nəzarət |
| Portfel nəzəriyyəsi | Pul bazarı | Pul vəsaitlərinin artıqlığı | Pul vəsaitlərinin etibarli/ nominal axınının diskont-lanşdırılması |
| Portfel riski | Pul bazarında investisiyanın gəlirliyi | Pul vəsaitləri axını betası | |

## R

| | | | |
|---|---|---|---|
| Real aktivlər | Rentinq | Risk arbitrajı | Risksiz qoyuluş |
| Reinvestisiya əmsalı | REPO sövdələşməsi | Risk və portfel nəzəriyyəsi | Risksiz faiz dərəcəsi |
| Requlyar pul dividendləri | Report | Risk-gəlir dilemması | |
| Rentabellik əmsalları | Revolver abunə sistemi | Riskin bazar qiyməti | |
| Rentabelliyin mühasibat norması | Risk | Riskli kapital | |

## S

| | | | |
|---|---|---|---|
| S&P 500 indeksi (SP500 | Səhmlər | Sığorta | Strip istiqraz vərəqələri |
| Sabit artım tempi halları üçün düsturlar | Səhmlər üzrə cari dividendlərə ekvivalent olan faizlə gəliri verən istiqraz vərəqələri | Sifariş haqqında memorandum | Şəxsi müflisləşmə |
| Sadə faiz | Səhmlərin alınması | Sindikat | Şərti satış üçün müqavilə |
| Sadə veksel | Səhmlərin betası | Sonrakı maliyyələşmə imkanı | Şərti vergitutma sistemi |
| Satış gəlirliliyi | Səhmlərin geri alınması | Spot | Şirkətin alınması |

| | | | |
|---|---|---|---|
| Sekyuritizasiya | Səhm formasında dividendlər | Spred (yayılma) | Şirkətin istiqrazlar hesabına alınması |
| Serial istiqraz vərəqələri | Səhmlərin xırdalanması və bazar effektivliyi | Ssudanın verilməsində payçı iştirakı | Şirkətin menecerlər tərəfindən alınması |
| Sertifikat | Səmərəli kapital bazarı | Standart kənarlaşma | Şirkətin müflisləşməsi |
| Səsvermə, səhmdar | Sıfır kuponlu istiqraz vərəqələri | Sürətləndirilmiş amortizasiya | |

## T

| | | | |
|---|---|---|---|
| Tabe edilən borc | Tender təklifi | Tələb elastikliyi | Transaksiya xərcləri |
| Tam ədədli proqramlaşdırma (“sıfır-bir”) | Təcavüzkar artım | Təmin olunmuş borclar | Transfer qiymət |
| Tam ödənişli lizinq | Tədavül opsionu | Təmin olunmuş etibarli istiqraz vərəqəsi | Transfer qiymətləndirmə |
| Tamamlanmanın təminatı | Tədavül səhmi | Təsbit edilmiş faiz dərəcəsi | Trast fondu |
| Tamamlama üzrə istiqraz borcu | Təkrar ümumi təklif | Törəmə (maliyyə) alətlər | |

## U

| | | | |
|---|---|---|---|
| Uzun hedc | Uzunmüddətli aktivlərin dəyərləndirilməsi modeli | Uzunmüdətli qoyuluşlar büdcəsi | Üfüqi birləşmə |
| Uzunmüddətli aktivlər | Uzunmüddətlı və ya qısamüddətli qurğuların istismarı | Uzunmüddətli maliyyə planlaşdırması | |

## V

| | | | |
|---|---|---|---|
| Vahid qiymət qanunu | Varrant | Vergi mexanizmləri | Vergi və xarici əməliyyatların maliyyələşməsi |
| Vaxtından əvvəl satış hüquqlu istiqraz vərəqələri | Veksel | Vergi partnyorluğu sazişi | Vergi və istiqraz hesabına alış |

| | | | |
|---|---|---|---|
| Vaxtından qabaq satınalma | Veksellərin emissiyası | Vergi planlaşdırması | Vergi və lizinq |
| Valer | Vergi agenti | Vergi riskləri | Vergi və sıfır kuponlu istiqraz |
| Valyuta | Vergi amortizasiyası | Vergi risklərinin minimallaşdırılması | Vergi yükü |
| Valyuta bazarı | Vergi güzəştləri | Vergi sadələşdirilməsi | Vergidən yayınma |
| Valyuta fyuçersi | Vergi xərcləri | Vergi sistemi | Vergilər |
| Valyuta kursu | Vergi immuniteti | Vergi şəffaflığı | Vertikal birləşmə |
| Valyuta opsiyonu | Vergi krediti | Vergi və birləşmələr | Vertikal inteqrasiya |
| Valyuta riski | Vergi qalxanı | Vergi və dividendlər | Vestləmə (hüququn verilməsi) |

## Y

| | | | |
|---|---|---|---|
| “Yaşıl şantaj” | “Yetkin faktorinq” | Yolda xalis qalıq | Yüklənmə faktorları |
| Yaşıl vergi siyasəti | Yol vergisi | Yolda olan pul vəsaitləri | |

## Z

| | |
|---|---|
| Zamanla oyun | “Zəhər həbi (padzəhr)” |

| No | Azərbaycan | İngilis | Rus | İzahı |
|---|---|---|---|---|
| 1 | “A” qaydası üzrə emissiya | Regulation A | Эмиссия попадающая под правило «A» | Qiymətli kağızların satılması prosedurası qanunvericiliyin tələblərinə görə onların qeydiyyatdan keçməsini nəzərdə tutur.. ABŞ Qanunvericiliyində belə istiqrazlara “A” qaydası üzrə emissiya, yəni 1,5 mln. dollardan az və ödəmə müddəti 9 aydan kiçik olan kreditlər aiddirlər. |
| 2 | Açıq emissiya | Public of bonds | Эмиссия публичная облигаций | İstiqrazların emissiyası 2 formada olur: açıq və ya qapalı qaydada. İstiqrazların qapalı emissiyasında onlar yalnız kreditorların məhdud dairəsində, o cümlədən, banklar, sığorta cəmiyyətləri və təqaüd fondları arasında satılır. Belə istiqrazlar fiziki şəxslərə satıla bilməzlər, ancaq institusional investorlar arasında aktiv dövriyyədə olurlar. Açıq emissiya vaxtı isə istiqrazlar bütün arzuedənlər, o cümlədən, xarici investorlar arasında satıla bilərlər. |
| 3 | Açıq hesab | Open account | Открытый счет | Kommersiya kreditinin satış şərtləri onun məbləğini müəyyənləşdirir. Daxili bazarda alıcılara təkrar satışlar üstüörtülü sazişlərə əsaslanır və açıq hesabdan istifadə olunmaqla gerçəkləşir. Açıq hesab satıcının mühasibat kitablarında qeyddən və alıcının imzaladığı hesabdan ibarətdir. |
| 4 | Adlı istiqraz vərəqələri | Registred bonds | Именные Облигации | Bu istiqrazların qeydiyyatı aparılır , istiqraz sahibi reyestrə daxil edilir və son haqq-hesabda istiqrazın ilkin satış dəyəri bilavasitə sahibinə ödənilir. |

| | | | | |
|---|---|---|---|---|
| **5** | Agent nəzəriyyəsi | Agency theory | Агентская теория | Müasir korporasiya menecerlər, işçilər, səhmdarlar və istiqraz sahiblərindən ibarət olan mütəxəssislər komandasıdır. Agent nəzəriyyəsi komandadaxili konfliktlərin yaranmasını və onların həlli yollarını əks etdirən ideyalar məcmusudur. |
| **6** | "Ağ fil" | White elephant | "Белый слон" | İstismar xərclərinin məcmu gəliri üstələməsi səbəbindən istifadəsi sərfəli olmayan hər hansı bir mülkiyyət. Külli miqdarda kapital qoyulmuş, lakin bu və ya digər səbəbdən kifayət qədər gəlir gətirməyən, satışı isə zərərlə bağlı olan hər hansı biznes. Bun termin "ağ fil işlədiyindən çox yeyir" kəlamından yaranmışdır. |
| **7** | Akkreditiv | Letter of credit | Аккредитив | Fiziki və ya hüquqi şəxslərə pul vəsaitlərinin ödənməsi üçün banka verilən ödəniş tapşırığıdır. Aşağıdakı növləri var: nəğd pul şəklində - bank tərəfindən müəyyən məbləği ödəmiş və həmin məbləği digər şəhərdə tam və ya qismən almaq istəyən şəxsə müəyyən dövr üçün verilən adlı sənəddir; mal - nəğdsiz hesablaşma növü; geri çağırma - qüvvədə olduğu müddətdə hesab açan tərəfindən ləğv edilə bilər; geri çağrılmayan - maraqlı tərəflərin razılığı olmadan ləğv edilə və ya dəyişdirilə bilməz. |
| **8** | Aksept | Acceptance | Акцепт | Pul, mal və ya hesab ödəniş sənədləri əsasında ödənişə və ya ödənişə zəmanətə razılıq. |
| **9** | Akseptləşdirilmiş ticarət vekseli | Trade acceptance | Акцептованный торговый вексель | Alıcının öz borcunu imzası ilə təsdiq etməsi. |

| | | | | |
|---|---|---|---|---|
| **10** | Aksizlər | Excise | Акцизы | Aksizli malların satış qiymətinə daxil edilən vergidir. (VM, m. 182.1). Azərbaycan Respublikasının ərazisində istehsal edilən, yaxud idxal olunan aksizli mallardan, vergidən azad edilən mallar istisna olunmaqla, aksiz tutulur. |
| **11** | Aktivlər | Assets | Активы | 1. Mühasibat uçotunda təsərrüfat subyektinə məxsus əmlakın və debitor hesabların məcmusudur.<br>2. Aksioner cəmiyyətin aktivlərinə pulla qiymətləndirilən və cəmiyyətin sərəncamında olan vəsaitlərə deyilir. Aktivlər maddi və qeyri-maddi olmaqla iki növə bölünürlər.<br>3. Bank aktivlərinə bankın sərəncamında olan ehtiyatlara aid edilir. |
| **12** | Aktivlərin beta əmsalı | Beta of asset | Бета коэффициент активов | İki növ risk vardır: diversifikasiya oluna bilən və oluna bilməyən. Aktivlərin beta əmsalı diversifikasiya oluna bilməyən riskin (bazar riskinin), yəni investisiya riskinin bu iqtisadiyyatın bütün aktivlərin dəyərinin dəyişməsinə uyğunlaşmasını əks etdirir. |

| | | | | |
|---|---|---|---|---|
| **13** | Aktivlərin dövretmə əmsalı | Ratio to sales of assets | Коэффициент оборачиваемости активов | Satışdan əldə olunan məbləğin aktivlərin dəyərinə olan nisbətinə deyilir. Şirkətin aktivlərinin dövriyyədə olma səviyyəsinin göstəricisidir. $$K_{rsa} = \frac{R}{V};$$ Burada: $K_{rsa}$ - aktivlərin dövretmə əmsalı; $R$ - satışdan əldə olunan məbləğ; $V$ - aktivlərin orta dəyəri. Əmsalın yüksək olması göstərir ki, şirkət tam gücü ilə işləyir, yeni kapital qoyuluşuna ehtiyacı var. |
| **14** | Aktivlərin xalis dövriyyə kapitalına nisbəti | Ratio to net working capital | Отношение к чистому оборотному капиталу | Dövriyyə aktivləri şirkətin yaxın gələcəkdə pul vəsaitlərinə çevirəcəyi aktivlərdir. Qısamüddətli öhdəliklər şirkətin yaxın gələcəkdə ödəyəcəyi borclardır. Dövriyyə aktivləri ilə qısamüddətli öhdəliklərin fərqi xalis dövriyyə kapitalı adlanır. Bu göstərici şirkətin potensial pul vəsaitləri imkanlarını əks etdirir. Menecerlər xalis dövriyyə kapitalının göstəricisi kimi əksər hallarda xalis dövriyyə kapitalının aktivlərinin ümümi dəyərinə olan nisbətindən istifadə edirlər. |

| | | | | |
|---|---|---|---|---|
| **15** | Aktivlərin rentabelliyi | Return on of assets | Рентабельность активов | Şirkətin fəaliyyətini əks etdirən göstəricidir. Mənfəətin aktivlərin orta dəyərinə nisbəti ilə ölçülür. Kapitalın strukturundan asılı olaraq müxtəlif düsturlarla verilir.<br>$R_a = \frac{G-T}{V}$ ;<br>Burada:<br>$R_a$ - aktivlərin rentabelliyi;<br>$G$ - faizlərin və vergilərin ödənilməsinə qədərki mənfəət;<br>$V$ - aktivlərin orta dəyəri;<br>$T$ – vergi.<br>Digər göstərici firmanın məxsusi kapitalının rentabelliyini müəyyənləşdirməyə imkan verir:<br>$R_o = \frac{G_a}{V_c}$ ;<br>Burada:<br>$R_o$ – məxsusi kapitalın rentabelliyi;<br>$G_a$ – adi səhmlərin mənfəəti;<br>$V_c$ – məxsusi kapitalın orta dəyəri;<br>Aktivlərin gəlirliliyinin yüksəldilməsində əsas maneə rəqabətdir. |
| **16** | Aktivlərin sahibi/istifadəçiləri (Lizinq üzrə) | Owners, users of, in leases | Владельцы /пользователи активов при лизинге | İqtisadi baxımdan, istifadəçi aktivin sahibidir, çünki məhz o, maliyyə lizinqinin riskini öz üzərinə götürür və sahibliyinin xeyrini görür. |

| | | | | |
|---|---|---|---|---|
| **17** | Aktuar | Actuary | Актуарий | Sığorta tarif dərəcələrini hesablayan maliyyə və sığorta riyaziyyatı sahəsində ixtisaslaşan mütəxəssis. Ölüm səviyyələri cədvəlləri, ehtimallar qanunları və orta göstəricilər üzrə riskləri, sığorta polislərinə görə mükafatları hesablayır, annuitənin dərəcəsini, sığorta hadisəsi baş verən hallarda ödənişlərdən yaranan zərərləri, sığorta şirkətlərinin mənfəətində payları olanların polisləri üzrə dividendlərin ödənilməsi üçün zəruri ehtiyatları müəyyənləşdirir və s. |
| **18** | Aktuar hesablamaların xətaları | Actuarial assumptions | Допушения в актуарных расчетах | Aktuar hesablamaların əsas çətinliyi iki problemlə bağlıdır: 1) nominal əməkhaqqının artım tempinin proqnozlaşdırılması; 2) təqaüd ödəmələrinin proqnozlaşdırılmış məbləğlərinin diskontlaşdırma dərəcəsinin seçilməsi. Bəzi təqaüd proqramlarında diskont dərəcəsi əməkhaqqının artımının proqnazlaşdırılan tempindən aşağı götürülür, digərlərində isə, əksinə, diskont dərəcəsi əməkhaqqının artımının proqnazlaşdırılan tempindən 5% yuxarı götürülür. Diskont dərəcəsinin artırılması şirkətin təqaüd proqramları üzrə öhdəliklərinin dəyərini aşağı salır, təqaüd fonduna illik ödəmələri azaldır və deməli, şirkətin maliyyə hesabatlarında mənfəət göstəricilərini artırır. Təqaüd hesablamalarında tətbiq olunan diskont dərəcəsi bazar diskont dərəcələrinə nisbətən çox zəif dəyişir. Bəzi hallarda təqaüd ödəmələrinin daimi məbləğlərinə uyğun olaraq təqaüd fondu üçün ayrılmış paydan istiqazların "xüsusi" portfelini yaratmaq üçün istifadə olunur, portfelin yaratdığı pul vəsaitləri axını isə daimi öhdəlikləri təmamilə ödəyir. |

| | | | | |
|---|---|---|---|---|
| **19** | “Alicənab cəngavər” | White Knight | «Благородный рыцарь» | Şirkətlərin birləşməsi prosesində hədəf-şirkətin menecerləri rəqabəti gücləndirmək üçün digər şirkətləri “Alicənab cəngavər” rolunda prosesə cəlb etməyə çalışırlar. “Alicənab cəngavər” öz təklifləri ilə hədəf-şirkət üçün daha əlverişli birləşmə şərtlərinin yaranmasının səbəbkarı olurlar. |
| **20** | Amortizasiya | Depreciation | Амортизация | Əsas vəsaitlərin dəyərinin tədricən istehsal məhsullarına köçürülməsidir. Köçürülən hissə istehsal xərclərinə aiddir və məhsulun qiymətinə təsir edir. Qeyri-pul formasında xərclərdir və vergiyə məruz qalan mənfəəti azaldır. |
| **21** | Alınmış saziş | Bought deal | «Купленная сделка» | Alınmış saziş avroistiqrazların emissiyası formasıdır. Bu halda bir və ya bir neçə abunəçi bütün buraxılışı satın alır. Alınmış saziş şirkətlərə çox qısa müddətli xəbərdarlığı olan istiqrazlar buraxmağa imkan verir. |

| | | | | |
|---|---|---|---|---|
| **22** | Alternativ xərc | Opportunity costs | Альтернативные издержки | Alternativ xərc alınmış hər hansı bir mal (xidmətin) və ya həyata kecirimiş bir layihənin dəyərinin digər mümkün mal (xidmət) və ya layihənin həyata keşirilməsindən məhrum olması ilə bağlı olan xərcləridir. Məsələn, hər hansı bir şəxs avtomobil aldıqda həmin pulu banka depozit şəklində qoymasından məhrum olur. İnsanlar daim öz istehlak fəaliyyətində seçim qarşısında olurlar. Əgər biz bir kitab alırıqsa, onda onun əvəzinə teatra bilet almaqdan imtina edirik. Bu halda kitabın alternativ dəyəri teatra biletin qiymətidir. Bir malı almaqla digərlərindən imtina edirlər. Dövlət əgər sosial xərcləri artırırsa, onda investisiya xərclərini məhdudlaşdırır. Alternativ xərcləri əksər hallarda qiymətləndirmək çox çətindir. Bir çox hallarda onları qiymətləndirmək əvəzinə mövcudluğunu qeyd etməklə kifayətlənirlər.<br>*bax: Diskont dərəcəsi* |
| **23** | Alternativ minimal vergi | Alternative minimum tax | Альтернативный минимальный Налог | Bəzən amortizasiyanın düzxətli hesablama metodlarından və ya vergi qalxanından istifadə edərək vergini ödəməkdən qanunverciliyin imkanlarından istifadə edərək əhəmiyyətli dərəcədə yayınırlar. Bunu önləmək üçün qanunvericilik yolu ilə alternativ minimal vergi təyin olunur. Əgər hesablanmış vergilərin həcmi alternativ minimal vergidən azdırsa, onda alternativ minimal vergi ödənməlidir. |
| **24** | Amerika / Avropa kolu | American / European call | Американский / европейский «колл» | Əgər opsion yalnız müəyyən olunmuş gündə səhm almaq hüququ verirsə, ona avropa kolu deyilir. Yox əgər opsion müəyyən olunmuş gündə və ya ondan əvvəl səhm almaq hüququ verirsə, ona amerikan kolu deyilir. |

| | | | | |
|---|---|---|---|---|
| **25** | Annuitet | Annuity | Аннуитет | Müəyyən illər ərzində sabit gəlir gətirən aktiv. Məsələn, depozitar hər ay banka 1000 AZN pul vəsaiti qoyursa, onda bu aylıq 1000 manatlıq annuitədir. Annuitet illik, aylıq və ya günlük də ola bilir. . |
| **26** | Annuitet əmsalı | Annuity factor | Коэффициент аннуитета | Hər dövrün sonunda 1 dollar üçün annuitetin diskontu nəzərə alınmaqla ödənilən gətirilmiş dəyər.<br>$A = \frac{1}{r} - \frac{1}{r(1+r)^t}$;<br>Burada:<br>$A$- annuitet əmsalı;<br>$r$ – gəlirllik;<br>$t$ - dövrlərin sayı. |
| **27** | Anomal gəlir | Abnormal return | Аномальный доход | Hər hansı bir layihə üzrə inverstisiyalar həyata keçirildikdə müəyyən bir gəlirin əldə olunaçağı nəzərdə tutulur. Lakin real praktikada gözlənilən gəlir real əldə olunan gəlirdən fərqli olur.Bu halda anomal gəlir aşağıdakı kimi hesablanır:<br>Anomal gəlir = Həqiqi gəlir - Gözlənilən gəlir; |
| **28** | Arbitraj (I) | Arbitrage | Арбитраж | Malların müəyyən növlərinin (xarici valyuta, səhmlər, istiqrazlar, qızıl və ya gümüş, taxıl və s.) bazarda alınması və həmin bazarda və ya başqa bazarlarda pərakəndə və müsbət spredlə (heç olmazsa, hər bazarın məxsusi şərtləri nəzərə alınmaqla müvəqqəti) satılması əməliyyatları. Arbitraj əməliyyatlarına aiddirlər: valyuta əməliyyatları, qiymətli kağızlarla əməliyyatlar, qısamüddətli kapital bazarında əməliyyatlar. |

| | | | | |
|---|---|---|---|---|
| **29** | Arbitraj (II) | Arbitration | Арбитраж | Tərəflərin razılığı ilə mübahisənin üçüncü obyektiv tərəfə və ya şuraya verilməsi. Arbitrin qərarı mübahisə edən tərəflər üçün məcburidir. Adətən arbitraj proseduraları məhkəmə çəkişmələrinə nisbətən daha ucuz başa gəldiyi üçün mübahisələrin həllində üstünlük verilir. |
| **30** | Arbitraj qiymətqoyma | Arbitrage pricing | Арбитражное ценообразование | Arbitraj qiymətqoyma nəzəriyyəsinin müəllifi Steven Rossdur. Əsas fərziyyə ondan ibarətdir ki, hər bir səhmin gəlirliyi qismən makroiqtisadi şərtlərdən ("faktorlardan"), qismən də yalnız şirkətə aid olan hadisələrdən ("əngəllərdən") asılıdır. Nəzəriyyə faktorların sayını və tərkibini müəyyənləşdirmir. Bazar portfelinin gəlirliyi belə faktorların biri ola da bilər, olmaya da bilər. Hər bir səhm üçün iki risk mənbəyi var: birincisi, makroiqtisadi faktorlarla əlaqədar risk, ikincisi ancaq bu şirkətlə bağlı hadisələr. İndividual risk diversifikasiya vasitəsi ilə aradan götürülə bilər. Ona görə də diversifikasiyalanmış investorlar səhmlərin alqı-satqı əməliyyatlarında bu riski nəzərə almaya bilərlər. |
| **31** | Avrodollar | Eurodollars | Евродоллары | ABŞ-dan kənarda olan dollar depozitinə avrodollar deyilir. |
| **32** | Avrodollarlı depozit sertifikatı | Eurodollar certificate of depozit | Евродолларовый депозитный сертификат | Avrodollar bankları depozit sertifikatları satan daxili banklardan fərqli olaraq əsasən topdan satış bizneslə məşğul olurlar. Korporasiyalar və hökümətlər belə bankların əsas müştəriləridir. *Bax: Depozit sertifikatı.* |

| | | | | |
|---|---|---|---|---|
| **33** | Avroieyen istiqraz vərəqələri | Euroyen bonds | Евроиеновые облигации | Norveç Xristian Bankı tərəfindən 1989-cu ildə iki seriya (tranş) ilə buraxılmış 3 illik istiqrazlar. Bu istiqrazların meydana çıxması Yaponiya sığorta fəaliyyətinin nizamlama (requlyasiya) cəhdləri ilə bağlıdır. Əsas səbəb Yaponiyanın həyatı sığortalama şirkətlərinin kapitalın artımı gəlirlərini sığorta polisləri sahiblərinin xeyrinə bölüşdürmək imkanlarının olmaması ilə əlaqədardır və bu səbəbdən də onlar yüksək gəlirli istiqrazlar əldə etməyə çalışırlar. |
| **34** | Avroistiqrazlar | Eurobonds | Еврооблигации | Uzunmüddətli borcların beynəlxalq bazarıdır. Abunəçilərin beynəlxalq sindikatı tərəfindən eyni zamanda bir neçə ölkədə satılır. Avroistiqrazlar bütün dünyada satılsa da, onların abunəçiləri və dilerləri Londonda yerləşirlər. Onların sırasına həmçinin ABŞ, Avropa və Yaponiya kommersiya və investisiya banklarının şöbələri aiddirlər. |
| **35** | Avtomatik bərpa olunan kredit | Revolving credit | Автоматический возобновляемый («револьверный») кредит | Birbaşa ssudanın növüdür. Rəsmi zəmanəti və ödəmə müddəti 3 ilə qədər olan kreditdir. |
| **36** | Bank holdinqi | Bank Holding Company | Банковский холдинг | Bank və qeyri-bank törəmə şirkətlərə malik olan firma |

| | | | | |
|---|---|---|---|---|
| **37** | Balans (mühasibat) dəyəri | Book value | Балансовая (бухгалтерская) стоимость | Əsas vəsaitlərin və qeyri-material akitivlərin mühasibat uçotu üzrə dəyərləri. Əsas vəsaitlərin balans dəyəri 2 cür olur: ilkin və bərpa (bazar) dəyərləri. Əsas vəsaitlərin bərpa dəyəri dedikdə bazar qiymətləri üzrə onların alınması və ya tikintisi başa düşülür. Bərpa dəyərini mövcud bazar qiymətlərinə əsasən ekspertin köməyi ilə və inflayasiyanı nəzərə alan əmsalların əsasında müəyyənləşdirmək olar.<br>Balans dəyəri adətən şirkətin aktivlərinin real dəyərlərini düzgün əks etdirə bilmir. Yüksək templi inflasiya dövründə balans dəyəri aktivlərin real dəyərlərindən aşağı olur. Digər tərəfdən balans dəyəri qeyri-material aktivlərin, məsələn, dizayna görə patentin, dəyərini əks etdirmir. Həmçinin, mənfəətin səviyyəsi inflyasiyanın və uçot siyasətinin təsirinə məruz qalır.<br>Pul vəsaitləri axının diskontlaşması aktivlərin bazar dəyərinin düzgün müəyyən edilməsində daha effektlidir. Ona görə də "qiymət-mənfəət" və ya "bazar qiyməti-balans dəyəri" əmsallarından istifadə etmək məqsədə uyğundur. |
| **38** | Balans mənfəəti | Book sheet profit | Балансовая прибыль | Hesabat dövrü ərzində müəssisənin mühasibat uçotu və balansının maddələrinin göstəricilərinə görə hesablanmış son maliyyə nəticəsi. Balans mənfəəti məhsulun satışından və xidmətlərin göstərilməsindən, əsas fondların, o cümlədən torpağın, satışından, səhmlər, istiqrazlar və digər qiymətli kağızlarla olan əməliyyatlardan gələn gəlirlərdən (bu əməliyyatlarla bağlı xərclər çıxıldıqdan sonra) olan mənfəətin cəmidir. |

| | | | | |
|---|---|---|---|---|
| **39** | Balansdankənar maliyyələşmə | Off-balance-sheet financing | Внебалансовое финансирование | 1976-cı ilə qədər (ABŞ qanunvericiliyinə görə) lizinq balansdankənar maliyyələşmə mənbəyi hesab olunurdu, yəni firma əmlakı satın ala bilər, maliyyə lizinqi vasitəsi ilə maliyyələşdirə bilər və nə əmlakı, nə də lizinq müqaviləsini balansda göstərməyə bilərdi. Hal-hazırda isə mühasibat uçotu standartları tələb edir ki, bütün kapital (maliyyə) lizinqi kapitallaşmalıdır, yəni lizinq ödəmələrinin gətirilmiş dəyəri hesablanmalı və digər borclarla birlikdə balansın sağ tərəfində göstərilməlidir. Eyni məbləğ balansın sol tərəfində aktiv kimi göstərilməlidir. |
| **40** | Bank aksepti | Bankers' acceptance, Bank acceptances | Банковский акцепт | Xarici ticarət əməliyyatlarında istifadə olunur. Alıcının ödəmə qabiliyyəti şübhə doğurduqda, veksel bank tərəfindən akseptləşdirilir və bank alıcının borcunun qarantı kimi çıxış edir. |
| **41** | Başlanğıc yüklənmə effekti | Bootstrap effect | Эффект стартового запуска | Əgər şirkətlərin birləşməsi heç bir iqtisadi uduş yaratmırsa, yəni birləşmədən sonrakı şirkətin dəyəri birləşməyə uğrayan şirkətlərin dəyərlərinin cəminə bərabərdirsə, lider şirkətin səhmlərinin sayının artımı məcmu mənfəətin artımından geri qala bilər. Nəticədə bir səhmə düşən mənfəət artır. Buna başlanğıc yüklənmə effekti deyilir. Digər tərəfdən yeni şirkətin səhmlərinin kursu dəyişmədiyi üçün "qiymət-mənfəət" əmsalı azalır. |

| | | | | |
|---|---|---|---|---|
| **42** | Barter | Nonmonetary exchange | Натуральный обмен | İki müəssisə arasında qeyri-pul aktivləri ilə qarşılıqlı mübadilə. Xidmət və öhdəliklərlə mübadilə həmçinin barter hesab edilir. Pul aktivləri dedikdə, pul məbləğləri və onların ekvivalentləri (metal pullar, qəbzlər və s.) nəzərdə tutulur. Digər aktivlər qeyri-pul aktivləri hesab olunurlar. Belələrinə xammal, material, hazır məhsul, istehsalat binaları, avadanlıqlar və s. aid edilir. Qeyri-pul mübadiləsində əldə edilmiş aktivlərin dəyəri aşağıdakı qaydada hesablana bilər:<br>Barter mübadiləsinin dəyəri = Mübadilə olunmuş aktivlərin faktiki dəyəri + Edilmiş əlavə ödəniş – Alınmış əlavə ödəniş. |
| **43** | Bazar | Market | Рынок | Elmi baxımdan tələb və təklifin hərəkətini təmin edən rəqabət mexanizmi kimi başa düşülür. Bazarlar mallar və xidmətlərin, əməyin, kapital və torpaq bazarları profillərinə bölünürlər. Hal-hazırda bazarın yeni növləri: ekoloji təmiz məhsullar, informasiya xidmətləri, kompyuter avadanlığı və proqram təminatı və s. yaranmışdır. Pul, valyuta və maliyyə bazarları sistemi təşəkkül tapmışdır. |
| **44** | Bazar aktivliyi əmsalları | Market – value ratios | Коэффициенты рыночной активности | Bazar aktivliyi əmsallarına qiymət-mənfəət əmsalı, dividend gəliri norması, “Bazar-balans dəyəri” əmsalı və “q Tobin” əmsalı aiddirlər. |
| **45** | Bazar qiyməti | Market value | Рыночная стоимость | Açıq bazarda tələb və təklif qanununa əsasən formalaşan qiymətdir. Lakin bəzi əqdlər zamanı tərəflər qarşılıqlı asılı olan şəxslər olduqda, qiymətlər real bazar qiymətlərindən fərqlənə bilər. bax: transfer qiymətlər. |

| | | | | |
|---|---|---|---|---|
| **46** | Bazar riski | Market risk | Риск рыночный | Bazarda səhmlərin müxtəlifliyinə uyğundur. Bu risk diversifikasiya vasitəsi ilə aradan götürülə bilmir və ümumiqtisadi xarakterik risklər sırasına daxildir. |
| **47** | “Bazar-balans dəyəri” əmsalı | Market –to book ratio | Коэффициент «рыночная – балансовая стоимость» | Səhmin qiymətinin bir səhmin balans dəyərinə olan nisbətidir. Bir səhmin balans dəyəri səhmdarların xüsusi kapitalının dövriyyədə olan səhmlərin sayına olan nisbətidir. Xüsusi kapitalın balans dəyəri bütün səhmlərin dəyəri ilə bölüşdürülməmiş mənfəətin cəminə bərabərdir.<br>$R_{mb} = \frac{P_a}{V_{ba}}$;<br>Burada:<br>$R_{mb}$ - “bazar-balans dəyəri” əmsalı;<br>$P_a$ – səhmin qiyməti;<br>$V_{ba}$ - bir səhmin balans dəyəri. |
| **48** | Bazis dərəcə | Prime rate | Базисная ставка | Bank tərəfindən özünün birinci dərəcəli borcluları üçün təyin olunur. Bazis dərəcə sərbəst mübadilədə olan qiymətli kağızlar üçün olan faiz dərəcəsi ilə uyğunlaşdırılır. Ona görə də bazis dərəcə dəyişdikdə, kreditlər üçün təyin olunmuş üzən faiz dərəcəsi də dəyişilir. |

| | | | | |
|---|---|---|---|---|
| **49** | Bazis faiz dərəcəsi | Basic interest rate | Базисная процентная ставка | Bankla olan kredit müqaviləsində adətən dəyişən dərəcəli faizlər tətbiq olunur. Lakin özünün mühüm kliyentləri üçün bazis faiz dərəcəsi tətbiq edə bilər. Bazis faiz dərəcəsi sərbəst dövriyyədə olan qiymətli kağızların faiz dərəcələrindən asılı olaraq dəqiqləşdirilir. Bazis faiz dərəcəsi dəyişdikdə, dəyişən dərəcəli faiz dərəcələri də dəyişir. |
| **50** | Benefisiar | Beneficiary | Бенефициар | Dəyərlilərin (trast, həyatın sığortalanması polisi və s.) verilməsi barədə sənədlərin ünvanlandığı şəxs. Akkreditiv üzrə benefisiar - akkreditivin şərtlərinə uyğun olaraq vekseli həmin vekseli vermiş banka akseptləşdirmək üçün hüququ olan tərəfdir. |
| **51** | Beta kitabı | Beta books | Книги бета, использование | İnvestorların bazar riskinə olan maraqlarını nəzərə alaraq müxtəlif broker və konsaltinq şirkətləri beta əmsalların müxtəlif keyfiyyətdə qiymətləndirmələrini müntəzəm olaraq nəşr (Beta kitab) edirlər. Adətən, əlahiddə götürülmüş şirkətin səhmlərinə nisbətən sahələr üzrə beta əmsalının hesablanması daha dəqiq nəticələr verir. Beta əmsalın hesablanmasında ən kiçik kvadratlar metodu əsas rol oynayır. |
| **52** | Bərabərsürətli amortizasiya | Straight-line depreciation | Равномерная амортизация | Amortizasiyanın illik məbləği ilkin investisiyaların bərabər paylarının likvidlik dəyəri ilə fərqinə bərabər götürülür. |
| **53** | Bərpa olunmayan xərclər | Sunk costs | Невозвратные издержки | Bərpa olunmayan xərclər keçmişdə baş vermiş kapitalın dönməz axını ilə bağlıdır. Bərpa olunmayan xərclər keçmişə aid olduqları üçün layihənin qəbul olunması və ya ondan imtina edilməsi həmin xərclərə heç bir təsir göstərə bilməz, ona görə də layihədə bərpa olunmayan xərcləri nəzərə almaq lazım deyildir. |

| | | | | |
|---|---|---|---|---|
| **54** | Bir-birini inkar edən layihələr | Mutually exclusive projects | Взаимоисключающие проекты | Bir çox hallarda firmalar eyni bir işin icrası üçün və yaxud istehsal obyektlərindən istifadəsi üçün bir neçə alternativdən birini seçməli olurlar. Belə hallar bir-birini inkar edən layihələr adlanır. Belə layihələr üçün daxili gəlirlik norması metodu iqtisadi ömürləri və ya zəruri investisiyaları müxtəlif olan hallarda səhv nəticələrə səbəb ola bilər. Ona görə də daxili gəlirlik norması metodu zəruridirsə, onu investisiyanın hər bir əlavə vahidi üçün tətbiq etmək lazımdır. |
| **55** | Bir-birini tamamlayan resurslar | Complementary resources | Взаимодополняющие ресурсы | Bir çox hallarda xırda və ya iri şirkətlər məhsul istehsalında bir-bir ilə əməkdaşlığa məcbur olurlar: istehsalçı şirkət məhsulun müəyyən komponentinin hazırlanmasını digər şirkətə tapşırır. Ona görə də şirkətlər bir-birini tamamlayan resurslara malikdirlər və onların birləşməsi məqsədəuyğundur. Çünki, birləşmədən sonra həm buraxılan dəyəri aşağı düşür, həm də birləşmənin nəticəsi olan şirkətin dəyəri əvvəlki şirkətlərin məcmu dəyərlərinə nisbətən yüksək olur. |
| **56** | Birbaşa lizinq | Direct Lease | Прямой Лизинг | İcarəyə götürən avadanlığı seçir, lizinq şirkəti ilə həmin avadanlığın istehsalçıdan satın alınması üşün razılığa gəlir və lizinq şirkəti ilə birbaşa lizinq müqaviləsi bağlayır. |
| **57** | Birbaşa vergilər | Assessed taxes, direct taxes | Прямые налоги | Birbaşa gəlir sahibinin üzərinə qoyulmuş vergilərə deyilir. Birbaşa vergilərə gəlir vergisi, mənfəət vergisi, əmlak vergisi, vərəsəliyə görə vergiləri nümunə göstərmək olar. |

| | | | | |
|---|---|---|---|---|
| **58** | Birinci dərəcəli aksept | Prime acceptance | Первоклассный акцепт | ABŞ-da iri bankların akseptləri adətən 1-6 ay müddətində ödənilirlər və birinci dərəcəli aksept kimi məlumdurlar. Pul bazarının dilerləri birinci dərəcəli veksellərin keyfiyyətli ikinci bazarını formalaşdırırlar. |
| **59** | Birja | Exchange | Биржа | Mütəşəkkil və müntəzəm fəaliyyət göstərən qiymətli kağızların alqı - satqı bazarı. Bazarın iştirakçıları həm fiziki, həm də hüquqi şəxs ola bilər. Birjanın əsas funksiyalarına aiddir: qiymətli kağızların satışı vasitəsi ilə müvəqqəti sərbəst olan pul vəsaitlərinin mobilizasiyası; onların bazar dəyərinin müəyyənləşdirilməsi; kapitalın sahələr və iqtisadi meydanlar arasında axını. |
| **60** | Birləşmələr və aktivləri | Assets and mergers | Активы и слияния | Aktivlərin hamısının və ya bir hissəsinin satın alınması ilə şirkətlərin birləşməsi. Əsas məqam ondan ibarətdir ki, bu halda pullar səhmdarlara deyil, birbaşa şirkətə təsərrüfat vahidi kimi ödənilir və onun aktivlərinə mülkiyyət hüququ yaranır. |

| | | | | |
|---|---|---|---|---|
| **61** | Birləşmənin maliyyələşməsi | Merger financed by | Финансирование слияний | Şirkətlərin birləşməsi yalnız səmərəliliyin xərcləri üstələdiyi halda məqsədəuyğundur. Birləşmənin səmərəliliyi dedikdə birləşmənin nəticəsi olan yeni şirkətin dəyərinin birləşmiş şirkətlərin birləşməyə qədərki dəyərlərinin cəmi ilə olan fərqi başa düşülür.<br>Birləşmənin xərcləri dedikdə alıcının birləşmə prosesində şirkətin dəyərindən yuxarı ödədiyi mükafat və əlavə məbləğ başa düşülür. Birləşmənin xərcləri isə ya sərbəst pul vəsaitlərinin hesabına, ya da yeni səhmlərin buraxılması hesabına çəkilir. Birləşmənin xərclərinin dəyərləndirilməsi bu mexanizmlərin hər biri üçün müxtəlifdir. Birinci halda birləşmənin xərcləri bu sövdələşmədə iqtisadi uduşlarından asılı deyil. İkinci halda isə birləşmənin xərcləri səhmlərin birləşmədən sonrakı bazar kurslarına təsir etdiyi üçün iqtisadi uduşlardan asılıdır. |
| **62** | Biznes-plan | Business plan | Бизнес-план | Şirkərin fəaliyyət planı, proqramı. Özündə şirkətin taktiki və strateji məqsədlərini, ehtiyatların sərfini, maliyyə proqnozlarını, satışın həcmini, risklərinin qiymətləndirilməsini və s. əks etdirir. |
| **63** | Biznes fəaliyyətinin bitməsi dəyəri | Abandonment | Стоимость прекращения бизнеса | Layihədən imtina etmək dəyəridir. Bəzi aktivlərdən imtina etmək asandır, bəzilərindən yox: məsələn, material aktivləri satmaq qeyri-material aktivləri satmaqdan asandır. |
| **64** | Blank ötürülməsi | Assignment in blank | Переуступка бланковая | Səhmin və ya adlı istiqrazın yeni sahibinə verilməsi barədə sənəd. Bu sənəddə qiymətli kağızın yeni sahibinin adının yazılması üçün boş yer olur. Sahibliyin ötürülməsi haqqındakı qeydlər qiymətli kağızın sertifikatının əks tərəfində aparılır. |

| | | | | |
|---|---|---|---|---|
| **65** | Bonifikasiya | Bonification | Бонификация | Bir çox ölkələrin vergi və mülki qanunverciliyində işlədilən termin. Vergitutma baxımından bonifikasiya bir çox ölkələrdə malların həmin ölkə hüdudlarından kənara çıxarıldığı halda ödənilən istehlak vergilərinin istehlakçıya qaytarılmasını nəzərdə tutur. |
| **66** | Bonus | Bonus | Бонус | Bonus – investor tərəfindən bağlanılmış müqavilə əsasında müəyyən bir məqsədə çatması ilə bağlı mükafat formasında ödənişdir. Bonus eyni zamanda müəssisənin təsərrüfat fəaliyyətinin nəticələrinə görə işçilərə ödənilən əlavə mükafatdır. |
| **67** | Borc | Debt | Долг | Borclunun maliyyə öhdəlikləri; Şifahi və ya yazılı razılaşma əsasında borcluya verilmiş dəyərlinin müqabilində onun ödəyəcəyi pul məbləği. |
| **68** | Borc intizamı | Debenture | Дебентура | Sənaye və maliyyə şirkətləri tərəfindən buraxılan uzunmüddətli təmin olunmamış istiqraz vərəqələri və borc öhdəlikləri. |
| **69** | Borc, istiqraz | Borrowing, Loan | Заем (заимствование) | Pul və ya digər dəyərlilərin müəyyən şərtlərlə borc verilməsi haqqında müqavilə. Borcverən müqavilə şərtləri daxilində borcalandan faiz tələb edə bilər. |

| | | | | |
|---|---|---|---|---|
| **70** | Borc və istiqrazlar | Debt and bonds | Долг и облигации | Bir şəxsin digər şəxsdən müvəqqəti istifadə üçün pul vəsaiti və ya digər nemətləri alması nəticəsində həmin şəxs qarşısında yaranmış öhdəliyidir. İstiqraz qiymətli kağızdır, emitendin istiqraz sahibinə gələcəkdə ödəməli olduğu təsbit olunmuş müəyyən məbləğdə kapitalı və ya istiqrazın nominal dəyərinin müəyyən faiz dərəcəsi kimi hesablanmış gəlir öhdəliyidir. Ödəmə müddətlərinə görə aşağıdakı növləri var: qısamüddətli - 1 ilədək, orta müddətli - 1 ildən 5 ilədək, uzunmüddətli - 5 ildən yuxarı. |

| | | | | |
|---|---|---|---|---|
| **71** | Borcla yüklənmə əmsalı | Debt ratio | Коэффициент долговой нагрузки | Adətən maliyyə asılılığı uzunmüddətli borcların əsas kapitalın ümumi dəyərinə olan nisbəti ilə ölçülür. Digər tərəfdən, uzunmüddətli lizinq müqaviləsi firmanın üzərinə maliyyə öhdəlikləri qoyduğu üçün bu öhdəliklər uzunmüddətli borclar qrupuna aid edilməlidir. Beləliklə, borcla yüklənmə əmsalı dedikdə, uzun müddətli borcun və lizinqin məcmu dəyərinin uzun müddətli borcun, lizinqin və məxsusi kapitalın məcmu dəyərinə olan nisbəti kimi başa düşülməlidir. Müvafiq olaraq iki cür düsturdan istifadə olunur:<br>$R_d = \frac{D}{A_a}$;<br>və ya<br>$R_d = \frac{D_l}{D_l + C_a}$;<br>Burada:<br>$R_d$ - borcla yüklənmə əmsalı;<br>$D$ – məcmu borclar;<br>$A_a$ – məcmu aktlar;<br>$D_l$ - uzunmüddətli öhdəliklər;<br>$C_a$ - səhmdar kapital. |

| | | | | |
|---|---|---|---|---|
| 72 | “Borc-xüsusi kapital” əmsalı | Debt-equity ratio | Коэффициент «долг – собственный капитал» | Kapitalın əlverişli strukturunun (borcun xüsusi kapitala nisbəti) müəyyənləşdirilməsində 4 meyar əsas rol oynayır:<br>1. Vergilər. Şirkətin borclarının artması onun gəlir vergisinin artmasına, eyni zamanda inverstorların ödəməli olduqları vergiləri artırır.<br>2. Risk. Maliyyə çətinlikləri iflas ehtimalından asılı olmayaraq ciddi zərərlərə səbəb olur. Ona görə də belə şirkətlər mümkün qədər az borc öhdəlikləri çap etməyə çalışırlar.<br>3. Aktivlərin tipləri. Maliyyə çətinliklərinin xərcləri dəyəri artım perspektivindən və ya qeyri-material aktivlərindən asılı olan şirkətlərdə yüksəkdir. Ona görə də qeyri-material aktivləri yüksək olan şirkətlər daha asan satıla bilən aktivləri olan şirkətlərə nisbətən orta hesabla kiçik borclarla kifayətlənməlidirlər.<br>4. Maliyyə sipəri. Əlverişli investisiya şəraiti yarandıqda maliyyə əldə etmək imkanları. Uzunmüddətli perspektivdə şirkətin dəyəri maliyyə mənbələrinin seçimindən deyil, investisiya və istehsal barəsindəki qərarlardan asılıdır.<br>Borcun xüsusi kapitala nisbəti leverici əks etdirir.<br>$R_{de} = \frac{D_l+V_l}{V_c}$;<br>Burada:<br>$R_{de}$ – “Borc-xüsusi kapital” əmsalı;<br>$D_l$ – uzunmüddətli borc;<br>$V_c$ – məxsusi kapitalın orta dəyəri;<br>$V_l$ – lizinqin dəyəri. |

| | | | | |
|---|---|---|---|---|
| **73** | Borcun konsolidasiyası | Funding | Консолидирование долга | Hökumətin, siyasi strukturun və ya şirkərin qısamüddətli cari borclarının uzunmüddətli borclara çevrilməsi prosesi. Konsolidasiya qısamüddətli veksellər seriyasının uzunmüddətli istiqrazlarla faiz dərəcələri aşağı olanda dəyişmək və yaxud səhmləri satmaq və qısamüddətli borcları faizlərlə birlikdə ödəmək yolu ilə gerçəkləşə bilər . Bu yolla səhmdarlar kreditorların bütün borclarını satın ala bilərlər. Həmçinin səhmlər bazarında əlverişli rəqabət vaxtı səhmlərin emissiyasından istifadə etmək olar. |
| **74** | Broker | Broker | Брокер | Broker – qiymətli kağızlarla bazarında vasitəçilik funksiyasını həyata keçirən hüquqi və ya fiziki şəxsdir. Müqavilə əsasında broker tərəf-müqabillərindən hər birindən və ya hər ikisindən komissiya haqqı tələb edə bilər. |
| **75** | Broker fəaliyyəti | Broker activity | Брокерская деятельность | Broker fəaliyyəti – brokerlər tərəfindən qiymətli kağızlar bazarında aparılan ixtisaslı fəaliyyətdir. AR Mülki Məcəlləsində broker fəaliyyəti dedikdə müştərinin hesabına tapşırıq və ya komission müqaviləsi əsasında müvəkkil və ya –birjasında öncədən müəyyən olunmaqla və yaxud tərəflərin razılaşmasına görə müəyyən olunur. |
| **76** | Buraxılmış səhmlər | Issued shares | Выпушенные акции | Səhmlərin buraxıla bilən maksimal sayına nizamnamə (buraxılışına icazə verilən) aksioner kapitalı deyilir. Buraxılan səhmlərin əksəriyyəti inverstorlara məxsusdur. Belə səhmlərə buraxılmış və dövriyyədə olan səhmlər deyilir. Səhmlərin müəyyən hissəsi şirkətin xəzinədarlığında saxlanılır. Belə səhmlərə buraxılmış, lakin dövriyyədə olmayan səhmlər deyilir. |

| | | | | |
|---|---|---|---|---|
| **77** | Cari əmsal | Current ratio | Коэффициент текущий | Cari aktivlərin cari passivlərə nisbətinə deyilir. Potensial borclunun kreditinin qiymətləndirilməsi üçün maliyyə hesabatını yoxlamaq üçün istifadə olunur. |
| **78** | Cari likvidlik əmsalı | Current ratio of liquiduty | Коэффициент текущей ликвидности | Dövriyyə aktivlərinin qısamüddətli öhdəliklərə olan nisbətinə deyilir. $$R_c = \frac{A}{S};$$ Burada:<br>$R_c$ - cari likvidlik əmsalı;<br>$A$ - dövriyyə aktivləri;<br>$S$ - qısamüddətli öhdəliklər. |

| | | | | |
|---|---|---|---|---|
| **79** | Cini indeksi | Индекс Джини | Gini index | Cini əmsalı əhalinin pul gəlirlərinin faktiki bölgüsünün bərabər bölgüdən kənarlaşmasını göstərir. Bu əmsalın qiyməti [0;1] intervalında dəyişir. Cini əmsalının qiymətinin kiçikliyi gəlirlərin bölgüsündə bərabərsizliyin azlığını göstərir. *G=0* halı gəlirlərin bölgüsündə mütləq bərabərliyi, *G=1* halı isə bütün gəlirlərin bir nəfərin əlində cəmləşdiyini göstərir.<br>Cini əmsalının müəyyən edilməsi üçün tətbiq olunan statistik model italiyalı demoqraf Korrado Cini (1884-1965) tərəfindən 1912-ci ildə nəşr olunmuş "Əlamətin variativliyi və dəyişkənliyi" əsərində təklif olunmuşdur. Bu göstəricinin mütləq qiyməti Cini əmsalı, faizlə ifadəsi isə Cini indeksi adlanır.<br>Cini əmsalını K.Cininin təklif etdiyi düsturla və onun təkmilləşmiş forması olan Braun düsturu ilə hesablamaq olar [2]:<br>$$G = \frac{\sum_{i=1}^{n}\sum_{j=1}^{n}\left\|y_i - y_j\right\|}{2n^2\overline{y}}, \qquad (3)$$<br>Burada,<br>$G$ – Cini əmsalı;<br>$n$ – ev təsərrüfatlarının sayı;<br>$y_i$, $y_j$ – ev təsərrüfatının ümumi gəlirdə payı;<br>$\overline{y}$ – ev təsərrüfatlarının gəlirlərdəki orta payını göstərir. |

| | | | | |
|---|---|---|---|---|
| **80** | Çağırışsız akkreditiv | Irrevocable letter of credit | Безотзывный аккредитив | Alıcının ödəmə qabiliyyətinə malik olması haqqında məlumatı üçün eksportor alıcının özündən və ya onun bankından tələb edə bilər. Bu halda alıcının bankı eksportoru yazılı müraciətində bildirir ki, onun xeyrinə bankda kredit açılmışdır. Eksportor ötürülən alıcının bankına veksel tərtib edir və onu akkreditiv və malın yüklənməsi sənədləri ilə birlikdə banka göndərir. |
| **81** | "Çörək və qırmanc" | Bait and switch | «Искушение и срыв» | Dividend siyasəti və kapitalın strukturuna aid iqtisadi oyun formasıdır. Əvvəlcə, məhdud miqdarda nisbətən etibarlı istiqrazlar dövriyəyə buraxılır. Sonra isə, qəfildən dövriyəyə külli miqdarda istiqrazlar buraxılır.Nəticədə, bütün istiqrazlar riskli kateqoriyaya keçirlər, bütün kapital itkisi isə "köhnə" istiqraz sahiblərinin payına düşür. İstiqraz sahibləri üçün kapital itkisi eyni zamanda səhmdarlar üçün kapital artımı deməkdir. |
| **82** | Daxili gəlirlilik norması | Internal rate of return | Внутренняя норма доходности | Daxili gəlirlilik norması diskontlaşmış pul vəsaitləri axınlarının gəlirlik normasıdır. Digər adı gəlirliyin dollarçəkili normasıdır. Daxili gəlirlilik norması xalis gətirilmiş dəyəri sıfıra endirən diskontluq dərəcəsi kimi hesablanır. Daxili gəlirlilik normasını alternativ xərclərdən fərqləndirmək lazımdır. Daxili gəlirlilik norması rentabelliyin göstəricisidir. Alternativ xərclər layihənin dəyərini müəyyənləşdirən rentabellik meyarıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **83** | Debitor borc | Accounts receivable | Дебиторская задолжнность | Fiziki və hüquqi şəxslərin müəssisəyə məcmu borcu 2 növə bölünür: normal və müddəti keçmiş. Birinci halda, malların və xidmətlərin əvəzində ödənişlər müəyyən müddətdən sonra müəssisənin hesabına daxil olur. İkinci hal isə maliyyə intizamının pozulmasının nəticəsində yaranır. Debitor borcların mütəmadi artması təsərrüfat subyektlərinin maliyyə nəticələrinə mənfi təsir göstərir, maliyyə - kredit sistemininin deformasiyasına səbəb olur. |
| **84** | Debitor borcların ödənməsinin orta müddəti | Collection periods, average | Средняя продолжителность оплата дебиторской задолженности | Debitor borclarının ödənməsinin orta müddəti alıcıların hesablar üzrə ödəmə sürətini göstərir və debitor borcların orta məbləğinin satışdan gələn orta məbləğə nisbətinə bərabərdir.<br>$T_m = \frac{D_m}{R_m};$<br>Burada:<br>$T_m$ - debitor borclarının ödənməsinin orta müddəti;<br>$D_m$ - debitor borcların orta məbləği;<br>$R_m$ - satışdan gələn orta məbləğ.<br>Debitor borclarının ödənməsinin orta müddəti alıcıların hansı sürətlə hesablar üzrə ödədiklərini göstərir və debitor borcların orta məbləğinin satışdan gələn orta gündəlik məbləğə nisbəti kimi hesablanır. Bu göstəricinin kiçik olması bir tərəfdən debitorlarda borcları yığan şöbənin işinin səmərəli olduğunu göstərirsə, digər tərəfdən ciddi kredit siyasətinin əlaməti kimi qəbul edilə bilər. |

| | | | | |
|---|---|---|---|---|
| **85** | Defisit | Deficit, amortization | Дефицит | Mövcud olanın tələbata görə qıtlığ. Müxtəlif növləri var: daxili ticarətdə mal çatışmamazlığı; vaxt çatışmamazlığı; dövlət büdcəsinin defisiti; tədiyyə balansının defisiti və s. |
| **86** | Dempinq | Dumping | Демпинг | Xarici bazarda seqmentlərin ələ keçirilməsi məqsədi ilə mal və xidmətlərin yerli dəyərinə nisbətən aşağı qiymətə satılması dempinq adlanır. Dempinq bazarların ələ keçirilməsinin üsullarından biridir. Dempinqə qarşı mübarizədə ölkələrdə importun məhdudlaşdırılması, antidempinq rüsumlarının tətbiq edilməsi və digər iqtisadi mexanizmlərdən istifadə olunur. |
| **87** | Deponent | Deponent | Депонент | Deponent qiymətli kağızların saxlanılmasını, uçotunu, idarə edilməsini həyata keçirən depozitarın xidmətindən istifadə edən şəxsdir. |
| **88** | Deport | Backwardation | Депорт | London fond birjasında hesablaşmaların təxirə salınması praktikası. Qiymətli kağızların qiymətlərinin enməsi ehtimalını nəzərə alaraq birja əməliyyatlarının iştirakçısı olan şəxs brokerlə möhlət razılaşa bilər. Bu razılaşma ya alıcının əlavə ödənişə razılıq verməsi və ya digər şəxsdən səhmlərin borc edilməsi yolu ilə baş verir. Alıcının və ya kreditorun satıcıya verdikləri möhlətin müqabilində aldıqları ödəniş deport adlanır. Deport satıcının ödədiyi məbləğdir, report isə alıcının aldığı məbləğdir. |

| | | | | |
|---|---|---|---|---|
| **89** | Depozit sertifikatı | Certificate of deposit | Депозитарный сертификат | Banklar tərəfindən satılan müəyyən qeyd olunmuş tarixdə qaytarılası irihəcmli kredit sənədi. Depozit sertifikatı bankın öhdəliyidir. Uzunmüddətli depozit sertifikatına dəyişilən faiz dərəcəsi tətbiq oluna bilər. Depozit sertifikatının cəlbedici cəhəti ondan ibarətdir ki, o, başqasına öz qiyməti ilə satıla bilər. Depozit sertifikatlarının aktiv işləyən bazarı vardır. Belə sertifikatların konvertasiyası çox sürətlə və ucuz başa gəlir. |
| **90** | Depozitar | Depositary | Депозитарий | Depozitar - qiymətli kağızlar bazarında depozitar fəaliyyəti həyata keçirən hüququ şəxs. Depozitar ilə deponent arasında münasibətlər depozitar müqavilə əsasında tənzimlənir. Depozitar onun tərəfindən saxlanılan qiymətli kağızlar sertifikatını idarə olunmasında hüququ və vətəndaş məsuliyyəti daşıyır. |
| **91** | Depozitar fəaliyyət | Depositary activity | Депозитарная деятельность | Depozitar fəaliyyət dedikdə qiymətli kağızlar sertifikatının saxlanılması, uçotu, digər şəxslərə hüququn verilməsi ilə bağlı göstərilən xidmət başa düşülür. Depozitar fəaliyyət hər bir ölkədə müvafiq qanunlar və normativ-hüququ aktlar əsasında tənzimlənir. |
| **92** | Dəyərlərin cəmlənməsi prinsipi | Value additivity | Принцип слагаемости стоимостей | Uzunmüddətli kapital qoyuluşlarının büdcəsinin formalaşmasında istifadə olunur. Mahiyyəti ondan ibarətdir ki, mükəmməl bazarlarda aktivlərin 2 növünün birləşməsinin gətirilmiş dəyəri hər bir aktivin gətirilmiş dəyərlərinin cəminə bərabərdir.<br>Bax: Gətirilmiş dəyər. |

| | | | | |
|---|---|---|---|---|
| **93** | Dəyişən dərəcə | Floating rate | Плавающая ставка | Bankla kredit barədə bağlanan müqavilədə adətən dəyişən dərəcədən və basis dərəcədən istifadə olunur. Bazis dərəcəsini banklar özlərinin əhəmiyyətli (nüfuzlu) borcluları üçün tətbiq edirlər. O, dövriyyədə olan qiymətli kağızların faiz dərəcələrinə uzlaşdırılır. Digər hallarda dəyişən dərəcədən istifadə olunur və bu adətən bazis dərəcədən asılı olmur. |
| **94** | Dəyişən dərəcəli istiqraz vərəqələri | Floating – rate bonds | Облигации с плавающей ставкой | Faiz dərəcəsi bazarda faiz dərəcələrinin dəyişməsindən asılı olaraq dəyişən istiqrazlar. Əksər hallarda dəyişən faiz dərəcələrinin minimal, bəzi hallarda isə maksimal qiymətləri təyin olunur. |
| **95** | Diskont | Discount | Дисконт | Terminin aşağıdakı mənaları var:<br>1. Nəğd ödəniş vaxtı edilən güzəşt.<br>2. Bank uçot dərəcəsi. Banklar ssuda verdikdə əvvəlcədən (ssudanın qaytarılma müddəti çatmamışsa) məbləğin müəyyən faizini ödəməyi tələb edirlər.<br>3. Həqiqi uçot dərəcəsi. Bank uçot dərəcəsindən onunla fərqlənir ki, həqiqətən ödənilən məbləğin faizi kimi hesablanır.<br>4. Qiymətli kağızlar üçün diskont. Mükafata əks olaraq qiymətli kağızların nominal dəyərindən aşağı qiymətə satılması. Bu diskont emitent üçün ödəniləməsinə möhlət verilmiş faiz dərəcəsidir, çünki emitent bu qiymətli kağızların nominal dəyərini ödəməyə borcludur.<br>5. Kağız pulların qiymətdən düşməsi. Əgər dövriyyədə qiymətli metallardan hazırlanmış pullar yoxdursa, onda onların kağız pulla dəyəri tədricən artır. Bu prosesə kağız pulların diskontlaşması (dəyərdən düşməsi) deyilir.<br>6. Təcili valyuta əməliyyatlarında valyutanın qiymətləndirilməsinə tətbiq olunan diskont. |

| | | | | |
|---|---|---|---|---|
| **96** | Diskont dərəcəsi | Discount rate | Ставка дисконта | Gözlənilən gələcək dəyərin müqayisə oluna bilən alternativ investisiyaların gəlirlilik norması üzrə diskontlaşması. Bu gəlirlik norması, həmçinin, gəlirlik normasının həddi və ya kapitalın alternativ xərcləri adlanır. Alternativ xərclər ona görə adlanır ki, bu gəlir investorun qiymətli kağızlar əvəzinə hər hansı bir layihəyə qoymaqla imtina etdiyi gəlirə bərabərdir. |
| **97** | Diskont istiqraz vərəqələri | Discount bonds | Дисконтные Облигации | Əgər istiqraz nominal qiymətinə nisbətən güzəştlə satılırsa, ona diskont istiqraz vərəqəsi deyilir və investorun qazancı kapital artımı formasında olur. Sıfır kuponlu istiqrazlar xalis diskont istiqraz, diskontlu istiqraz isə emissiyadan diskont istiqraz adlanır. |
| **98** | Diskontlaşmış ödənmə müddəti qaydası | Discounted paymback rule | Правило дисконтированной окупаемости | Diskontlaşmış ödənmə müddəti qaydası layihənin icra müddətini xalis gətirilmiş dəyərdən asılı olaraq müəyyənləşdirir. Bu qayda ödənmə qaydasının təkmilləşmiş variantıdır və bütün pul vəsaitləri eyni əhəmiyyətli kimi qiymətləndirilməsi ilə bağlı səhvlərin qarşısını alır. |
| **99** | Diskontlaşdırma əmsalı | Discount factor | Коэффициент дисконтирования | Vahidin gəlirlilik norması və vahidin cəminə olan nisbəti. Gəlirlik norması deyildikdə, investorun ödənişə verilən möhlətin müqabilində tələb etdiyi mükafat nəzərdə tutulur: $D_f = \frac{1}{1+r}$; Burada: $D_f$ - diskontlaşdırma əmsalı; $r$ - gəlirlilik norması. |

| | | | | |
|---|---|---|---|---|
| **100** | Dispersiya | Дисперсия, | Variance | Ehtimal nəzəriyyəsində təsadüfi kəmiyyətlərin əsas xarakteristikalarındandır. Dispersiya – təsadüfi kəmiyyətin qiymətinin orta qiymətdən fərqinin kvadratının orta qiymətidir:<br>$$Dx = M(x - Mx)^2;$$<br>Burada:<br>$D$ - təsadüfi kəmiyyətin dispersiyası;<br>$M$ – təsadüfi kəmiyyətin orta qiyməti (riyazi gözləməsi);<br>$x$ - təsadüfi kəmiyyətdir.<br>Qiymətli kağızlara tətbiqən, bazar gəlirliyinin dispersiyası gözlənilən gəlirdən kənarlaşmanın gözlənilən kvadratıdır.<br>*Bax: Standart kənarlaşma, kovariasiya.* |
| **101** | Dispersiya portfel riskinin meyarı kimi | Variance, measuring for portofolio risk | Дисперсия, как измеритель портфельного риска | Statistik nəticələrin paylanmasının əsas göstəriciləri dispersiya və standart kənarlaşmadır. Bazar gəlirinin dispersiyası gözlənilən gəlirin orta qiymətindən kənarlaşmasının kvadratıdır. Standart kənarlaşma isə dispersiyanın kvadrat köküdür. İnvestisiya portfelinin gözlənilən gəliri portfeldəki ayrı-ayrı səhmlərin gözlənilən gəlirlərinin orta qiymətidir. Portfelin riskini hesablamaq daha çətindir. Bunun üçün portfelin dispersiyası hesablanmalıdır, lakin bu zaman təkcə səhmlərin dispersiyası deyil, eyni zamanda onlar arasındakı korrelyasiya nəzərə alınmalıdır. Aylıq gəlirin dispersiyası illik gəlirin dispersiyasının 1/12 hissəsidir, yəni qiymətli kağızları və onların portfelini çox saxladıqca risk daha çox artmış olur. |

| | | | | |
|---|---|---|---|---|
| **102** | Diversifikasiya | Diversification | Диверсификация | Kapitalın müxtəlif yatırım obyektləri arasında iqtisadi riskləri azaltmaq məqsədi ilə bölüşdürülməsi. Diversifikasiyanın aşağıdakı növlərini fərqləndirirlər: a) bank aktivlərinin diversifikasiyası; b) dövlətin və bankın valyuta ehtiyatlarının diversifikasiyası; c) investisiyaların diversifikasiyası; d) qiymətli kağızların diversifikasiyası; e) hazır məhsulun diversifikasiyası; f) istehsalatın diversifikasiyası; g) iqtisadi fəaliyyətin diversifikasiyası; i) importun diversifikasiyası. |
| **103** | Diversifikasiya məhdudiyyətləri | Limits to diversification | Ограничения на диверсификацию | Səhmlər arasındakı asılılıq, yəni müsbət kovariasiya diversifikasiyanı məhdudlaşdırır. Beləliklə, orta kovariasiya qiymətli kağızlar portfelinin diversifikasiyasında baza riskini müəyyən edir. |
| **104** | Diversifikasiya olunan risk | Diversifiable risk | Диверцируемый риск | İndividual riskə eyni zamanda qeyri-sistematik, qalıq, xüsusi və ya diversifikasiya olunan risk deyilir. |
| **105** | Dividend gəliri | Dividend yield | Дивидендный доход | Dividend gəliri – illik dividendin səhmlərin cari qiymətlərinə nisbətinin faizlə ifadəsidir.<br>*Bax: dividend gəlirin norması.* |

| | | | | |
|---|---|---|---|---|
| **106** | Dividend gəlirin norması | Norm of dividend yield | Норма дивидендного дохода | Bir səhmə düşən qiymətli kağızın qiymətinin bir hissəsi olan dividend. Dividend gəlirinin bir səhmə düşən norması sadəcə olaraq səhmin qiymətinin bir hissəsinin dividendidir.<br>$N_{div} = \frac{V_{div}}{P_0}$;<br>Burada:<br>$N_{div}$ - dividend gəlirin norması;<br>$V_{div}$ - dividend;<br>$P_0$ – səhmin gətirilmiş dəyəri.<br>Dividend gəlirinin norması yüksək olduqda investorlar dividendlərin artım tempinin aşağı olacağını gözləyirlər və ya gəlirliyinin yüksək olmasını tələb edirlər.<br>*Bax: dividend gəliri.* |
| **107** | Dividend ödəmələr əmsalı | Payout ratio | Коэффициент дивидендных плат | Məcmu dividendlərin bir səhmə düşən mənfəətə nisbəti. Bu əmsal göstərir ki, xalis mənfəətin hansı hissəsi dividendlər şəklində ödənilibdir.<br>$C_{dp} = \frac{D}{P_a}$;<br>Burada:<br>$C_{dp}$ - dividend ödəmələr əmsalı;<br>$D$ - məcmu dividendlər;<br>$P_a$ - bir səhmə düşən mənfəət. |

| | | | | |
|---|---|---|---|---|
| **108** | Dividend siyasəti | Dividend policy | Дивидендная политика | Dividend siyasəti dedikdə, pul dividendlərinin ödənilməsinin firmanın uzunmüddətli yatırımlarına və borclarına təsirini öyrənmək və nəzərə almaq başa düşülür. |
| **109** | Dividend siyasəti və səhmlərin alınması | Dividend policy and share repurchase | Дивидендная политика и выкуп акций | Dividend öənişlərinin hər hansı artırılması yeni səhmlərin buraxılışı ilə (əgər firmanın investisya və borc siyasətində dəyişiklik yoxdursa) əvəzləşdirilməlidir və əksinə, dividend ödənişlərinin hər hansı məhdudlaşdırılması səhmlərin buraxılışının azaldılması və əvvəllər buraxılmış səhmlərin alınması ilə müşayiət olunur. |
| **110** | Dividend siyasəti və səhmlərin qiymətlərinin hesablanması | Dividend policy and share price calculation | Дивидендная политика и расчет цены акций | Dəyişməz investisiya siyasəti şəraitində şirkətin dividend siyasəti dividendlərin ödənilməsi ilə səhmlərin buraxılması və ya alınması arasındakı seçimdən ibarətdir. İnvestisiya dairələrində yayılmış mülahizəsi ondan ibarətdir ki, yüksək dividendlər səhmlərin qiymətlərinin artmasına səbəb olur. |
| **111** | Dividend siyasəti və vergilər | Dividend policy and taxes | Дивидендная политика и налоги | Dividend siyasəti vergilərin dividendlərə, yoxsa kapital artımına daha çox yüklənməsindən asılı olaraq müəyyənləşdirilir. Əgər dividendlər daha yüksək vergi ilə yüklənibsə, onda investorlar kiçik dividend gəliri olan səhmlər üçün daha çox ödəməlidirlər. Başqa sözlə, onlar qiymətli kagızların vergiyə qədərki daha aşağı gəlir norması ilə razılaşmalıdırlar. Belə qiymətli kağızlarin əsas gəliri divdend kimi deyil, kapital artımı şəklində olur. |

| | | | | |
|---|---|---|---|---|
| **112** | Dividendlər | Dividends | Дивиденды | Şirkətin xalis gəlirinin səhmdarlar arasında paylanılan və onların şirkətinin fəaliyyəti nəticəsində mənfəəti sayılan hissəsi. Ödənilmiş dividend, adətən ya səhmin nominal dəyərinin müəyyən faizi (əgər söhbət imtiyazlı səhmlərdən gedirsə), yaxud səhmin nominal dəyəri yoxdursa, şirkətin rəhbərliyi tərəfindən bir səhm üçün elan edilmiş (aylıq, yarım illik, illik və ya rüblük dövrlər üzrə) müəyyən məbləğ ödənilir.<br>Hüquqi şəxsin öz təsisçilərinin (payçılarının) və yaxud səhmdarlarının xeyrinə xalis mənfəətinin (sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən vergi və xərclər çıxıldıqdan sonra gəlirin) bölüşdürülməsi ilə bağlı pul və ya digər ödəmələr şəklində ödəniş.<br>Hüquqi şəxsin ləğvi ilə bağlı əmlakın bölüşdürülməsi nəticəsində əldə edilən gəlir, həmçinin səhmdarların səhmlərin faiz nisbətini dəyişdirməyən səhmlərin bölüşdürülməsi, səhmlərinin (hissələrin, payların) nominal dəyəri hüdudlarında geri alınması ilə bağlı edilən ödənişlər dividend sayılmır. |
| **113** | Dividendlər və kapital artımı | Capital gain | Дивиденды и приращение капитала | Firmanın pul vəsaitləri dividendlərin ödənilməsinə və ya kapital artımına yönəldilə bilər. Dividend siyasətinə vergilərin ödənilməsi birbaşa təsir edir, belə ki, dividendlərə görə vergilər həmən ödənilməlidir, kapital artımına görə vergilər isə səhmlərin satılmasına və kapital artımının əldə olunmasına qədər təxirə salına bilər. Vergilər təxirə salınması isə vergi öhdəliklərinin gətirilmiş dəyərinin aşağı düşməsinə səbəb olur. Beləliklə, səhmdar fiziki şəxslər dividendlərə nisbətən kapital artımında daha çox maraqlıdırlar. Vergilərdən azad digər maliyyə institutlarının (məs: təqaüd fondları) isə belə maraqları olmaya bilər. |

| | | | | |
|---|---|---|---|---|
| **114** | Dividendlər və risk | Dividends and risk | Дивиденды и риск | Menecerlər dividend ödənişlərini stabilləşdirə bilərlər, lakin səhmlərin qiymətlərinin dəyişməsinə nəzarət edə bilməzlər. Dividend artımı etibarlı olduğu halda (yadda saxlamaq lazımdır ki, dividendlər adətən nəğd pul şəklində ödənilir və onların həcmi menecerlər tərəfindən müəyyənləşdirilir) kapital artımı risklə müşaiyət olunur. Ona görə də dividendlərin yüksəlməsi firmanı az riskli edir. |
| **115** | Dividendlərə qanunvericilik məhdudiyyətləri | Legal limitations on divident | Законодательные ограничения на дивиденды | Qanunlar ilk növbədə kreditorları çox yüksək dividendlərin ödənilməsindən yarana biləcək təhlükədən qorumağa çalışırlar. Dividendlərə qanunvericilik məhdudiyyətləri əsasən 2 səbəblə bağlıdır: 1) Nizamnamə kapitalını dividendlərə bölüşdürmək olmaz, yalnız kapitalın artımı hesabına dividendləri ödəmək olar; 2) dividendlərin ödənməsi şirkətin ödəmə qabiliyyətini təhlükəyə məruz qoymamalıdır. |
| **116** | Dividendlərin səmərəliliyi | Market efficiency of dividends | Рыночная эффективность дивидендов | Şirkət buraxılmalı səhmlərinin sayını ya dövriyyədə olan səhmlərin bölünməsi, ya da səhmlərin əksər hissəsini dividendlər şəklində paylamaqla artıra bilər. Bu metodun səmərəliliyi ondan ibarətdir ki, bir tərəfdən investorlara daha çox gəlir gətirir, digər tərəfdən isə şirkətə daha yüksək artımın maliyyələşməsi üçün pul vəsaitlərini qorumağa imkan verir. |

| | | | | |
|---|---|---|---|---|
| **117** | Dividendlərin ödənişi | Payment of dividends | Выплата дивидендов | Dividendlərin məbləği firmanın direktorlar şurası tərəfindən müəyyənləşdirilir. Divedidendlər müəyyən müddət qeydiyyatdan keçmiş bütün aksionerlərə ödənilir.Aksionerlərə 2 həftə ərzində dividendlərin alınması üçün qəbzlər göndərilir. Əgər dividendli səhm vaxtında qeydiyyatdan keçməmişsə, onda satıcı dividendi alıcıya ödəməyə borcludur. |
| **118** | Dolayısı vergilər | Indirect taxes | Косвенные налоги | Gəlir sahibinin deyil, istehlakçının/istehsalçının üzərinə qoyulmuş vergiyə deyilir. Dolayısı vergilərə əlavə dəyər vergisini və aksizləri nümunə göstərmək olar. Aksizlər istehlakçıdan tutulan vergidir. |
| **119** | Dou-Cons indeksi | The Dow Jones average | Индекс Доу-Джонса | Dow-Jones company şirkəti tərəfindən 19-cu əsrin sonlarından başlayaraq ABŞ-nın iri şirkətlərinin səhmlərinin orta kursunu çap edirlər. Dou-Cons indeksi - şirkətlərin müəyyən qrupunun səhmlərinin Nyu-York fond birjasında günün axırına olan orta ədədin gündəlik qiymətləndirilməsidir. İndeksin hesablanma qaydası bir neçə dəfə dəyişmişdir. Hal-hazırda bir neçə indeks çap olunur: sənaye şirkətləri üçün 30 iri şirkərin səhmləri qiymətləndirilir; dəmiryolu şirkətrləri üçün 20 iri şirkərin səhmləri əsas götürülür; kommunal şirkətlər üçün 15 kommunal şirkərin səhmləri izlənilir. Bu indekslər əsasında ümumi indeks hesablanır. Dou-Cons indeksi ABŞ-da təsərrüfat rəqabətinin göstəricisidir və işgüzar dairələrin bu və ya dəgər iqtisadi hadisələrə münasibətini əks etdirir. Dəqiqlik dərəcəsi aşağıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **120** | Dönərli qiymətli kağızlar | Convertible securities | Конвертируемые ценные бумаги | Dönərli qiymətli kağızlar sahibinə onu adi qiymətli kağızlara dəyişmək hüququ verir. Eyni zamanda birləşmələrin maliyyələşməsi üçün imtiyazlı dönərli qiymətli kağızlar buraxıla bilər. Dönərli qiymətli kağızların əsas xüsusiyyəti ondan ibarətdir ki, onun sahibi səhmləri almağa öz opsionunu gerçəkləşdirən zaman pul ödəməli olmur, yalnız dönərli qiymətli kağızı təqdim edir. |
| **121** | Dönərli istiqraz | Convertible bond | Конвертируемая облигация | Dönərli istiqraz varrant və istiqrazlar paketini xatırladır. Eyni qaydada imtiyazlı dönərli istiqrazlar varrant və istiqrazlar paketininin alternatividir. Dönərli istiqrazın sahibi istiqraza və firmanın aktivlərnə "koll" opsionuna malik olur. Dönərli istiqrazın varrantlar paketindən əsas fərqi ondan ibarətdir ki, onun sahibi "koll" opsionundan istifadə etmək üçün istiqrazdan imtina etməlidir, istiqrazlar və varrantlar paketinin sahibi isə öz arzusu ilə varrantı pul ilə gerçəkləşdirə və istiqrazı özündə saxlaya bilər. |
| **122** | Dövriyyə kapitalı | Workinf capital | Оборотный капитал | Istehsalçı kapitalın əmək vasitələrinin və işçi qüvvəsinin alınmasına sərf olunan hissəsi. İstehsalçı kapitalın digər hissəsi əsas kapitaldır. |
| **123** | Dövriyyə kapitalına aksept | Working-capital acceptance | Акцепт на оборотный капитал | Dövriyyə kapitalına aksept və maliyyə vekselləri ümumi maliyyələşdirmə məqsədi ilə bəzi banklar tərəfindən akseptləşdirilmiş veksellərə deyilir. Nadir hallarda tətbiq olunur. |
| **124** | Dövriyyə kapitalının maliyyə planlaşdırması | Tracing change in cash / working capital | Финансовое планирование оборотного капитала | Qısamüddətli maliyyə planlaşması şirkətin dövriyyə aktivləri və cari öhdilikləri ilə bağlıdır. Dövriyyə kapitalının əsas komponentlərinə pul vəsaitləri, asan satılan qiymətli kağızlar, mal-material ehtiyatları və debitor borcları aiddirlər. Eyni zamanda, əsas cari öhdəliklər bank ssudaları və ödəmə tapşırıqlarıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **125** | Dövrün dəyərləndirilməsi | Horizon valuation | Оценки горизонта | Biznesin dəyəri, adətən, dövrün dəyərləndirilməsi çərçivəsində sərbəst pul vəsaitləri axınının diskontlaşmış dəyəri ilə qiymətləndirilən proqnoz dövrünün sonuna biznesin diskontlaşmış dəyərinin cəmi kimi təyin olunur. |
| **126** | Effektiv bazar | Efficient market | Эффективный рынок | Əsas maliyyə konsepsiyasıdır. Effektiv kapital bazarında hər hansı bir qiymətli kağızın əsas bazar qiyməti ilə alınıb-satılması heç bir halda müsbət xalis gətirilmiş dəyərə səbəb olmur. Bu konsepsiyanın əsas müəllifi M.G.Kendall hesab olunur. |
| **127** | Effektiv portfel | Efficient portfolio | Эффективный портфель | *Bax: Risk və portfel nəzəriyyəsi* |
| **128** | Effektiv vergi dərəcəsi | Effective tax rate | Эффективная налоговая ставка | Effektiv vergi dərəcəsi – əldə olunan gəlirlərə tətbiq edilən orta vergi dərəcəsidir və aşağıdakı düsturla hesablanır:<br>$r_{eff} = \frac{V}{G}$;<br>$r_{eff}$ - effektiv vergi dərəcəsi (%-lə);<br>$V$ – ödənilən vergilər;<br>$G$ – vergi tutulan gəlir.<br>Effektiv vergi dərəcəsi yalnız proqressiv vergi sistemlərində effektiv faiz dərəcələri nominal vergi dərəcələrindən fərqlənirlər. |

| | | | | |
|---|---|---|---|---|
| **129** | Ehtiyatlar | Inventory | Запасы | Hal-hazırda istehsalatda istifadə olunmayan material dəyərliləri, xammalın, materialların, yanacağın, yarımfabrikantların, gələcəkdə istifadə üçün nəzərdə tutulmuş, lakin anbarda saxlanılan və istifadə olunmayan hazır məhsul şəklində dövriyyə vəsaitləridir. Ehtiyatlar istehsalın fasiləsiz işinin təmin edilməsi üçün yaradılır. Hesab normaları üzrə, ehtiyatlar normativ və normativdən xaric növlərə bölünürlər. Ehtiyatların müxtəlif kateqoriyaları vardır: bufer, valyuta, istehsal, strateji, mal və c. |
| **130** | Ehtiyatların dövretməsi əmsalı | Inventory turnover ratio | Коэффициент оборачиваемости запасов | Menecerlər üçün ehtiyatların dövretməsi sürəti maraq kəsb edir. Ehtiyatların dövretməsi əmsalı dedikdə, satılmış məhsulun maya dəyərinin ehtiyatların orta dəyərinə olan nisbəti başa düşülür. Ehtiyatların dövretməsi əmsalının yüksək olması bir tərəfdən yüksək effektivliyi əks etdirirsə, digər tərəfdən şirkətin çox çətinliklə fəaliyyət göstəridiyini aşkarlayır.<br>$R_{it} = \frac{C_{rp}}{V_i}$;<br>Burada:<br>$R_{it}$ - ehtiyatların dövretməsi əmsalı;<br>$C_{rp}$ - satılmış məhsulun maya dəyəri;<br>$V_i$ - ehtiyatların orta dəyəri. |
| **131** | Emissiya | Issuancy | Эмиссия | Maliyyə cəlb edilməsi məqsədi ilə müxtəlif tipli kağızların buraxılışıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **132** | Emissiya qiyməti | Issue price | Эмиссионная цена | Qiymətli kağızların emissiyası prosesində bir ədəd səhmin nominal buraxılış qiymətidir. |
| **133** | Etibarnamə | Proxy | Доверенность | Etibarnamə verilmış şəxsə etibarnaməni vermiş şəxs adından bu və ya digər əməliyyatın icra hüququnu verən sənəddir. Etibarnamənin 3 növü vardır: 1) birdəfəlik - konkret əməliyyatın keçirilməsi üçün verilir; 2) xüsusi - eynicinsli əməliyyatların keçirilməsi üçün verilir; 3) Baş (general) - etibarnaməni vermiş şəxsin əmlakının idarə olunması, onun məhkəmədə iştirak etmək, beynəlxalq iqtisadi müqavilələrin bağlanması. |
| **134** | Etibarlı ekvivalent | Certainty equivalent | Надежный эквивалент | Etibarlı ekvivalent metodu gətirilmiş dəyərin hesablanmasında diskont dərəcəsinin təshihi metodunun alternativi kimi çıxış edir. Əgər pul vəsaitləri axını risklə bağlıdırsa, adətən, onun gözlənilən məbləği diskontlaşması riskə uyğun olaraq təshih edilir. Riskə görə təsbit olunmuş diskont dərəcəsi həm riski, həm də proqnoz müddətini nəzərə alır. Alternativ yanaşmada etibarlı ekvivalent metodu ilə pulun dəyərinin zamana görə dəyişməsi və riskə görə diskonta ayrı-ayrı düzəlişlər edilir. Metodun adı onunla bağlıdır ki, riskli pul vəsaitləri axınını əvəz edə biləcək ən kiçik etibarlı gəlir müəyyənləşdirilir. |
| **135** | Etibarlı qəbz | Trust receipt | Трастовый сертификат | Ehtiyatlarla təmin olunmuş borclardan istifadə edərkən maliyyə şirkətinin etibarnaməsi ilə həmin ehtiyatdan istifadə edən şirkət etibarlı qəbz imzalayır. Nəticədə ehtiyatın satılmasından əldə olunan gəlir etibarlı qəbzin ödənməsinə sərf olunur. |

| | | | | |
|---|---|---|---|---|
| **136** | Əksinə dəyişən dərəcə | Reverse floater rate | Обратная плавающая ставка | Faiz dərəcələrinin ümumi dəyişməsinin əksinə dəyişən faiz dərəcəli səhmlərə əksinə dəyişən dərəcəli səhmlər deyilıir. |
| **137** | Əks dəyişən dərəcəli istiqraz vərəqələri | Yield – curve note | Облигации с обратной плавающей ставкой | Faiz dərəcəsi, dərəcələrin ümumi dəyişməsinin əksinə dəyişən istiqrazlar. *Məs.: Hong Kong Mass Transit Railway şirkətinin 1986-cı ildə 5 il müddətinə buraxılmış istiqrazları.* |
| **138** | Əlavə dəyər vergisi | Value added tax | Налог на добавленную стоимость | AR VM-ə əsasən - Əlavə dəyər vergisi (bundan sonra ƏDV) vergi tutulan dövriyyədən hesablanan verginin məbləği ilə bu Məcəllənin müddəalarına uyğun olaraq verilən elektron vergi hesab-fakturalara və ya idxalda ƏDV-nin ödənildiyini göstərən sənədlərə müvafiq surətdə əvəzləşdirilməli olan verginin məbləği arasındakı fərqdir. |
| **139** | Əlavə dividendlər | Extra-dividends | Дополнительные дивиденды | Əgər şirkət requlyar pul dividendləri barədə gələcək üçün öhdəlik götürmək istəmirsə, onda ödəniləcək dividendləri əlavə dividendlər elan edir. |
| **140** | Əlavə mənfəət | Incremental payoffs | Дополнительные прибыли | Xalis gətirilmiş dəyər metodu ilə investisiya qərarlarını qəbul edərkən adi mənfəəti əlavə mənfəətdən fərqləndirmək lazımdır. Bəzi hallarda, uğurlu investisiya əlavə pul vəsaitləri axınının yaranmasına səbəb ola bilər. Bu zaman investisiyanın xalis gətirilmiş dəyəri əlavə pul vəsaitləri axınını nəzərə almaqla böyük qiymətlər ala bilər. Nəticədə hətta əlavə xərclər çıxıldıqdan sonra müsbət mənfəət qalır ki, bu da əlavə mənfəəti təşkil edir. |

| | | | | |
|---|---|---|---|---|
| **141** | Əlavə öhdəliklər | Supplemental liabilities | Дополнительные обязательства | Təqaüd fondunun dəyəri onun öhdəliklərindən aşağı olduqda təqaüd proqramı fonddankənar adlanır. Belə vəziyyət bir neçə səbəbdən yarana bilər. Məs.: təqaüd fondu portfelinə daxil olan qiymətli kağızların bazar dəyərlərinin aşağı düşməsi; aktuarinin əməkhaqqının artım tempinin yüksək qiymətləndirməsi; təqaüd müavinətlərinin artması. Bu səbəblər uyğun olaraq qiymətli kağızların bazar dəyərlərinin dəyişməsinin itkiləri, gümanların dəyişməsinin itkiləri və əlavə öhdəliklər adlanır. |
| **142** | Əməliyyat leverici | Operating leverage | Операционный Леверидж (операционная зависимость) | Əsasında firmanın satışdan əldə etdiyi vəsaitlərin, faizlərin və vergilərin ödənilməsinə qədərki gəlirlərinin nisbətidir. Əməliyyat leverici müəssisənin ümumi xərclərində daimi xərclərin payı çox olduqda yaranır. |
| **143** | Əməliyyat lizinqi | Operating Lease | Операционный Лизинг | Lizinqin bəzi növləri qısa müddətli olur və icarəyə götürən tərəfindən vaxtından qabaq kəsilə bilər. Belə lizinqə əməliyyat lizinqi deyilir. |
| **144** | Əmlak | Property | Имущество | Hər hansı daşınan və ya daşınmaz əmlak, o cümlədən qeyri-maddi aktivlər, dövriyyə vəsaitləri və mülkiyyət hüququnun digər obyektləri. |
| **145** | Əmlakın qalıq dəyəri | Residual value of property | Остаточная стоимость имущества | Əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyanın məbləği qədər azaldılan dəyəri. |

| | | | | |
|---|---|---|---|---|
| **146** | Əmlakın verilməsi | Assignment of property | Передача имущества | Əgər şirkərin müflisləşmə təhlükəsi varsa, dəyərin ötürülməsi prosedurası təşkil oluna bilər. Dəyərin ötürülməsi prosesində firmanın aktivləri konkret şəxsə etibar olunur və həmin şəxs aktivləri satır, əldə olunan vəsaiti borclardan azad olmağın müqabilində kreditorlar arasında bölüşdürür. |
| **147** | Faiz dərəcələri | Interest rates | Процентные ставки | Faizlə ifadə olunmuş verilmiş kreditə görə müəyyən dövr üçün (il, ay və s.) hesablanmış ödəniş. Faiz dərəcələri dövriyyədə olan pulun məbləğindən, hökümətin siyasətindən, riskin dəyərləndirilməsindən, valyuta kursundan və kredit dövründən asılı olaraq təyin olunur. Qısamüddətli, uzunmüddətli, ortamüddətli, üzən və təsbit olunmuş tiplərini fərqləndirirlər. |
| **148** | Faiz dərəcələrinin paritetləri nəzəriyyəsi | Interest-rate parity theory | Теория паритета процентных ставок | Bu nəzəriyyə faiz dərəcləri, valyutanın forvard və spot kursları, eləcə də inflyasiya tempi arasındakı əlaqələri izah edən nəzəriyyələr sırasındandır. Faiz dərəcələrinin paritetləri nəzəriyyəsinə görə valyuta risklərindən qorunan faiz dərəcələri valyutadan asılı deyildir. |

| | | | | |
|---|---|---|---|---|
| **149** | Faiz dərəcələrinin zaman strukturu üçün gözləmə fərziyyələri | Expections hypothesis, for term structure of interest rates | Гипотеза ожиданий для временной структуры процентных ставок | Bu fərziyyəyə görə, faiz dərəcələrinin zaman strukturunun yüksəlmə meyilliyinin yeganə səbəbi ondan ibarətdir ki, investorlar gələcək "spot" dərəcələrinin cari "spot" dərəcələrindən yüksək olacağını güman edirlər. Və əksinə, faiz dərəcələrinin zaman strukturunun azalma meyilliyinin yeganə səbəbi ondan ibarətdir ki, investorlar gələcək "spot" dərəcələrinin cari "spot" dərəcələrindən aşağı olacağını güman edirlər.<br>*Bax: F.A. Lutz and V.C. Lutz. The Theory of Investment in the Firm. Princeton University Press, Princeton, N.Y., 1951.*<br><br>Faiz dərəcələrinin zaman strukturu üçün gözləmə fərziyyəsinin əsas nöqsanı riskin nəzərə alınmamasındadır. Risk amili faiz dərəcələrinin zaman strukturuna tətbiqən likvidliyin üstünlüyü nəzəriyyəsində öz əksini tapır. Forvard dərəcələri ilə gözlənilən gələcək spot dərəcələri arasındakı fərq likvidlik mükafatı adlanır.<br><br>*Bax: J.R. Hicks. Value and Capital: An Inquiry into Some Fundamental Priciples of Economic Theory. 2d ed. Oxford University Press, Oxford, 1946.* |

| | | | | |
|---|---|---|---|---|
| **150** | Faizin ödənməsi əmsalı | Times interest earning ratio | Коэффициент покрытия процента | Maliyyə asılılığını əks etdirən əmsaldır. Faizlərin, vergilərin ödənilməsinə qədərki mənfəətin və amortizasiyasının məcmu məbləğinin faizlərin məbləğinə olan nisbətinə deyilir. $C_p = \frac{G_{(-)} + A}{P}$; Burada: $C_p$ - faizin ödənməsi əmsalı; $G_{(-)}$ - faizlərin, vergilərin ödənilməsinə qədərki mənfəət; $A$ – amortizasiya; $P$ - faizlərin məbləği. |
| **151** | Faizlər | Interests | Проценты | Borc öhdəlikləri ilə bağlı olan hər hansı ödəmə, o cümlədən kreditlərin (ssudaların) və ya depozitlərin (hesabların) verilməsi üçün ödəmə. |
| **152** | Faktorinq | Factoring | Факторинг | Debitor borcların yığılması xərclərini azaltmaq üçün faktorinq şirkətin xidmətindən istifadə etmək məqsədəuyğundur. Faktorinq belə təşkil olunur. Faktorinq şirkət və kliyent hər bir alıcının maksimal krediti və borcun ödənilməsinin orta müddəti barədə saziş imzalayırlar. Kliyent alıcıları debitor borcların faktorinq şirkət tərəfindən alınması barədə məlumatlandırır. Faktorinq şirkət öz növbəsində borcların ödənilb-ödənilməməsindən asılı olmayaraq borcun ödəmə müddətində kliyentə borcu ödəyir. Bu xidmətin əvəzində faktorinq şirkət borcun 1-2% -i məbləğində haqq alır. |

| | | | | |
|---|---|---|---|---|
| **153** | Faktorinq şirkət | Factor | Факторинговая компания | Faktorinq şirkət digər şirkətin debitor borclarını satın alır və əvəzində müəyyən avans ödəyə bilər. Faktorinq şirkət borcların yığılmasına görə məsuliyyət daşıyır və əgər kliyentlər borcu ödəmirlərsə, ziyanı öz üzərinə götürür. |
| **154** | Fayda - xərc əmsalı və ya rentabellik | Benefit – cost - ratio | Коэффициент выгоды - издержки или рентабельности | Gələcək proqnazlaşdırılan pul vəsaitləri axınının gətirilmiş dəyərinin ilkin investisiyalara olan nisbəti. Bu əmsala həmçinin rentabellik əmsalı deyilir. Rentabellik əmsalı metodu xalis gətirilmiş dəyər prinsipinə oxşayır. Lakin xalis gətirilmiş dəyər Fayda - xərc əmsalından fərqli olaraq toplama keyfiyyətinə malik olduğu üçün daha etibarlı meyar hesab olunur.<br>$R = \frac{V_p}{C_0}$;<br>Burada:<br>$R$ - fayda - xərc əmsalı;<br>$V_p$ - gələcək proqnazlaşdırılan pul vəsaitləri axınının gətirilmiş dəyəri;<br>$C_0$ - ilkin investisiyaların dəyəri. |
| **155** | Fond | Fund | Фонд | Dövriyyə kapitalını artıran hər bir şey fondun mənbələri adlanır, dövriyyə kapitalını azaldan hər bir şey fondun istifadəsi adlanır. |

| | | | | |
|---|---|---|---|---|
| **156** | Fond birjası | Stock-market | Фондовая биржа | Fond birjası qiymətli kağız bazarında alqı və satqını təsdiq edən tərəf. Fond birjaları ancaq həmin birjanın üzvləri arasında qiymətli kağızların alqı-satqısını təşkil edir. Fond birjasına üzv olmayan şirkətlər öz qiymətli kağızlarını yalnız və yalnız həmin birja üzvlərinin vasitəçiliyi ilə sata bilərlər. Fond birjasının əməkdaşı həmin Fond birjasının təsisçisi ola bilməz və burada heç bir sahibkarlıq fəaliyyəti apara bilməz. |
| **157** | Fonddankənar borc | Unfunded debt | Внефондовый долг | Ödənişi bir ildən sonra tələb olunan öhdəlik fond öhdəliyi adlanır. Əksinə, ödənişi bir ildən az müddətdə tələb olunan öhdəlik fonddankənar öhdəlik adlanır və balansda cari öhdəlik kimi səciyyələndirilir. |
| **158** | Fonddankənar öhdəliklər | Unfunded liabilities | Внефондовые обязательства | Təqaüd fondunun öhdəliklərindəndir. Əgər təqaüd fondunu təşkil edən aktivlərin dəyəri əməkhaqqının gələcək artımı ilə bağlı öhdəlikləri önləmək üçün kifayət deyilsə, belə defisit fonddankənar öhdəliklər adlanır. |
| **159** | Forvard | Forward | форвардный | Valyutanın uzunmüddətli fasilədən sonra satış kursu (adətən, 1, 3 və ya 6 ay sonra, xüsusi hallarda 10 il sonra) |
| **160** | Forvard bazarı | Forward market | Форвардный рынок | Valyutanın təxirəsalınmaz təchizatı ilə bağlı valyuta bazarı ilə yanaşı müddətli təchizat nəzərdə tutan valyuta bazarı da fəaliyyət göstərir. Belə bazara forvard bazarı deyilir. |
| **161** | Forvard diskont | Forward discount | Дисконт форвардный | Uzunmüddətli valyuta satışlarında valyutanın cari kursu ilə forvard kursu arasındakı fərq |

| | | | | |
|---|---|---|---|---|
| **162** | Forvard kursu | Forward rate | Форвардный курс | Valyutanın gələcək alışı üçün təsbit olunmuş və forvard müqaviləsində nəzərdə tutulan kursu forvard kursu adlanır. |
| **163** | Forvard mükafatı | Forward premium | Форвардная премия | Valyuta əməliyyatında valyutanın cari kursu ilə forvard kursu arasındakı fərq hesabına əldə olunan gəlir forvard mükafatı adlanır. |
| **164** | Forvard müqavilə | Forward contract | Форвардный контракт | İki tərəfin öz aktivlərinin həqiqi təchizat kimi gələcək konkret tarix üçün mübadiləsini nəzərdə tutan müqaviləsi. Forvard müqavilə valyuta bazarlarında mühüm rol oynayır və fiziki və hüquqi şəxslərə valyuta kursunun dəyişməsi riskindən qorunmağa imkan verir. Forvard müqavilə fyuçers müqaviləsindən iki punktda fərqlənir: birinci, forvard müqavilə tərəflər arasındakı individaul şərtləri əks etdirir, fyuçers müqaviləsinin şərtləri isə birjada müəyyənləşir; ikinci, forvard müqavilə fyuçers müqaviləsinin əksinə olaraq cari bazar qiymətlərindən asılı olaraq yenidən qiymətləndirilmir. |
| **165** | Françayzinq | Franchise | Франзайзинг | İri və xırda biznesin təsərrüfat inteqrasiyası forması. İri şirkət (françayzer) müstəqil hüququ şəxs olan kiçik şirkətə onun ticarər markasından istifadə etməyə icazə verir, ona kredit verə bilər və borc götürəndə zamin durur. Kiçik firma üçün françayzinqin üstünlüyü françayzerin ticarət markası və reklamından istifadə edərək biznesə daxil olmaq xərclərini azaltmaqdadır. Françayzer isə öz fəaliyyətini genişləndirir, investisiya və riski azaltmaqla gəlirini artırır və kiçik firmaya məhsulun keyfiyyəti və dəyəri baxımından nəzarət edir. |

| | | | | |
|---|---|---|---|---|
| **166** | Franşiza | Franchise | Франшиза | Müəyyən müddət üçün nəzərdə tutulmuş və müqavilədə qeyd olunmuş kommersiya müəssisəsi yaratmaq hüququ. Franşizanın əldə olunması ilə bağlı xərclər qeyri-material aktivlər kimi uçota alınır. |
| **167** | Fyuçers | Futures | Фьючерс | Aktivin və ya malın əvvəlcədən razılaşmaya görə alınması və ya satılması.<br>*Bax: Fyuçers müqaviləsi.* |
| **168** | Fyuçers bazarı | Futures market | Фьючерсный рынок | Valyutanın gələcək təchizatı ilə bağlı yaxşı təşkil olunmuş valyuta bazarları vardır ki, bunlara fyuçers bazarı deyilir. Belə bazarda fyuçers müqaviləsi yüksək dərəcədə standartlaşmışlar: onlar ancaq əsas valyutalar üçün bağlanırlar, məbləğ dəqiq təyin olunur və təchizat günü ciddi surətdə məhdudlaşdırılır. |
| **169** | Fyuçers qiyməti | Future price | Фьючерсная цена | Səhm ya "spot" qiyməti ilə təxirəsalınmaz, ya da ödənişi təxirə salmaqla fyuçers qiymətinə almaq olar. Bu almağın 2 fərqi var: əvvəla, qiymətli kağız üçün əvvəlcədən ödəniş etmədiyiniz üçün səhmin qiymətinin faizlərini qazanmaq mümkündür, ikincisi, ödənişə qədərki dövr üçün qiymətli kağızlar üçün olan dividendləri və faizləri itirmiş olursunuz. |
| **170** | Fyuçers müqaviləsi | Futures contract | Фьючерсный контракт | Aktivin və ya malın əvvəlcədən razılaşmaya görə alınması və ya satılması. Qiymətlər fyuçers müqaviləsi bağlanarkən müəyyənləşdirilir, aktivlərin ödənişi isə sövdələşmənin icrasının nəzərdə tutulduğu tarixdə baş verir. |

| | | | | |
|---|---|---|---|---|
| **171** | Gəlir | Return | Доход | Hər-hansı fəaliyyət nəticəsində pul və ya digər qiymətlilərin əldə edilməsi. Gəlirlərin aşağıdakı növlərini fərqləndirmək olar: əhalinin gəliri, müəssisələrin və təşkilatların gəlirləri, dövlətin gəliri. |
| **172** | Gəlirin forvard norması | Forward rate of return | Форвардная норма доходности | Borcun 1 il əvəzinə 2 il müddətinə verilməsindən yaranan əlavə gəlir gəlirin forvard norması adlanır. |
| **173** | Gəlirli istiqraz vərəqələri | Income bonds | Доходные Облигации | Bu istiqrazın sahibi ancaq o vaxt faizləri ödəyir ki, illik gəlir faizlər üzrə ödənişi üstələyə bilsin. |
| **174** | Gəlirli səhmlər | Income stock | Доходные акции | Səhmlər adətən iki niyyətlə alınırlar: ya kapitalın dəyərinin artırılması üçün, ya da pul formasında dividendlərin əldə edilməsi üçün. Əgər həm dividendlərin, həm də mənfəətin artması səhmlərin qiymətinin artmasına gətirmirsə, onda belə səhmlər gəlirli səhmlər hesab olunurlar. |
| **175** | Gəlirlik norması | Rate of return | Норма доходности | Gəlirin aktivlərə, kapitala nisbəti. Bir il ərzində qiymətli kağızlar portfeli üzrə həm daxil olmuş pul vəsaitləri (faizlər və ya dividendlər), həm də kapital artımı (yəni kurs dəyərinin artımından əldə olunan gəlir) nəzərdə tutulur. |
| **176** | Gəlirlik norması qaydası | Rate-of-return rule | Правило нормы доходности | İnvestisiya barədə qərarların qəbul edilməsi 2 qaydaya əsaslanır: gəlirlilik norması və xalis gətirilmiş dəyər qaydaları. Gəlirlik norması qaydasına görə yalnız gəlirlik norması alternativ xərclərdən yüksək olan investisiyaları etmək lazımdır. |

| | | | | |
|---|---|---|---|---|
| **177** | Gəlirliyin faktiki qiyməti | Real return | Фактическая цена доходности | Uzunmüddətli aktivlərin dəyərləndirilməsində əsas parametrlərdən biri gəlirliyin faktiki qiymətidir. İkinci əsas parametr gəlirliyin gözlənilən qiymətidir. Uzunmüddətli aktivlərin dəyərləndirilməsində iki problem var. Birinci, uzunmüddətli aktivlərin dəyərləndirilməsi qaydası gəlirliyin gözlənilən qiymətini əsas götürür. Lakin məhz bu parametrin praktikada təyin olunması çətinlik törədir. İkinici, bazar portfeli bütün riskli investisiyaları (səhmlər, istiqrazlar, mallar və əmlak və s.) əhatə etməlidir. Əslində isə, bazar indeksləri adətən yalnız adi səhmlərin əsasında təyin olunur. Fama və Makbet gözlənilən gəlirliyin əvəzində faktiki gəlirlikdən istifadə etməklə uzunmüddətli aktivlərin dəyərləndirmək metodunu təklif etmişlər. |
| **178** | Gətirilmiş dəyər | Present value | Приведенная стоимость | Gələcəkdə əldə oluna biləcək gəlirin gətirilmiş dəyəri məcmu gəlir ilə diskontlaşma əmsalının hasilinə bərabərdir. Diskontlaşma əmsalının qiyməti vahiddən kiçik olur.<br>$P_v = D_f * C_r$;<br>Burada:<br>$P_v$ – gətirilmiş dəyər;<br>$D_f$ - diskontlaşdırma əmsalı;<br>$C_r$ – bir dövr üçün gözlənilən gəlir.<br>*Bax: Diskontlaşdırma əmsalı, gəlirlilik norması.* |

| | | | | |
|---|---|---|---|---|
| **179** | Gətirilmiş dəyər cədvəli | Present value tables | Таблица приведенной стоимости | Gətirilmiş dəyərin hesablanması cədvəlidir. Dövrlər, diskontlaşma əmsalı, pul vəsaitləri axını və gətirilmiş dəyər sütunlarından təşkil olunur. |
| **180** | Girov barəsində neqativ qeyd-şərt | Negative pledge clause | Негативная оговорка о залоге | Təmin olunmamış istiqrazların emissiyasında girov qoyulmuş aktivlərin miqdarı heç bir rol oynamır. Təmin olunmamış istiqrazların emissiyası barədə razılaşma girov barəsində neqativ qeyd-şərt ilə müşayiət olunur, yəni girovla təminat barədə heç bir şərt yoxdur. |
| **181** | Gözləmə nəzəriyyəsi | Expectations theory | Теория ожиданий | Bu nəzəriyyə faiz dərəcələri, valyutanın forvard və spot kursları, eləcə də inflyasiya tempi arasındakı əlaqələri izah edən nəzəriyyələr sırasındandır. Gözləmə nəzəriyyəsinin əsas tezisinə görə forvard valyuta kusru gələcək sport kursa bərabər olmalıdır. Maliyyə menecmenti baxımından bu o deməkdir ki, valyuta öhdəlikləri üzrə öhdəliklərini müntəzəm yerinə yetirən şirkət onun sığortasına əlavə xərc çəkməli olmur. |
| **182** | “Hava şarı” | “Balloon” | «Воздушный шар» | Girovun növüdür: borcun əsas məbləği və faizlərin bir hissəsi müddət bitənə qədər ödənilmir. Belə girova həmçinin "qeyri-amortizasiya" girovu deyilir. "Hava şarı" girovunun şərtlərinə görə müddət bitdikdən sonra borcun tam məbləği birdəfəyə ödənilməlidir. |
| **183** | Hedc əmsalı | Hedge ratio | Коэффициент хеджирования | Bir növ aktivin dəyərinin dəyişilməsi üçün digər növ aktivin zəruri sayı. Malların gələcək təchizatı qiymətlərin uğursuz dəyişməsindən sığortası əməliyyatı hedcləşmə adlanır. Fyuçers, forvard və opsionların müqavilələrinin alınması və ya satılması yolu ilə gerçəkləşir. |

| | | | | |
|---|---|---|---|---|
| **184** | Hedcinq (sığortalanma) | Hedging | Хеджирование | Malların gələcək təchizatı ilə əlaqədar qiymətlərin uğursuz dəyişməsindən qorunmaq üçün keçirilən əməliyyatdır. Fyuçers müqavilələrinin alınması ilə icra olunur. Əsas anlayış hedcləşdirmə əmsalıdır, yəni bir aktivin dəyərini dəyişdirmək üçün digər aktivin zəruri olan miqdarı.Hedcləşdirmə alətləri kimi forvard və fyuçers müqavilələrindən, svop razılaşmaları və opsionlardan istifadə olunur. |
| **185** | Həqiqi dəyər | True value | Истинная стоимость | İnvestisiyalar üzrə ekspertlər arasında rəqabət bazarda səhmlərin qiymətlərinin onların həqiqi dəyərlərini əks etdirməsinə səbəb olur. Həqəqi dəyərin gələcək dəyərdən fərqi ondadır ki, həqiqi dəyər cari zaman üçün ekspertlərin malik olduqları informasiyanı əks etdirən tarazlıq qiymətidir. Bu effektli bazarın təyinidir. |
| **186** | Həll olma | Dilution | Разводнение | Səhmlərin balans dəyərinə nisbətən aşağı qiymətə satılması bir səhmə düşən mənfəətin azalmasına səbəb ola bilər. |
| **187** | Həmişəyasıl kredit | Evergreen credit | «Вечнозеленый» кредит | Avtomatik bərpa olunan kreditin müddətsiz növüdür. Bank istənilən ildə bu krediti birbaşa müddətli ssudaya çevirə bilər. |
| **188** | “Hər şey və ya heç nə” | All or none | «Все-или-ничего», условие подписки | Səhmlərin kütləfi təklifi dövründə abunəçilər "maksimal cəhdlər" və ya “Hər şey və ya heç nə” şərtlərindən istifadə edirlər. Abunəçi "maksimal cəhdlər" şərti çərçivəsində səhmlərin mümkün qədər çox hissəsini satır, satılmayanları emittentə qaytarır. “Hər şey və ya heç nə” şərti daxilində isə səhmlərin ya hamısını satır, ya da tam həcmdə emittentə qaytarır. |

| | | | | |
|---|---|---|---|---|
| **189** | Həssaslıq | Sensitivity | Чувствительность | Uzunmüddətli investisiya layihələrinin analizinin bir komponentidir. Adətən bazarın həcminə, bazardakı paya və s. bağlı qeyri-müəyyənliklərin aradan qaldırılması, layihənin xalis gətirilmiş dəyərinin düzgün qiymətləndirilməsi onun etibarlılığını artırır. |
| **190** | Hüquqi şəxslərin torpaq vergisi | Land use tax levied from legal persons | Земельный налог с юридических лиц | Torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanır. |
| **191** | Hüquqsuz səhmlər | Ex-right | Акции без права | Belə səhmlərin sahiblərinin yeni səhm buraxmaq hüququ yoxdur. |
| **192** | Xalis diskontlu istiqraz vərəqələri | Original issue discount bonds | Чисто дисконтные облигации | *Bax: Sıfır kuponlu istiqraz vərəqələri* |
| **193** | Xalis dövriyyə kapitalının dövretməsi əmsalı | Sales to net working capital | Коэффициент оборачиваемости чистого оборотного капитала | Satışdan əldə olunan məbləğin xalis dövriyyə kapitalının orta dəyərinə olan nisbətinə deyilir. Xalis dövriyyə kapitalı digər aktivlərə nisbətən daha dəqiq ölçülə bilir. Digər tərəfdən, xalis dövriyyə kapitalına satışdan əldə olunan məbləğin zamana görə dəyişməsindən asılı olaraq düzəlişlər etmək mümkündür.<br>$S_{nc} = \frac{S_p}{V_{nc}}$;<br>Burada:<br>$S_{nc}$ - xalis dövriyyə kapitalının dövretməsi əmsalı;<br>$S_p$ - satışdan əldə olunan məbləğ;<br>$V_{nc}$ - xalis dövriyyə kapitalının orta dəyəri. |

| | | | | |
|---|---|---|---|---|
| **194** | Xalis gətirilmiş dəyər | Net present value | Чистая приведенная стоимость | Xalis gətirilmiş dəyər dedikdə, gətirilmiş dəyərlə tələb olunan investisiyalar arasındakı fərq başa düşülür.<br>*Bax: gətirilmiş dəyər.* |
| **195** | Xalis gətirilmiş dəyər qaydası | Net present value rule | Правило чистой приведенной стоимости | İnvestisiya barədə qərarların qəbul edilməsi 2 qaydaya əsaslanır: gəlirlilik norması və xalis gətirilmiş dəyər qaydaları. Xalis gətirilmiş dəyər qaydasına görə ancaq xalis gətirilmiş dəyəri müsbət olan investisiyaları etmək lazımdır. |
| **196** | Xalis dövriyyə kapitalı | Net working capital | Чистый оборотный капитал | Xalis dövriyyə kapitalı dövriyyə aktivlərinin cari öhdəliklərlə fərqinə deyilir. |
| **197** | Xalis lizinq | Net lease | Чистый лизинг | Xalis lizinqdə icarəçi aktivlərin sığortasını, ödəmələri və əmlaka görə vergilərin ödənməsini öhdəsinə götürür. |
| **198** | Xalis mənfəət | Net Profit | Чистая прибыль | Mənfəət vergisi çıxıldıqdan sonra qalan mənfəət. |
| **199** | Xalis mənfəət norması | Net profit margin | Чистая норма прибыли | Fazilərin və vergilərin ödənməsindən əvvəlki mənfəətin vergilərlə fərqinin satışdan əldə olan məbləğə nisbətinə deyilir.<br>$P_{nm} = \frac{P_{(-)} - T}{S_p}$;<br>Burada:<br>$P_{nm}$ - xalis mənfəət norması;<br>$P_{(-)}$ - fazilərin və vergilərin ödənməsindən əvvəlki mənfəət;<br>$S_p$ - satışdan əldə olunan məbləğ;<br>Digər adı *satış gəlirliyidir*. |

| | | | | |
|---|---|---|---|---|
| **200** | Xarici investisiyalar | Foreign investments | Иностранные инвестиции | Xarici investisiyalar risk faktoru və riskəvəzi mükafatın təbiətinə görə digər investisiyalardan fərqlənir və bu barədə iqtisadçılar arasında vahid fikir yoxdur. Beynəlxalq şirkətlərin investisiya riski beynəlxalq kapital bazarının seqmentləşməsindən asılıdır. Belədə iki hal mümkündür. Əgər söhbət kapitalın vahid dünya bazarından gedirsə onda: 1) fiziki şəxslər beynəlxalq investisiyalar edirlər; 2) Risk beynəlxalq bazarın indeksinə (betasına) əsasən hesablanır; 3) Beynəlxalq diversifikasiyadan mənfəət əldə olunmur; 4) Şirkətin həm özünə, həm də xarici filialına kapitalın cəlb olunmasına eyni xərc tələb olunur.<br>Əgər dünya kapital bazarı tam seqmentləşibsə, onda: 1) Fiziki şəxslər ancaq ölkənin daxilində investisiyalarda iştirak edirlər; 2) Risk milli indeksə (betaya) nisbətən ölçülür; 3)Beynəlxalq diversifikasiyadan güclü mənfəət əldə olunur; 4) Şirkətin özünə nisbətən onun xarici filialına kapitalın cəlb olunmasına daha az xərc tələb olunur. |

| | | | | |
|---|---|---|---|---|
| **201** | Xarici istiqraz vərəqələri | Foreign bonds | Иностранные Облигации | İstiqraz vərəqələri daxili və ya xarici bazarda emissiya olunmaq üçün nəzərdə tutulur. Xarici bazarda istiqraz vərəqələrinin emissiyası həmin dövlətin qanunlarına müvafiq olmalıdır və yerli valyutada denominasiya olmalıdırlar. Digər tərəfdən avroistiqraz adlanan uzunmüddətli qiymətli kağızların beynəlxalq bazarı mövcuddur. Avroistiqrazlar bütün dünyada satılsa da onların dilerləri və abunəçiləri Londonda yerləşirlər. ABŞ, Avropa və Yaponiya banklarının Londan şöbələri buraya aiddirlər.<br>Borc alan istiqrazlarını ölkənin daxili bazarında və ya xarici ölkənin bazarında dövriyyəyə buraxa bilər. Xarici ölkədə istiqrazların buraxılması yerli qanunverciliyin tələblərini ödəməlidir və həmin ölkənin valyutası ilə denominasiya edilməlidir. |
| **202** | Xəzinə vekseli | Treasury bill | Казначейский вексель | ABŞ hökümətinin 1 ildən az müddət üçün buraxılmış qiymətli kağızları. Xəzinə veksellərinə investisiyalar az riskli yatırımlar sayılırlar, çünki bu veksellər üzrə gəlirlər stabildirlər və bazarda baş verən hadisələrdən asılı deyildir. |
| **203** | Xəzinədar | Treasurer | Казначей | Kreditlərin verilməsində pul əməliyyatlarının keçirilməsinə, əmanətlərin qoyulmasına, götürülməsinə, pulların ödənməsinə və kreditlərin alınmasına cavabdeh olan mühasib |
| **204** | Xüsusi dividendlər | Special dividends | Особые дивиденды | Təkrar ödənilməsi ehtimalı çox az olan dividendlərə xüsusi dividendlər deyilir. |

| | | | | |
|---|---|---|---|---|
| **205** | Xüsusi kapitalın gəlirliliyi | Return on equity | Рентабельность собственного капитала | Adi səhmlərin mənfəətinin xüsusi kapitalın orta dəyərinə olan nisbətinə deyilir.<br>$R_e = \frac{P_{sa}}{P_{ma}}$;<br>Burada:<br>$R_e$ - xüsusi kapitalın gəlirliliyi;<br>$P_{sa}$ - adi səhmlərin mənfəəti;<br>$P_{ma}$ - xüsusi kapitalın orta dəyəri. |
| **206** | İcarə | Rental lease | Аренда | Müəyyən müqavilə əsasında haqqı ödənməklə müxtəlif təbii və əmlak obyektlərinin müvəqqəti sahibliyə verilməsi |
| **207** | İcarəçi | Leaser | Арендатор | Müəyyən müqavilə əsasında haqqı ödənməklə müxtəlif təbii və əmlak obyektlərinin icarəverəndən müvəqqəti sahibliyə qəbul etmiş fiziki və ya hüquqi şəxs |
| **208** | İcarə haqqı | Rent | Рента | лат. rendere - gəlir gətirmək;<br>1) işgüzarlıq fəaliyyəti tələb etməyən və torpaqdan, kapitaldan, əmlakdan müntəzəm əldə edilən illik gəlir;<br>2)sığorta şirkəti tərəfindən sığortalıya sığorta polisi üzrə illik ödənilən pul məbləği;<br>3) dövlət istiqrazları üzrə gəlir;<br>4) аннуитет (maliyyə rentası) və qiymətli kağızların illik gəliri;<br>5) dəqiq müəyyən olunmuş zaman fasilələri ilə daxil olan pul vəsaitləri axını. |

| | | | | |
|---|---|---|---|---|
| **209** | İcarədə olan əmlakın mülkiyyətçisi / istifadəçisi | Owner / user of asset | Собственник / пользователь арендованного имущества | Hər bir lizinq satişı iki tərif arasında bağlanır. İcarədə olan mülkiyyətin mülkiyyətçisinə icarəyəverən deyilir. Həmin mülkiyyətin istifadəçisinə icarəyəgötürən deyilir. |
| **210** | İcarəverən | Lessor | Арендодатель | Müəyyən müqavilə əsasında haqqı ödənməklə müxtəlif təbii və əmlak obyektlərini müvəqqəti sahibliyə vermiş fiziki və ya hüquqi şəxs |
| **211** | İcra üçün müqavilə | Eexecutory contract | Контракт, подлежащий исполнению | İşin müəyyən bir hissəsinin hələ də icra olunmadığı müqavilə. |
| **212** | İerarhiya nəzəriyyəsi | Pecking order theory | Теория иерархии | İerarhiya nəzəriyyəsi rentabellik əmsalları ilə borc yükü arasında əks əlaqəni izah edən nəzəriyyədir. İerarhiya nəzəriyyəsinin əsasında üç müddəa durur: 1) satabil dividend siyasəti; 2) daxili vəsait mənbələrinə üstünlük verilməsi; 3) səhm buraxılışının arzuedilməzliyi. İerarhiya nəzəriyyəsi yüksək rentabelli firmaların az borc götürmələrinin səbəbini onların xarici mənbələrdən pul vəsaitlərinə ehiyaclarının olmaması ilə izah edir. |

| | | | | |
|---|---|---|---|---|
| **213** | İxtisaslı məhdud məsuliyyətli əsas yoldaşlıq | Master limited partnership | Квалифицированное товарищество с ограниченной ответственностью | Öz fəaliyyətləri dövründə şirkətlər digər firmaları ala bilər (birləşmə) və ya sata bilərlər (xırdalama). Digər hallarda şirkət özünün struktur vahidini müstəqil aksioner cəmiyyət statusunda filiala çevirə bilər. Bəzi hallarda filial məhdud məsuliyyətli və yalnız müəyyən dövr üçün fəaliyyət göstərən cəmiyyətə çevrilir. Əgər səhmdarların gəlirlərdə və xərclərdə olan payları adi səhmlər kimi alınıb-satılırsa belə şirkət ixtisaslı məhdud məsuliyyətli cəmiyyət adlanır. |
| **214** | İki dərəcəli vergi sistemi | Split-rate tax system | Налоговая система С двумя ставками | Müəssisədə qalan mənfəətin bölüşdürülmüş mənfəətə nisbətən daha yüksək vergi dərəcəsinə məruz qalması. Bəzi ölkələrdə investorların dividendlərinə kapital artımına nisbətən daha yüksək vergi dərəcəsi tətbiq olunur. Bu hal əvəzində korporasiyalar üçün iki dərəcəli vergi sistemi tətbiq etməklə kompensasiya olunur. |
| **215** | İkimərtəbəli vergi sistemi | Two-tier Tax system | Двухъярусная налоговая система | Səhmdarların gəlirləri iki dəfə vergiyə məruz qalır: bir dəfə şirkətin gəliri kimi, ikinci dəfə ayrıca götürülmüş səhmdarın gəliri kimi. Belə sistemə bəzən klassik vergi sistemi də deyilir. |
| **216** | İki səviyyəli saziş | Two-tier offer | Двухуровневое соглашение | Şirkətlərin birləşməsi prosesində edilən udulan şirkətin səhmdarlarına edilən təkliflər 2 hissəyə ayrılır: 1) səhmlərin müəyyən hissəsi səhmdarlardan nəğd pulla satın alınır; 2) səhmlərin yerdə qalan hissəsinin əvəzində sabit gəlirli qiymətli kağızlar paketi verilir. Belə razılaşma iki səviyyəli saziş adlanır. |

| | | | | |
|---|---|---|---|---|
| **217** | İqtisadi icarə | Economic rent | Экономическая рента | Şirkətin rəqabət üstünlyünə malik olduğu sahələrdə əldə etdiyi gəlir. İqtisadi renta yalnız daha yüksək keyfiyyətli resursların hesabına, idarəçilik potensialı, ticarət agentləri, poyektləşdirmə komandası və ya istehsal şətləri nəticəsində əldə olunur. Bu çür üstünlük adətən müvəqqəti xarakter daşıyır. Yeni texnologiyaları uğurla tətbiq edən şirkətlərin bu sahəyə gəlməsi, rəqabətin güclənməsi nəticəsində iqtisadi renta aradan qalxır. Yeni layihələrdə uzunmüddətli proqnozlar zamanı bu amil nəzərə alınmalıdır. |
| **218** | İqtisadi mənfəət | Economic income | Экономическая прибыль | Məcmu gəlirlərlə məcmu iqtisadi xərclər arasındakı fərq. Mühasibat mənfəətini iqtisadi mənfəətdən fərqləndirmək lazımdır. İqtisadi mənfəət hesablanarkən istehsalatda istifadə olunan istənilən ehtiyat üçün iqtisadi xərclərin siyahısında mühasibat sənədlərində əks olunmayan xərcləri də nəzərə almaq lazımdır. İqtisadi mənfəət müsbətdirsə, firma istehsalı davam etdirməkdə maraqlıdır. İqtisadi mənfəət mənfidirsə, firmanın bazardan çıxmağı məqsədəuyğundur. Əgər iqtisadi mənfəət uzun müddət yoxdursa (sıfırdırsa), onda bu istehsal sahəsinin rəqabətli olduğunun göstəricisidir.<br>*Bax: Mühasibat mənfəəti.* |
| **219** | İmtiyazlı abunə | Privileged subscription | Привилегированная подписка | Adətən, adi səhmlərin yeni emissiyası bütün investorlara təklif olunur. Lakin bir çox hallarda, səhmlərin emissiyası hüquqların emissiyası formasında olur, yəni mövcud səhmdarlar səhmlərin yeni buraxılışlarına abunə imtiyazına malikdirlər. İmtiyazlı səhmlərin buraxılış xərcləri adi səhmlərin buraxılış xərclərindən yüksəkdir. |

| | | | | |
|---|---|---|---|---|
| **220** | İmtiyazlı səhm | Preferred stock, Preferred share | Привилегированная акция | Təsbit olunmuş dividendi olan və adi səhmlərə nisbətən tələb üstünlüyü olan səhm. Adi səhmlərin sahibləri imtiyazlı səhmlər üzrə dividendlər ödənməyincə öz dividendlərini ala bilməzlər. |
| **221** | İndividual risk | Unique risk | Риск индивидуальный | Diversifikasiya vasitəsi ilə aradan götürülə bilən risk individual (unikal) risk adlanır. Bu riskin yaranması hər bir şirkətin ancaq ona və onun birbaşa rəqiblərinə xas olan faktlarla bağlıdır. |
| **222** | İnflyasiyanın mühasibat mənfəətinə təsiri | Inflation effect on book earnings | Влияние инфляции на бухгалтерскую прибыль | Birinci, inflyasiya istehsal prosesində hazır məhsulun nominal dəyərini artırır. İkinci, inflyasiya yüksəldikcə , qalıq dəyəri gerçəklikdən daha çox uzaqlaşır və nəticədə balans dəyəri real dəyərdən aşağı olur. Üçüncü, inflyasiya borca girən firmalara təsir edir. Belə ki, borcverənlər ödənişləri inflyasiyaya uğrayacaq valyuta ilə qəbul etdikləri üçün, daha yüksək faiz dərəcələri tələb edirlər. Faiz dərəcəsinin gözlənilən inflayasiyanın kompensasiyası hesab olunan hissəsi inflayasiya gəliri adlanır. |
| **223** | İnformasiyanın assimetrikliyi | Asymmetric information | Асимметричность информации | İnformasiyanın əldə edilməsinə qeyri - bərabər imkan. Şirkətlərin birləşməsi prosesində yeni səhmlərin buraxılmasına və yaxud nəğd pul alınmasına üstünlük verilməsi şirkətin perspektivləri haqda informasiyadan asılıdır. Adətən birləşmənin təşəbbüskarları olan menecerlər şirkətin perspektivləri haqda bazarın digər iştirakçılarının bilmədiyi informasiyaya sahib olurlar. |
| **224** | İnformasiyanın dəyəri | Value of information | Ценность информации | İnvestisiya layihələri ilə bağlı hər hansı qeyri-müəyyənliyin aradan qaldırılması informasiyanın əldə edilməsi deməkdir. İnformasiyanın əhəmiyyəti və dəyəri qeyri-müəyyənliyin tipindən və analiz edilən dəyişənlərdən asılıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **225** | İnstitisional alıcı | Qualified institutional buyers | Квалифицированные институциональные покупатели | ABŞ Qiymətli Kağızlar və Birjalar üzrə Komissiyası 1990-cu ildə iri maliyyə institutlarına qeydiyyatdan keçməmiş qiymətli kağızları öz aralarında mübadilə etməyə icazə vermişdir. Bunlara institisional alıcı da deyilir. |
| **226** | İqtisadi amortizasiya | Economic depreciation | Экономическая амортизация | Gətirilmiş dəyərin hər hansı bir azalmasına deyilir. Gətirilmiş dəyərin hər hansı bir artması mənfi iqtisadi amortizasiya adlanır. |
| **227** | İnflyasiya | Inflation | Инфляция | (lat. Inflatio - şişirmək, üfürmək).İnflyasiyanın əsas əlaməti istehlak bazarında mal və xidmətlərin qiymət indekslərinin artmasıdır. İnflyasiya nəticəsində pulun alıcılıq qabiliyyəti aşağı düşür. Dövriyyədə olan pul kütləsinin mal həcminin artımının olmaması müqabilində qiymətlərin artımı müşahidə olunur. Bu hal pul vahidinin dəyərdən düşməsi və nəticə etibarı ilə mallar və xidmətlər üçün keyfiyyət yaxşılaşması olmadığı halda qiymətlərin artması ilə müşahidə olunur. İnflasiyanın aşağıdakı növləri var: çapan inflasiya - qiymətlərin sıçrayışla artması; hiperinflasiya - qiymətlərin çox yüksək templə (ayda 50%-dən çox) artması ; sürünən inflasiya - qiytmətlərin uzunmüddətli tədrici artması.<br>Yaranma səbəblərinə görə aşağıdakı növlərə bölünür: tələb inflasiyası - tələbin təklifi üstələməsi; inzibati inflasiya - qiymətlərin inzibati qaydada təyin olunması; idxal inflasiyası - ölkəyə qədərsiz xarici valyutanın daxil olması və idxal qiymətlərinin artması; kredit inflasiyası - qədərsiz kredit təcavüzü; açıq inflasiya - istehlak qiymətlərinin və istehsal ehtiyatları xərclərinin artması; qapalı inflasiya - dövlətin mal defisiti şəraitində qiymətləri əvvəlki səviyyədə saxlamaq cəhdləri. |

| | | | | |
|---|---|---|---|---|
| **228** | İnflyasiya tempi | Inflation rates | Темпы инфляции | İnkişaf sürətinə görə inflyasiyanın aşağıdakı növlərini fərqləndirirlər: çapan inflyasiya - qiymətlərin sıçrayışla artması; hiperinflyasiya -qiymətlərin çox sürətlə artması (ayda 50%-dən çox); sürüşkən inflyasiya - qiymətlərin uzunmüddətli tədrici artması |
| **229** | İnvestisiya dərəcəsi | Investment - grade | Долг Инвестиционного класса | Əgər borc barədə qiymətli kağızlar reytinqinə görə Moodi agentliyinin yuxarı dörd dərəcəsinə aid edilirsə, onlar investisiya dərəcəli hesab olunurlar. |
| **230** | İnvestisiya sinifli istiqrazlar | Investment – grade bonds | Облигации Инвестиционного класса | İstiqrazlar Moody agentliyi tərəfindən aşağıdakı kateqoriyalara bölünürlər: Aaa, Aa, A. Baa, Ba, B, Caa, Ca, C.<br>Reytinqi Baa və daha yuxarı kateqoriya olan istiqrazlar investisiya sinifli istiqrazlar hesab olunurlar. |
| **231** | İnvestisiyalar | Investments | Инвестиции | (lat. Investice geydirmək, geyindirmək). Iqtisadiyyata uzunmüddətli kapital qoyuluşu. İnvestisiyalar istehsal vasitələrininn, yəni avadanlığın, maşınların, torpağın və s. alınmasına sərf olunurlar. İnvestisiya kapitalı iki mənbədən formalaşır: müəssisənin daxili yığımı hesabına və istiqraz yığımlarının (əhalinin, bankların, müəssisələrin) hesabına. Məcmu investisiya aşınma ayırmalarının və gəlir hesabına olan məbləğlərin cəmindən ibarətdir. |
| **232** | İnvestisiyalar üçün əlverişli müddət | Optimal timing of investment | оптимальное время для осуществления инвестиций | Hər bir layihə üçün zaman baxımından iki alternativ var: dərhal icra etmək, yaxud icraatı təxirə salmaq. İnvestisiyalar üçün əlverişli müddətin seçilməsi hər bir dövrün xalis gələcək dəyərindən asılıdır və xalis gətirilmiş dəyəri maksimal olan dövrün seçilməsi ilə bağlıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **233** | İnvestisiyanın dəyərləndirilməsi | Valuing investments | Оценка инвестиций | Uzunmüddətli borclan dəyərləndirərkən öhdəliklərin yerinə yetirilməməsi riski ilə hesablaşmaq lazımdır. Məhz bu səbəbdən korporativ istiqrazlar Xəzinədarlığın uzunmüddətli istiqrazlarına nisbətən daha yüksək gəlir gətirirlər. Qısamüddətli borclar həmçinin risklərdən xali deyillər. Lakin müstəsna hallar istisna olmaqla adətən korporasiyaların buraxdıqları qiymətli kağızlar üzrə borcların ödənməməsi riski korporativ istiqrazların riskindən aşağıdır. Bunun iki səbəbi var: birinci, qısamüddətli investisiyalar üçün ehtimallı nəticələrin amplitudu kiçikdir; ikinci, yalnız səbatlı şirkət pul bazarında kredit ala bilər.Əmanətçilər xəzinə veksellərinə ona görə üstünlük verirlər ki, onları qısa müddətdə pula çevirmək mümkündür. Tez və ucuz pula konvertasiya oluna bilən qiymətli kağızlar nisbətən aşağı gəlirli olurlar. |
| **234** | İnvestisiyanın gəlirliyinin hesablanması | Calculating yield of investment | Исчисление доходности инвестиций | Pul bazarında çox sayda investisiyalar xalis diskontlu qiymətli kağızlardır. Yəni onlar üçün faiz ödənilmir: gəlir - ödənmə vaxtı alış və satış məbləğləri arasındakı fərqdən ibarətdir. İki xüsusiyyət investisiyanın gəlirliyinin hesablanmasını çətinləşdirir. Birincisi, onlar adətən diskont əsasında qiymətləndirilirlər; ikincisi, qiymətləndirmə bazası kimi 360-günlük ildən istifadə olunur. |
| **235** | İnzibati məsrəflər və ya lizinq | Administrative cost and leasing | Административные издержки и лизинг | Standart lizinq müqaviləsinin tətbiq edilməsi inzibati məsrəflərin azaldılmasına şərait yaradır. |

| | | | | |
|---|---|---|---|---|
| **236** | İpoteka istiqraz vərəqələri | Mortgage bonds | Ипотечные Облигации | Təmin olunmuş istiqraz növlərindəndir. Qapalı, açıq və məhdud növlərə bölünür. Əgər qoyulmuş girov üzrə əvvəlcədən müəyyən edilmiş sayda istiqraz vərəqəsi buraxıla bilərsə qapalı, əgər qeyri-məhdud sayda istiqraz vərəqəsi buraxıla bilərsə açıq, məhdud sayda istiqraz vərəqəsi buraxıla bilərsə limitlənmiş - açıq və ya məhdud ipoteka istiqraz vərəqələri adlanır. |
| **237** | İpoteka sabiti | Mortgage constant | Константа ипотечная | Borcun illik sabit ödəniş normasının faizlə ifadəsi:<br>Borcun illik ödəniş məbləği = Borcun məbləği * İpoteka sabiti. |
| **238** | İstehlak betası | Consumption beta | Бета потребления | Aktivlərin uzunmüddətli qiymətləndirilməsi investorların gələcək varidatlarının səviyyəsini və qeyri-müəyyənlikləri necə gözlədiklərini əks etdirir. Lakin ən təhlükəli risklərə gələcək istehlakın azalması ilə bağlıdır. Duqlas Briden modelində məhz qiymətli kağızlar riski investorların gələcək istehlaklarının dəyişilməsinə həssaslığı ilə qiymətləndirilir. Bu modeldə səhmlərin gözlənilən gəlirliyi bazar betası xətti üzrə deyil, istehlak betası xətti üzrə öyrənilir. İstehlak yönümlü modeldə gəlirliyin qeyri-müəyyənliyi istehlakın qeyr-müəyyənliyi ilə bağlıdır. |
| **239** | İstehlakçı krediti | Consumer credit | Потребительский кредит | Debitor borclarının bir hissəsidir. Əgər şirkət öz məhsulunu son istehlakçıya satırsa, onda həmin istehlakçının borcu yaranır ki, buna istehlakçı krediti deyilir. |
| **240** | İstiqraz dəyəri | Bond value bonds | Облигационная стоимость | İstiqraz dəyəri konversiya olunmayan istiqrazın satış dəyəridir. Konversiya dəyəri təxirəsalınmaz konversiya oluna bilən istiqrazın dəyəridir. |

| | | | | |
|---|---|---|---|---|
| **241** | İstiqraz üzrə reqress | Recourse | Регресс по займу | Əgər bank şirkətin müştərisini kredit qabiliyyəti və mallarını etibarlı hesab edirsə, debitor borclarını girov hesab edərək əvəzində borc verə bilər. Şirkət banka borcunu ödəyə bilmədikdə, bank kreditor borcların hesabına öz borcunu qaytarmağa çalışır. Qaytara bilmədikdə borcun ödənilməsi şirkətin üzərində qalır. Belə situasiya istiqraz üzrə reqress adlanır. |
| **242** | İstiqraz vərəqələri | Bonds, Notes | Облигации | Faizli borc sertifikatı. Adətən hökumətlər və korporasiyalar, rəsmi şəxslər tərəfindən kreditora gələcəkdə müəyyən məbləği ödəmək vədi ilə (təminatlı və ya təminatsız) buraxılır və imza ilə, möhürlə təsdiq olunur. |
| **243** | İstiqrazların müddətindən əvvəl alınması | Bond repurchase, Calling | Досрочный выкуп (отзыв) облигаций | Uzunmüddətli kreditlər üzrə ödənişlər,bəzi hallarda müəyyən güzəşt dövründən sonra, müntəzəm və bərabər paylarla ödənilirlər. Sərbəst dövriyyədə olan istiqrazlara görə ödənişlər ödəmə fondundan ödənilirlər. Borc öhdəliklərini dövriyyəyə buraxan əksər firmalar istiqrazların müddətindən əvvəl alınması hüququnu özlərində saxlayırlar. İstiqrazların müddətindən əvvəl alınması üzrə qiymətlər istiqrazların ilk buraxılışında şərtləndirilir. İstiqrazları müddətindən əvvəl almaq yalnız onların dəyəri gerialınma qiymətinə bərabərləşdikdə məqsədəuyğundur. |

| | | | | |
|---|---|---|---|---|
| **244** | İstiqrazın reytinqi | Bond rating | Рейтинг облигаций | İstiqrazların keyfiyyəti, yüksək gəlirliliyi və etibarlığı onun reytinqi əsasında müəyyən olunur. Bu reytinqlər beynəlxalq fond birjalarında Moody və Standart and Poor agentlikləri tərəfindən təyin edilir. Moody agentliyi belə qiymətli kağızları üç səviyyəyə bölürlər: P-1 (Prime-1)ən yüksək kateqoriya, P-2 (Prime-2), P-3 (Prime-3). İnvestorlar bu göstərcilər əsasında və digər informasiyalardan istifadə etməklə qiymətli kağızların keyfiyyətinin müqayisəsində qərar qəbul edirlər. Aşağı reytinqli qiymətli kağızlar alıcılarda adətən elə böyük maraq oyatmırlar.. |
| **245** | İşgüzarlıq imici | Goodwill | Деловая репутация | İşgüzarlıq imici dedikdə, satın alınmış şirkətlər üçün ödənilmiş qiymətlə onların balans dəyərləri arasındakı fərq başa düşülür. Mühasibat uçotunun mübahisəli məqamlarından biri işgüzarlıq imicinin qeyri-maddi aktiv kimi balansda əks etdirilməsinin mümkünlüyüdür. |
| **246** | İşgüzarlıq riski | Bisiness risk | Деловой риск | İşgüzarlıq riski şirkətin sərəncamında olan real aktivlərin riski ilə bağlıdır. Riskin digər mənbəyi real aktivlərə investisiya qoyuluşunu maliyyələşdirmək üçün şirkətin buraxdığı borc öhdəliklərinin yaratdığı maliyyə riskidir. Ona görə də işgüzarlıq imici balansında əks olunmuş şirkətlə belə göstəricisi olmayan şirkətin müqayisəsinə ehtiyatla yanaşmaq lazımdır. |
| **247** | İştirakçı | Participant | Участник | Səhmdar, payçı və ya müəssisənin mənfəətində digər iştirakçı. |
| **248** | "İştirakçı sertifikatı" | | "Сертификат участия" | *Bax: Ssudanın verilməsində payçı iştirakı* |

| | | | | |
|---|---|---|---|---|
| **249** | İzafi güc xərcləri | Cost of excess capacity | Затраты на избыточные мощности | Bu problem izafi gücün istismarına çəkilən xərclərə, yoxsa yeni avadanlıqlara çəkilən xərclərə üstünlük verilməsi ilə bağlıdır. Əgər yeni avadanlıqların alınması layihəsinin xalis gətirilmiş dəyəri mənfidirsə, əlbəttə izafi güclərin tam istismarına xərclər daha məqəsədə uyğundur. |
| **250** | Kapital | Capital | Капитал | Kapital klassik mənada yeni dəyər yaratmaq qabiliyyətinə malik substansiyadır. Adətən iqtisadi kapitalı (investisiya resursu) və maliyyə kapitalını fərqləndirirlər. Bütün istehsal vasitələri, yəni maşınlar, alətlər, qurğular, fabrik-zavod, anbar, nəqliyyat vasitələri və satış şəbəkələri iqtisadi kapitala aiddir. Bu vasitələrin istehsalı və yığımı investisiya (kapital qoyuluşu) adlanır. Digər bu vasitələrin əldə edilməsi üçün sərf olunan pullar kapital sayılmır. Ona görə də iqtisadçılar maliyyə kapitalı anlayışından istifadə edirlər. İqtisadi kapitaldan fərqli olaraq maliyyə kapitalı istehsalda iştirak etmədiyi üçün iqtisadi resurs sayılmır. Məs., buraxılışına icazə verilən akisiyaların maksimal sayına aksioner kapital deyilir. |
| **251** | Kapital bazarı | Capital markets | Рынки капиталов | Kapital bazarında maliyyə aktivlərinin alıcıları və onu müəyyən faiz dərəcəsi ilə satan satıcıları mövcuddur.. Kapital bazarı maliyyələşmənin 2 mühüm probleminin həllində əsas rol oynayır: 1) hansı aktivlərə və hansı məbləğdə investisiya edilməlidir; 2) investisiyalar üçün zəruri olan pul vəsaitləri mənbəyinin müəyyənləşdirilməsi. |

| | | | | |
|---|---|---|---|---|
| **252** | Kapital qoyuluşlarının post - auditi | Postaudit of capital | Постаудит капитальных вложений | Layihələrin qəbulundan və xərclərin təsdiqindən sonra onların icraatına nəzarət çox mühüm mərhələdir. Kapital qoyuluşlarının effektivliyinin qiymətləndirilməsinin 3 aspekti var: layihələrin icra müddətlərinin kobud pozulması və layihə xərclərinin artırılması; layihə icraata başlayan kimi onun hərtərəfli yoxlanması; layihənin icraatına nəzarət. Layihə icraya başlayan kimi onun hərtərəfli yoxlanması postaudit adlanır. Postaudit həlli tələb olunan problemləri üzə çıxarmağa, proqnozların dəqiqliyini yoxlamağa, cavabı əvvəlcədən tapılmalı olan sualları müəyyənləşdirməyə və mühasibat uçotu və nəzarət məlumatlarına arxalanaraq effektivliyi öyrənməyə kömək edir. |
| **253** | Kapital lizinqi | Capital lease (Financial leverage, Gearing) | Капитальный лизинг (финансовый лизинг, капитальный с полной выплатой) | Lizinq muxtəlif formalarda mövcud olur. Lizinqlər qisamüddətli və uzunmüddətli ola bilər. Əgər lizinq müqaviləsi uzunmüddətli olmaqla və pozula bilməzsə, və yaxud müqavilə pozularkən icarəyəverənə kompensasiya nəzərdə tutulursa, belə lizinq kapital lizinqi adlanır.<br>*Bax: Maliyyə lizinqi* |
| **254** | Kapitala artan (kumulyativ) ehtiyac | Cumulative capital requirement | Кумулятивная (нарастающая) потребность в капитале | Bütün şirkətlər kapitala, yəni binalara, maşınlara və avadanlıqlara, ehtiyatlara, debitor borclarına və digər aktivlərə ödənilməsi üçün pul vəsaitlərinə malik olmalıdırlar..Şirkətlərdə kapitala olan kumulyativ tələb biznesin davamlı olaraq aparılması ilə bağlıdır. . Kapitala artan (kumulyativ) tələb uzunmüddətli və qısamüddətli maliyyə mənbələri hesabına ödənilə bilər. Əgər şirkətin uzunmüddətli maliyyə ehtiyatları kapitala artan (kumulyativ) ehtiyacını üstələyirsə, onda pul vəsaitlərinin artıqlığı qısamüddətli investisiyalar üçün istifadə oluna bilər. |

| | | | | |
|---|---|---|---|---|
| **255** | Kapitalın normallaşması | Capital rationing | Нормирование капитала | Layihənin asılılığının bir növü kapitalın normallaşması ilə bağlıdır. Kapitalın məhdudluğu layıhənin birindən digər layıhənin nəfinə imtina edilməsinə səbəb ola bilər. Əgər kapitalın normallaşması müəyyən dövrü əhatə edirsə, onda firmanın məqsədi hər dollar hesabı xalis gətirilmiş dəyəri maksimallaşdırmaqdan ibarətdir..Layihənin seçilməsi rentabellik əmsalı əsasında aparıla bilər.<br>Kapitalın məhdudluğu bazarın qeyri-mükəmməl olduğunu əks etdirir və firma ilə kapital bazarları arasında ciddi maneələr olduğunu göstərir. |
| **256** | Kapitalın strukturu | Capital structure | Структура капитала | Firmanın qiymətli kağızlarının kombinasiyası kapitalın strukturunu təşkil edir. Kapitalın strukturunun seçilməsi əsasən marketinq funksiyasıdır. Bu seçimin əsas məqsədi onun ümumi bazar dəyərini maksimallaşdırmaqdan ibarətdir. |

| | | | | |
|---|---|---|---|---|
| **257** | Kapitalın strukturunun beta əmsalına təsiri | Affected by capital structure | Влияние структуры капитала на бета | Adi səhmlərin riski şirkətin sərəncamında olan real aktivlərin işgüzar riskini əks etditir. Maliyyə riski isə şirkətin real aktivlərə olan investisiyasını maliyyələşdirmək üçün buraxdıqları borc öhdəlikləri ilə bağlıdır. Şirkət nə qədər çox borclara əsaslanaraq maliyyələşirsə, adi səhmlər bir o qədər çox riskə məruz qalır. Bu qayda ilə maliyyə asılılığı və ya leverici yaranır. Maliyyə asılılığı aktivlərin gözlənilən gəlirliyinə və ya riskinə təsir etmir, yalnız adi səhmlərin riskini artırır və səhmdarları daha yüksək mənfəət tələb etməyə məcbur edir.<br>Həm səhmdarlar, həm də borc öhdəliklərinin sahibləri şirkətin pul vəsaitləri axınından öz paylarını alırlar və riski bölüşdürürlər. Lakin borc öhdəliklərinin sahibləri çox az risk edirlər. Çiçəklənən şirkətlərdə borc öhdəliklərinin betası sıfıra yaxın olur. Şirkətin aktivlərinin betası onun bütün öhdəliklərinin və səhmlərin betasına bərabərdir. |
| **258** | Kapitalizasiya dərəcəsi | Capitalization rate | Ставка (рыночной) капитализации | Kapitalizasiya dərəcəsi investorların gələcək dividendlərinin diskontlaşdırdıqları gəlir normasıdır.<br>$r = \frac{DIV_1 + P_1 - P_0}{P_0}$;<br>Burada:<br>$r$ – investorun gözlədiyi gəlirlik norması (kapitalizasiya dərəcəsi);<br>$DIV_1$ - bir səhmə düşən gözlənilən dividend;<br>$P_1$ – səhmin birinci ilin sonuna gözlənilən qiyməti;<br>$P_0$ - səhmin gətirilmiş dəyəri.<br>Kapitalizasiya dərəcəsi - investorların gözlədikləri gəlirlikdir. |

| | | | | |
|---|---|---|---|---|
| **259** | Klassik vergi sistemi | Classical tax system | Классическая налоговая система | ABŞ-da səhmdarların gəlirlərindən iki dəfə vergi tutulur: şirkət səviyyəsində - korporativ gəlir vergisi və səhmdarın fərdi vergisi - kapital artımına gəlir vergisi. Belə sistemə, klassik və ya iki səviyyəli vergi sistemi deyilıir. |
| **260** | Klirinq bankı | Clearing bank | Клиринговые банки | Fəaliyyəti öhdəliklərin qarşılıqlı əvəz edilməsi üzrə aparılan hesablaşma sistemi əsasında formalaşan kommersiya bankı. Klirinq bankı alıcı ilə satıcı arasında klirinq münasibətləri üzrə hesablaşma xidməti həyata keçirir. |
| **261** | Kommersiya krediti | Trade credit | Коммерческий кредит | Debitor borclarının bir hissəsidir. Əgər şirkət öz məhsulunu digər şirkətə və ya dövlət orqanına satırsa, onda həmin şirkətin və ya orqanın borcu yaranır ki, buna kommersiya krediti deyilir. |
| **262** | Kommersiya krediti alətləri | Commercial credit instruments | Инструменты коммерческого кредита | Kommersiya krediti alətlərinə aiddirlər: kommersiya vekseli, təqdimatlı köçürmə vekseli, müddətli köçürmə vekseli, akseptləşmiş ticarət vekseli, bank aksept vekseli, dönməz akkreditiv. |
| **263** | Kommersiya vekseli | Commercial note, draft | Коммерческий вексель | Alıcının öhdəliyini dəqiq əks etdirən və malın alınmasından qabaq tərtib olunan sənəd. İşçı mexanizmi çox sadədir. Satıcı alınacaq mal üçün alıcını ödəməyə məcbur edən vekseli tərtib edir və onu malın yüklənməsi barədə digər sənədlərlə birlikdə alıcının bankına yollayır. Əgər təcili ödəniş tələb olunursa, onda veksel təqdim olunan köçürmə vekseli kimi təyin olunur. Əks halda müəyyən müddətdən ödənilməli olan müddətli köçürmə vekseli kimi təyin olunur. Birinci halda alıcı dərhal ödəyir, ikinci halda isə öz imzası ilə borcunu təsdiq edir (aksept). |

| | | | | |
|---|---|---|---|---|
| **264** | Kommersiya vərəqi | Commercial paper | Коммерческая бумага | İri, etibarlı, yaxşı tanınan şirkətlər bank sisteminə müraciət etmədən özlərinin qısamüddətli, təmin olunmamış qiymətli kağızlarını buraxa bilərlər. Belə qiymətli kağızlara kommersiya vərəqi deyilir. |
| **265** | Kompensasiya qalığı | Compensating balance | Компенсационный остаток | Bank xidmətlərinin ödənməsi üçün nəzərdə tutulmuş depozitlər kompensasiya qalıqları adlanırlar. Kredit xətti razılaşması ilə bankdan ssuda almaq hüququ olan şirkət bankda kompensasiya qalığı formasında pul vəsaitləri depozitinə malik olmalıdır. |
| **266** | Kompromis saziş | Composition | Компромиссное соглашение | Müfilsləşmiş şirkət kompromis sazişə uyğun olaraq öz kreditorlarına borclardan azad olmağın müqabilində pul ödənişləri edə bilər. |
| **267** | Konqlomerat birləşmə | Conglomerate merger | Конгломератное слияние | Birləşmələr horizontal, vertikal və koqlomerat kimi növlərə bölünürlər. Konqlomerat birləşmələr biri digərinə aidiyyəti olmayan sahələrə məxsus şirkətlərin yaratdığı birləşməyə deyilir. Bütün birləşmələrdə olduğu kimi əsas motiv olaraq konqlomerat şirkətin dəyərinin onun tərkibinə daxil olan şirkətlərin dəyərlərinin cəmindən çox olacağı güman edilir. Lakin iqtisadi əsaslandırılmaların əksinə bəzi hallarda müxtəlif səhvlər üzündən belə birləşmələr özlərini doğrultmurlar. |
| **268** | Konsorsium (qiymətli kağızların yerləşməsi üzrə) | Underlying syndicate | Консорциум по размещению ценных бумаг | *Bax: sindikat.* |

| | | | | |
|---|---|---|---|---|
| **269** | Kontanqo | Contango | Контанго | Brokerin aldığı qiymətli kağızlar üçün istədiyi möhlətə görə qiymətə olunan əlavə. Bu əlavə, sövdələşmənin məbləğinin hesablaşma günləri arasındakı müddətdə faiz dərəcəsinə əsaslanır və səbəbi alıcının öz pulunu almaq üçün növbəti hesablaşma dövrünü gözləmək məcburiyyətidir.<br>*Bax: Deport.* |
| **270** | Kontrakt | Contract | Контракт | İki və ya daha çox tərəf arasında satiş, təchizat, xidmətlərin göstərilməsi, pul vəsaitinin ödənilməsi, müxtəlif cür kreditlərin barəsində bağlanmış müqavilə və ya saziş. Həmçinin işə götürüldükdə, orduya xidmətə qəbul edildikdə bağlanır. Kontraktda tərəflər arasındakı münasibətlərin bütün aspektləri qeyd olunmalıdır. |
| **271** | Konversiya | Conversion | Конверсия | Səhmlərin və ya istiqrazların bir növünün qiymətli kağızların eyni şirkət tərəfindən emissiya olunmuş diğər növünə dəyişilməsinə deyilir. İstiqrazların və imtiyazlı qiymətli kağızların buraxılış şərtlərində adətən müəyyən kurs və ya qiymət üzrə adi səhmlərə konversiya olunması nəzərdə tutulur. |
| **272** | Konversiya dəyəri | Conversion values | Конверсионная стоимость | Konversiyası dərhal mümkün olan istiqrazın satış qiyməti konversiya dəyəri adlanır. Konversiya dəyərini istiqraz dəyərindən fərqləndirmək lazımdır. Konversiya dəyəri dedikdə, istənilən vaxt konversiya oluna bilən istiqrazın satış qiyməti başa düşülür. İstiqraz dəyəri dedikdə, konversiya oluna bilməyən istiqrazın satış qiyməti başa düşülür. |
| **273** | Konversiya qiyməti | Conversion price | Конверсионная цена | Dönərli istiqrazın dəyərinin bir səhmə düşən hissəsinə konversiya qiyməti deyilir. |

| | | | | |
|---|---|---|---|---|
| **274** | Konversiya nisbəti | Conversion ratio | Конверсионное соотношение | Konversiya prosesində bir istiqraza düşən səhmlərin dəyərinə digər səhmlərin əldə edilməsi üçün zəruri olan xərc başa düşülür.<br>*Bax. Alternative xərclər* |
| **275** | Korlaşmış satış | Poison put clauses | «Отравленная продажа» | Borclunun üzərinə qoyulan öhdəlik: Səhmlərin böyük hissəsi bir investor tərəfindən alındıqda və onların reytinqi endikdə borclu bütün səhmləri ödəməlidir. |
| **276** | Korporasiyanın borcu | Corporate debt | Долг корпорации | Şirkətlər borca girərkən faizləri müntəzəm ödəmək və borcun əsas məbləğini vaxtında qaytarmaq barədə öhdəlik götürürlər. Lakin bu öhdəliklər məhdud xarakter daşıyırlar, çünki səhmdarlar borc öhdəliklərini pozmaq və şirkətin aktivlərini kreditorlara vermək hüququna malikdirlər. Bu əməliyyat məhkəmə qaydasında icra olunur.Kredit üzrə faizlərin ödənilməsi xərc hesab olunur və vergilərin ödənməsindən əvvəl icra olunur, adi səhmlər üzrə dividedlər isə vergidən sonra ödənilir. Beləliklə, dövlət borc kapitaldan istifadə olunmasına vergi subsidiyası verir, əsas kapitalın belə imtiyazı yoxdur.<br>Korporasiyanın borcunun əsas xarakteristikalarına aiddirlər: ödəmə dövrü, ödəmə şərtləri, borcların subordinasiyası, təminatı, ödənilməmək riski, borc öhdəliklərinin ümumi və xüsusi qaydada satışı və s. |

| | | | | |
|---|---|---|---|---|
| **277** | Korrelyasiya | | Корреляция | Korrelyasiya qiymətli kağızlar bazarının təhlili prosesində ekonometrik tədqiqatlarda geniş şəkildə istifadə olunan termindir. İki müxtəlif göstərici arasındakı əlaqənin sıxlığını göstərir. Korrelyasiya əmsalı [0, 1] intervalında dəyişir. 0-a yaxın olduqda əlaqənin zəifliyini, 1-ə yaxın olduqda isə əlaqənin sıxlığını göstərir və aşağıdakı düstur vasitəsi ilə göstərilir:<br>$cor(x,y) = \frac{cov(x,y)}{\sigma_x \sigma_y}$;<br>Burada:<br>$cor(x,y)$ - $x, y$ kəmiyyətlərinin korrelyasiyasıdır;<br>$cov(x,y)$ - $x, y$ kəmiyyətlərinin kovariasiyasıdır;<br>$\sigma_x, \sigma_y$ - uyğun olaraq $x$ və $y$ kəmiyyətlərinin standart kənarlaşmasıdır.<br>*Bax: Kovariasiya, standart kənarlaşma.* |
| **278** | Korrektə edilmiş beta | Adjusted beta | Скорректированная бета | Ayrıca götürülmüş səhmin betası keçmiş göstəricilərə görə qurulmuş düz xəttə əsaslanır. Bu metodla betanın təyin olunması bir çox hallarda göstəricilərin sayının məhdudluğu ilə əlaqədar böyük xətalarla bağlıdır. Lakin portfel betasını hesablamaqla bu cür səhvlərin ehtimalını xeyli azaltmaq olar. |

| | | | | |
|---|---|---|---|---|
| **279** | Kovariasiya | Covariance | Ковариация | Maliyyə riyaziyyatında qiymətli kağızlar bazarının təhlili prosesində geniş istifadə olunan anlayışdır. İki göstərici arasında asalılığın xarakterini göstərir və aşağıdakı düsturla verilir:<br>$cov(x,y) = \frac{\sum_{i=1}^{n}(x_i - \bar{x})(y_i - \bar{y})}{n-1}$;<br>Burada:<br>$cov(x,y) - x$ *və* $y$ təsadüfi kəmiyyətlərinin kovariasiyası;<br>$x_i - x$ kəmiyyətinin *i*-ci qiyməti;<br>$\bar{x} - x$ kəmiyyətinin orta qiyməti;<br>$y_i - y$ kəmiyyətinin *i*-ci qiyməti;<br>$\bar{y} - y$ kəmiyyətinin orta qiymətidir.<br>*Bax: Dispersiya, Standart kənarlaşma, korrelyasiya.* |
| **280** | "Köhnədəbli" faktorinq | Old-line factoring | «Старомодный» факторинг | Debitor borclarının yığılmasını, sığortalanmasını və maliyyələşdirilməsini (faiz dərəcələri üzrə avans ödənişləri) təmin edən faktorinqə deyilir. |
| **281** | Köhnə-kürüş istiqraz | Junk bonds | «Мусорные» облигации | İstiqrazlar Moody agentliyi tərəfindən aşağıdakı kateqoriyalara bölünürlər: Aaa, Aa, A. Baa, Ba, B, Caa, Ca, C.<br>Reytinqi Baa kateqoriyasından aşağı olan istiqrazlar köhnə-kürüş istiqraz hesab olunurlar. Bu istiqrazlar çox kiçik zaman fasiləsində dövriyyədən çıxmaları ilə fərqlənirlər və bazarları zaman keçdikçə daralır.<br>*Bax: İnvestisiya sinifli istiqrazlar.* |
| **282** | Köməkçi faktorinq | With-recourse factoring | Вспомогательный факторинг | Köməkçi faktorinq sazişinə görə, şirkət bütün ödənilməmiş hesabların öhdəliyini daşıyır, faktorinq firması isə borcların yığılmasını aparır, lakin borcun sığortasını təmin etmir. |

| | | | | |
|---|---|---|---|---|
| **283** | Kredit | Credit | Кредит | Borcluya qaytarılmaq, müddətli, təminatlı və ödənişli şərtlər daxilində pul və ya mal formasında verilən ssuda. Aşağıdakı növləri var: kommersiya krediti; bank krediti; istehlakşı krediti; ipoteka krediti; dövlət krediti; beynəlxalq kredit; blank krediti; lombard krediti; onkol krediti. |
| **284** | Kredit riskinin təmərküzləşməsi | Consentration of credit risk | Концентрация кредитного риска | Kreditlərin müəyyən sahələrdə, qruplarda və ya fiziki şəxslərdə həddən ziyadə cəmlənməsi ilə bağlı risklər. Banklar portfel diversifikasiyasını risklərin idarə olunmasının ümumi strategiyasında ən vacib element hesab edirlər. |
| **285** | Kredit xətti | Line of credit | Кредитная линия | Borc alan üçün kredit müəssisəsinin tərtib olunmuş sənəd əsasında müəyyən müddət ərzində (adətən, bir il) razılaşdırılmış məbləğdə kreditin ödənilməsi öhdəliyidir. Adətən, öhdəlik üçün komission alınmır, amma kliyent müəyyən depozit və ehtiyat saxlamaq öhdəliyini öz üzərinə götürür. |
| **286** | Kredit tutumu | Debt capacity | Кредитемкость | Şirkət öz borclarını aktivlərinin 50%-lə məhdudlaşdıraraq kapitalın strukturunu optimallaşdırmağa çalışır. Bu kredit tutumu adlanır. |
| **287** | Kredit-dəyər təminatı əmsalı (LTV əmsal) | Loan-to-value ratio | Коэффициент кредит –стоимость обеспечения | Kreditin əsas məbləğinin onun təminatı olan aktivlərin qiymətləndirilmiş dəyərlərinə faizlə nisbəti. Adətən, LTV əmsal kreditin məbləğinin onun təminatının dəyərinə nisbəti kimi hesablanır. |

| | | | | |
|---|---|---|---|---|
| **288** | Kreditin kəmiyyət qiymətləndirilməsi | Numerical credit scoring | Количественная кредитная оценка | Əgər bank istehlakçılarla (pərakəndə alıcılar) birbaşa işləyirsə və ya çoxlu sayda kiçik ticarət hesabları ilə işləməli olursa, onda kredit barədə müraciətləri bal sistemi ilə qiymətləndirmək zərurəti yaranır. Banka kredit üçün müraciət edən hər bir şəxs bankın təklif etdiyi satandart anketi doldurmalıdır. Anket ərizəçinin işi, ailəsi və maliyyə durumu haqqında vəziyyətini öyrənir və balla qiymətləndirilir. Balların təyin olunmasında bankın kliyentlərlə iş təcrübəsi əsasında toplanmış statistik informasiyadan istifadə olunur. Bu yolla kredit barədə hər bir ərizəçinin risk indeksi hesablanır. |
| **289** | Kreditin normallaşması | Credit rationing | Нормирование кредита | Kredit faizləri bankdan götürülən kreditin həcminə müvafiq olaraq artır. Digər tərəfdən faiz dərəcələrinin həddən artıq yüksək olması borcun ödənilməməsi ehtimalını və bankın riskini artırır. Nəticədə bank krediti normallaşması zərurəti yaranır.. |
| **290** | Kreditin ötürülməsi | Loan strip | Переуступка кредита | Kreditorun uzunmüddətli öhdəlikləri əsasında qısamüddətli kreditlərin üçüncü tərəfə ötürülməsi. |
| **291** | Kreditor borcu | Accounts payable | Кредиторская задолженность | Krediti vermiş şəxsə qaytarılmalı olan fiziki və hüquqi şəxslərə pul vəsaitlərinin cəmi. Kreditor borcu normal və ya gecikdirilmiş ola bilir. Gecikdirilmiş kredit borcu müəssisənin hesabında vəsaitin olmaması və ya bank tərəfindən mal və xidmətlərin müqabilində kredit verilməkdən imtina etməsi səbəbindən yaranır. Hər hansı bir halda kredit borcunun həddən çox olması müəssisənin maliyyə durumunun naqisliyini göstərir. |

| | | | | |
|---|---|---|---|---|
| **292** | Kreditlərin sığortası | Insurance of credit | Страхование кредитов | Kredit borclarının idarə olunması iri və kiçik firmalarda müxtəlif üsullarla gerçəkləşir. İri firmaların üstünlüyü ondadır ki, onların debitor borcların uçotu, yığılması üçün xüsusi bölmələr yaratmaq və mütəxəsislərdən istifadə etmək imkanları var. Kiçik firmalar adətən faktorinq kompaniyaların xidmətlərindən istifadə edirlər. Digər hallarda sığorta şirkətləri tərəfindən kreditlərin sığortasına nail olmaq olar. Sığorta şirkətləri firmanın kredit siyasətini, kredit üzrə spekulyativ hesabları izləyir və müəyyən kredit meyarları əsasında sığortalana bilən maksimal borc məbləğini şərtləndirir. Firma öz növbəsində təkcə alıcının müflisləşməsi faktı üzrə, həmçinin alıcı tərəfindən borcun ödənilməsinin yubadılması faktı üzrə öz tələblərini sığorta şirkətinə verə bilər. |
| **293** | Kupon ödənişləri | Coupon payments | Купонные выплаты | Uzunmüddətli borc öhdəlikləri üçün emissiya vaxtı təyin olunmuş faiz ödənişləri. |
| **294** | Kvadratda R | R- squared | R в квадрате | Qiymətlərin dəyişməsinin məcmu dispersiyasının hansı hissəsinin bazar dəyişiklikləri ilə əlaqədar olduğunu göstərir. |

| | | | | |
|---|---|---|---|---|
| **295** | “q Tobin” əmsalı | Tobin’s q | Коэффициент «q Тобина» | İstiqraz hesabına cəlb olunmuş və məxsusi kapitalın bazar dəyərinin aktivlərin cari bərpa dəyərinə olan nisbəti.<br>$q = \frac{M_a}{V_t}$;<br>Burada:<br>$q$ - “q Tobin” əmsalı;<br>$M_a$ - aktivlərin bazar dəyəri;<br>$V_t$ - aktivlərin cari bərpa dəyəri. |

| | | | | |
|---|---|---|---|---|
| **296** | Qaimə xərcləri | Overhead costs | Накладные издержки | 1. Birbaşa ayrıca götürülmüş məhsulun istehsalı ilə bağlı və ya işlə bağlı və məhsulun tam buraxılışı ilə əlaqədar xərclər. Bunlara aiddirlər: binaların, qurğuların və alətlərin saxlanması, istismarı və carı təmiri ilə bağlı xərclər; sosial sığorta və digər məcburi ödəmələrə edilən ayırmalar; inzibati-idarə aparatı heyətinin saxlanmasına və əməkhaqqısına çəkilən xərclər; zay məhsulun buraxılışı və boş dayanmalarla bağlı xərclər və s. Dolayısı yolla məhsulun maya dəyərinə aid edilir, yəni əməkhaqqına, xammalın və materialların dəyərinə mütənasib olaraq. Ticarətdə qaimə xərclərinə məhsulun saxlanması, qablaşdırılması, daşınması və satılması ilə bağlı xərclər aid edilir.<br>2. Qaimə xərclərinə inzibatı aparatın əməkhaqqısı, icarə haqqı, istilik və elektrik enerjisi üçün ödəmələr və s. aiddirlər. Qaimə xərclərinə mühasibatın və investisiya layihəçilərinin münasibəti fərqlənir. Mühasib firmanın layihələrinin xərclərini hesablarkən bütün qaimə xərclərini nəzərə alır. Lakin layihə qiymətləndirilərkən yalnız əlavə xərclər nəzərə alınmalıdır, o cümlədən layihə əlavə qaimə xərclərini tələb edə və ya etməyə bilər. |
| **297** | Qalıq risk | Residual risk | Остаточный риск | İndividual riskin adlarından biridir. Digər adları - diversifikasiyalı, qeyri-sistematik, xüsusi. |

| | | | | |
|---|---|---|---|---|
| **298** | “Qapmaq və qaçmaq” | “Cash in and Run” | «Схватить и бежать» | Dividend siyasəti və kapitalın strukturuna aid iqtisadi oyun formasıdır. Səhmdarlar maliyyə çətinlikləri dövründə dividendləri almağa tələsirlər, yeni maliyyə qoyuluşlarından çəkinirlər. Firmanın səhmlərinin bazar dəyəri ödənilmiş dividendlərin məbləğinə nisbətən daha az azalır, çünki firmanın dəyərinin enməsi kreditorlarla bölüşdürülür. Bu oyun sadəcə olaraq səhmdar kapitalını yerləşdirməkdən imtina etməyin əks halıdır. |
| **299** | Qarşılıqlı surətdə asılı olan şəxslər | Interrelated persons | Взаимозависимые лица | Vergi məqsədləri üçün qarşılıqlı surətdə asılı olan şəxslər — aralarındakı münasibətlər fəaliyyətlərinin iqtisadi nəticələrinə və ya onların təmsil etdiyi şəxslərin fəaliyyətinə bilavasitə təsir göstərə bilən fiziki şəxslər və (və ya) hüquqi şəxslərdir. |
| **300** | Qayıtmaz xərclər | Sunk costs | Невозвратные издержки | Qayıtmaz xərclər dedikdə, kapitalın əvvəllər baş vermiş qayıtmaz axını başa düşülür. Qayıtmaz xərclər keçmişə aid olduqları üçün onlar investisiya layihələrinin qəbuluna və ya rədd edilməsinə təsir edə bilməzlər və ona görə də onlar nəzərə alınmırlar. |

| | | | | |
|---|---|---|---|---|
| **301** | QE3 - “üçüncü kəmiyyət yumşaldılması” | QE3 - quantitative easing | QE3 -«третье количественное смягчение» | FES ( ABŞ Federal Ehtiyatlar Sistemi) tərəfindən iqtisadiyyatın “kəmiyyət yumşaldılması” adlanan stimullaşdırma proqramı. **QE1** - “Birinci kəmiyyət yumşaldılması” proqramı dünya maliyyə böhranı zamanı 2008-ci ilin noyabrından başlamış 2009-cu il ərzində davam etmiş və 1,15 trl. USD məbləğində qiymətli kağızların alınmasından ibarət olmuşdur. **QE2** -“İkinci kəmiyyət yumşaldılması” proqramı 2 noyabr 2010-cu ildən 2011-ci ilin iyununa qədər davam etmişdir və 600 mlrd. USD məbləğə başa gəlmişdir. **QE3**-“uçüncü kəmiyyət yumşaldılması” proqramı 13 senryabr 2012-ci ildən 29 oktyabr 2014-cü ilə qədərki dövrü əhatə etmişdir və ayda 85 mlrd. USD məbləğində (xəzinədarlığın istiqrazları – $45 mlrd., ipoteka istiqrazları – $40 mlrd.) qiymətli kağızların FES –in balansına daxil edilmisi ilə bimişdir. 2013-cü ilin dekabrından başlayaraq bu proqram üzrə alışların məbləği hər ay 10 mlrd. USD azaldılmışdır. Bu stimullaşdırma amerika birja indekslərinin sürətlə yüksəlməsinə səbəb olmuşdur, çünki FES aşağı likvidli qiymətli kağızların əvəzində bankları külli miqdarda sərbəst pullarla təmin edə bilmişdir. |
| **302** | “Qəbirüstü abidə” | “Tombstone” | «Надгробный памятник» | İctimai emissiyanın abunəçilərinin dərc olunmuş siyahısı. Açıq emissiyanın abunəçilərinin dərc olunmuş siyahısı.Bu siyahıda abunəcilər etibarlılıq dərəcəsinə görə ranqlaşdırılırlar. |

| | | | | |
|---|---|---|---|---|
| **303** | “Qızıl paraşüt” | “Golden parachute” | «Золотой парашют» | Menecerlər bir çox hallarda iki səbəbdən şirkətin başqa şirkət tərəfdən ələ keçirilməsinə mane olmağa çalışırlar: 1) alqı-satqının qiymətini artırmaq üçün; 2) öz iş yerlərini saxlamaq üçün. Maraqların ziddiyətlərini yumşaltmaq üçün bir çox şirkətlər menecerlərə iş yerlərini itirdikdə çox böyük məbləğdə müavinət boyun olurlar və ödəyirlər. Belə müavinətə qızıl paraşüt deyilir. |
| **304** | Qısa hedc | Short hedge | «Короткий» хедж | Riski azaltmaq üçün alıcı fyuçers satırsa, bu "gödək" hedc adlanır. Riski azaltmaq üçün satıcı fyuçers alırsa, bu "uzun" hedc adlanır. |
| **305** | Qiymət-mənfəət əmsalı | Price – earning ratio | Коэффициент цена - прибыль | Səhmin qiymətinin hər səhmə düşən mənfəətə olan nisbətinə deyilir. $R_{pe} = \frac{P}{E}$; Burada: $R_{pe}$ - qiymət-mənfəət əmsalı; $P$ - səhmin qiyməti; $E$ - hər səhmə düşən mənfəət. Bu əmsal investorların şirkətə olan münasibətlərini əks etdirir. |
| **306** | Qiymətləndirilən aktivlər | Valuing assets | Оцениваемые активы | Rəqabətli bazarda riskə görə gözlənilən mükafat beta əmsalına mütənasib dəyişir. 60-cı illərdə iqtisadçılar Uilyam Şarp, Jon Lintner və Jek Treynor bu asılılığı aşağıdakı formula ilə ifadə etmişlər: Riskə görə gözlənilən mükafat beta əmsalı ilə bazar riskinə görə gözlənilən mükafatın hasilinə bərabərdir. |

| | | | | |
|---|---|---|---|---|
| **307** | Qiymətli kağızlar bazarı xəttindən kənar səhmlər | Not on security line | Акции вне линии рынка ценных бумаг | Effektli portfeldə hər bir səhmin gözlənilən gəlirliyi ilə onun portfel riskinə olan pay düz mütənasibdir. Ona görə də effektli fəaliyyət göstərən bazarda qiymətli kağızlar bazarı xəttindən nə aşağıda, nə də yuxarıda səhm ola bilməz. |
| **308** | Qısamüddətli aktivlər | Current assets | Краткосрочные (оборотные) активы | Bu aktivlərə aiddirlər: pul vəsaitləri, qısamüddətli qiymətli kağızlar, debitor borcları, həmçinin hazır məhsulun və başa çatmamış istehsalın material və xammal ehtiyatları. Bu aktivlərə həmçinin dövriyyə aktivləri deyilir. |
| **309** | Qısamüddətli borc | Short – term borrowing | Краткосрочный заем | Qısamüddətli borcu firma kommersiya kağızları və depozit sertifikatları buraxmaqla əldə edə bilər. O, həmçinin maliyyə şirkətindən və ya bankdan borc götürə bilər. Bankdan borc götürməyin üstünlyü ondadır ki, bankın borc verməzdən əvvəl borc istəyənin maliyyə imkanlarını və biznesinin perspektivlərini yoxlaması müsbət nəticə verərsə bu, şirkətin böyük bank vəsaitlərini almaq imkanı olduğunu göstərir və nəticədə şirkətin səhmlərinin qiymətləri arta bilər. |
| **310** | Qısamüddətli veksel | Short-term note, draft | Краткосрочный вексель (переводной вексель) | ABŞ-da ştatlar, bələdiyyələr, yerli ərazı və şəhər orqanları qısamüddətli veksellər buraxa bilərlər. Bu veksellər xəzinə veksellərinə nisbətən daha yüksək riskə malik olduqları üçün onların alqı-satqısı çətinləşir. Lakin onların faiz üzrə gəlirləri federal gəlir vergisindən azad olduqları üçün alıcıların nəzərində müəyyən üstünlüyə malikdirlər. |

| | | | | |
|---|---|---|---|---|
| **311** | “Qrupun ümüdi” | “Side bets” | «Групповая ставка» | Törəmə maliyyə alətləri (fyuçerslər, forvard müqavilələri, svoplar və opsionlar) dəyərləri biri-digərindən asılı olan aktivlər qrupuna tətbiq olunduqları üçün obrazlı olaraq qrupun ümüdi adlanır. Törəmə maliyyə alətləri təkcə qərəzli möhtəkirçiləri deyil, həmçinin riskləri azaltmağa çalışan sağlam düşüncəli və uzaqgörən möhtəkirçiləri cəlb edir. |
| **312** | Laffer əyrisi | Laffer curve | Лафферова кривая | Laffer əyrisi vergi daxilolmalarının vergi dərəcələrindən asılılığını göstərən əyridr. İlk dəfə amerika iqtisadçısı keçmiş prezident R.Reyqanın köməkçisi A. Laffer tərəfindən təklif edilmişdir.   Şəkildən göründüyü kimi vergi dərəcələri müəyyən optimal həddən artdıqda vergi daxilolmaları azalır. Laffer əyrisinin maksimumuna uyğun faiz dərəcəsi Laffer nöqtəsi adlanır. |

| | | | | |
|---|---|---|---|---|
| **313** | Layihənin beta əmsalı | Beta of project | Бета проекта | Qiymətli kağızlar bazarında yaranmış vəziyyətin bütövlükdə ayrıca götürülmüş qiymətli kağızın qiymətlərinin dəyişməsi dinamikasına təsirinin göstəricisidir. Layihənin betası hesablanarkən aşağıdakı çətinliklərlə hesablaşmalıyıq: 1) ayrıca götürülmüş firmanın betasını hesablamaq çoxlu sayda xətalarla bağlıdır, ona görə də oxşar firmaların betasını hesablamaqla daha dəqiq nəticələr əldə etmək olar. Lakin bu zaman hansı firmaları oxşar hesab etmək olar sualına cavab tapmaq lazımdır. Bu məsələdə firmanın borc siyasəti oxşarlığı təyin edən əsas əlamət ola bilər. 2) layihələrin beta əmsalları zaman keçdikcə dəyişə bilərlər, Bəzi layihələr ilk dövrlərdə, bəziləri isə sonrakı dövrlərdə daha etibarlıdırlar. Beləliklə, layihənin müxtəlif dövrləri müxtəlif beta əmsallarına malik ola bilərlər. |
| **314** | Leveric | Leverage | Леверидж | Firmanın dəyişməz dəyərli aktivlərinin istifadəsi hesabına firma sahiblərinin gəlirlərinin artırılması üsulu. Leveric daimi xərclər olduqda yaranır. Leveric üç cür olur: əməliyyat leverici, maliyyə leverici və ümumi leveric.<br>*Bax: əməliyyat leverici, maliyyə leverici.* |
| **315** | Ləğvetmə | Liquidation | Ликвидация | Ləğvetmə, adətən, müflisləşmə vaxtı yenidən təşkilin alternativi rolunu oynayır. Kreditorlara ödəmə müddəti çatdıqda əgər firmanın məxsusi kapitalının dəyəri müsbətdirsə, onlara olan borc ödənilir (zəruri hallarda səhmlər buraxmaqla pul vəsaitləri əldə olunur), əks halda firma müflisləşmə haqqında məsələ qaldırır. Əgər müflis-firmanın aktivləri istifadə üçün yararlıdırlarsa, firma ləğv olunur və ləğvetmənin mədaxili kreditorlara olan borcun ödənilməsinə sərf olunur. Əks halda, kreditorlar firmanın yeni sahiblərinə çevrilirlər və firma öz fəaliyyətini davam etdirir. |

| | | | | |
|---|---|---|---|---|
| **316** | Ləğvetmə dividendləri | Liquidating dividends | Ликвидационные дивиденды | Dividendlərin ödənilməsi firmanın balansında göstərilən bölüşdürülməmiş mənfəətin azalmasına səbəb olur. Əgər kreditorların müdafiəsi üçün vəsait tələb olunmursa, şirkət ləğvetmə dividendləri üçün icazə ala bilər. Belə dividendlər kapitaldan gəlir hesab olunduqları üçün onlar gəlir vergisinə məruz qalmırlar. |
| **317** | Ləğvetmə və ya yenidən təşkil | Liquidation versus reorganization | Ликвидация или реорганизация | Belə seçim zərurəti müflisləşmə təhlükəsi olan şirkətlərdə yaranır. Əgər şirkətin xüsusi kapitalı müsbətdirsə, onda kreditorlara olan borc ödənilir, əks halda müflisləşmə prosedurası başlayır. Əgər müflis şirkətin aktivləri hardasa faydalı hesab olunursa, onlar satılırlar və kreditorların tələbləri ödənilir (likvidlik). Əks halda kreditorlar sadəcə olaraq şirkətin yeni sahiblərinə çevrilirlər və şirkət fəaliyyətinə davam edir (yenidən təşkil). |
| **318** | Levericləşmiş xüsusi kapital | Levered equity | Левериджованный собственный капитал | Şirkətin borc və məxsusi kapitallarının nisbətinin kapitalın əsas formalarından (istiqrazlar və imtiyazlı səhmlər) qeyri-əsas formaları (adi səhmlər) ilə müqayisədə üstünlük verilməklə istifadə olunması hesabına dəyişməsi. |
| **319** | Likvidləşmə dəyəri | Salvage value | Ликвидационная стоимость | Avadanlığın satışı zamanı əldə olunan xalis gəlir. |
| **320** | Likvidli vəsaitlər | Liquidity | Ликвидность | İstənilən dəyərlilərin (qiymətli kağızlar, mallar, daşınmaz mülkiyyət və s.) nəğd və ya hesab şəklində pul vəsaitlərinə çevrilməsi dərəcəsi, imkanı. Mühasibatda - aktivlərə aid vəsaitlərin öhdəliklərə, yəni passivləri ödəyən vəsaitlərə çevrilməsi. |

| | | | | |
|---|---|---|---|---|
| **321** | Likvidlik əmsalları | Liquidity ratios | Коэффициенты ликвидности | Likvidlik əmsallarına cari likvidlik əmsalı, müddətli likvidlik əmsalı, mütləq likvidlik əmsalı və xalis dövriyyə kapitalının aktivlərin məcmu dəyərinə olan nisbəti aiddir. |
| **322** | Likvidliyin üstünlüyü nəzəriyyəsi | Liquidity-preference theory | Теория предпочтения ликвидности | Faiz dərəcələrinin zaman strukturu üçün gözləmə fərziyyəsinin əsas nöqsanı ondan ibarətdir ki, o, riski nəzərə almır. Belə olduqda, şirkət likvidlik üçün mükafat nəzərdə tutmalıdır. Bu mükafat forvard dərəcələri ilə gələcəkdə gözlənilən "spot" dərəcələri arasındakı fərqə bərabər olmalıdır. |
| **323** | Lizinq | Lease | Лизинг | Bir il və ya daha çox müddətə icarəyə götürülmüş və müəyyən ardıcıllıqla təsbit olunmuş icarə haqqı barədə razılaşmaya deyilir. Şirkətlər lizinqə avadanlığın alınmasının alternativi kimi baxırlar. Lizinqin çoxlu formaları var . Lakin bütün hallarda icarəyə götürənin icarəyə verənə müntəzəm (periodik) ödəmələri şəklində olur. Lizinqin müddəti bitdikdən sonra avadanlıq icarəyə verənə qaytarılır. Lakin bir çox hallarda, icarəyə götürən avadanlığı satın alır və ya lizinqin müddətini uzadır. |
| **324** | Lizinq xidməti | Maintainance Lease | Обслуживание Лизинга | Əgər tam lizinq xidməti barəsində müqavilə vardırsa, onda istifadəçi bütün zəruri xidmətləri ala bilir. Lakin bu xidmətlər icarə haqqının yüksəlməsinə səbəb olur. |
| **325** | Lizinq sənayesi | Leasing industry | Лизинговая отрасль | Lizinq sənayesi dedikdə, lizinq müqaviləsi üzrə icarədarlar nəzərdə tutulur. |

| | | | | |
|---|---|---|---|---|
| **326** | Lizingin kapitalizasiyası | Capitalization of lease | Капитализация лизинга | Müasir mühasibat uçotu tələblərinə görə bütün maliyyə (kapital) lizinqi kapitallaşmalıdır, yəni lizinq ödəmələrinin gətirilmiş dəyərləri hesablanmalı və digər öhdəliklərlə birlikdə balansın sağ (passiv) hissəsində göstərilməlidir. |
| **327** | Lizinqin vergiyə cəlb olunması | Lease taxes | Налогообложение лизинга | İcarəyəverən icarədə olan əmlakın sahibi kimi vergiyə düşən mənfəətdən aşınmanı çıxa bilər. Lizinq şirkəti əvəzində icarəçiyə daha az icarəhaqqı təyin edə bilər. Nəticədə, icarəçi icarəyə götürülmüş əmlaka görə amortizasiya üzrə vergi qalxanından məhrum olur, lakin vergiyə düşən mənfəətdən icarə ödəməlini tam həcmdə çıxa bilər. Digər tərəfdən, hüquqi mülkiyyətçi kimi, amortizasiya üzrə vergi qalxanından istifadə edirsə, onda daxil olan icarə ödənclərini vergiyə düşən mənfəət kimi göstərməlidir. |
| **328** | London banklararası bazarların kredit dərəcələri | London interbank offered rate | Ставка Лондонского рынка межбанковских кредитов | Dəyişən faiz dərəcələrinin təyin olunmasında bir çox hallarda London banklararası bazarların kredit dərəcələrindən (LIBOR) istifadə olunur. LIBOR dərəcələri üzrə Londonda iri beynəlxalq banklar biri digərlərinə dollarla borc verirlər. Eyni məqsəd üçün bəzi hallarda bazis dərəcəsindən və ya xəzinədarlığın müxtəlif qiymətli kağızlarının gəlirlik normasından istifadə olunur. |

| | | | | |
|---|---|---|---|---|
| **329** | London qızıl fiksinqi | London gold fixing, gold fix | Лондонский фиксинг золота | London banklararası bazarda qızılın qiymətinin tələb-təklif əsasında gündəlik müəyyənləşdirmək proseduru. Qızılın fiksinqı Londonda hər iş günündə 2 dəfə (AM fix - səhər fiksinqi 10:30-da və PM fix – axşam fiksinqi 15:00-da, Qrinvıç vaxtı ilə) baş verir. London gold fixing 3 valyutada (ABŞ dolları USD, funt sterling GBR və avro EUR ) təsbit olunur.<br>I Dünya müharibəsi bitdikdən sonra funt sterlingin devalvasiyası fonunda Bank of England Cənubi Afrika qızılının satışı hüququnun Rothschild bankına verilməsi haqqında qərar qəbul etdi. İlk London gold fixing 12 sentyabr 1919-cu ildə qızılın 5 ən böyük istehsalçıları və alverçilərinin (N.M. Rothschild & Sons; Pixley & Abell; Mocatta & Goldsmid; Sharps Wilkins; Samuel Montagu & Co.) iştirakı ilə baş verdi.<br>II Dünya müharibəsi ilə əlaqədar 1930-1954-cü illərdə qızılın fiksinqi keçirilməmişdir. 1968-ci ilə qədər qızıl fiksinqi gündə 1 dəfə Qrinviç vaxtı ilə 15:00-da keçirilmişdir.<br>Sonralar London gold fixing qrupunun tərkibində dəyişikliklər olmuşdur. London qızıl fiksinqi «Good Delivery» standartına uyğun qızıl külçələrə London Gold Market Fixing Limited qrupunun (Deutsche Bank; Societe General; HSBC; Scotia Mocatta; Barclays Capital) üzvləri arasında sövdələşmələrin əsasında qiymət qoyulurdu.<br>20 martdan 2015-ci ildən başlayaraq gold fix elektron auksion nəticəsində müəyyənləşdirilir. Qızılın fiksinqi gündə 2 dəfə aparılır: səhər fiksinqi “GOLD–LBMA PRICE-AM”, axşam fiksinqi isə “GOLD–LBMA PRICE-PM” adlanır. LBMA Gold Price qrupu Goldman Sachs, Scotiabank, HSBC, Societe Generale, UBS и Barclays şirkətlərindən ibarətdit. |

| | | | | |
|---|---|---|---|---|
| **330** | LONGER modeli | LONGER model | Модель LONGER | Mayers və Poq tərəfindən maliyyə planlaşdırılması sahəsində xətti proqramlaşdırma əsasında qurulmuşdur. LONGER modeli tipik maliyyə modellərindən iki cəhətdən fərqlənir: əvvəla, həlli optimallaşdırır, yəni verilən gümanlar və məhdudiyyətlər çərçivəsində ən əlverişli maliyyə planını tərtib edir; sazlanmış kaptital bazarına əsaslanaraq şirkətin xalis gətirilmiş dəyərinin maksimallaşmasına çalışır. O, dəyərlərin toplanması prinsipinə və Modilyani-Miller konsepsiyasına əsaslanır. Bu konsepsiyaya görə borcun əsas üstünlüyü cəlb olunmuş kapital üçün ödənilən faizlərin yaratdığı vergi qalxanıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **331** | Lorens əyrisi | Lorenz curve | Кривая Лоренница | “Lorens əyrisi” modeli alman filosofu və iqtisadçısı, sosial dövlət ideyasının müəllifi Lorens fon Şteyn *(1815-1890)* tərəfindən tərtib olunmuşdur. O, gəlirlərin bölgüsü problemini tədqiq edərək bu prosesdə nə mütləq bərabərliyin, nə də mütləq bərabərsizliyin olduğunu müəyyən etmişdir. Lorens əyrisi 1 saylı qrafikdə təsvir olunmuşdur. Belə kvadratik diaqramın üfüqi oxunda əhalinin faizlə kumulyativ qrupları, şaquli oxunda isə müvafiq əhali qruplarının ümumi gəlirdə faizlə payı göstərilir.   Gəlirlərin bölgüsündə bərabərsizliyin səviyyəsini qiymətləndirmək və Cini əmsalını hesablamaq üçün üçün “Lorens əyrisi” modelindən də istifadə edirlər. |

| | | | | |
|---|---|---|---|---|
| **332** | Maliyyə aktivləri | Financial assets | Финансовые активы | Pul vəsaitlərini əldə etmək üçün satılan qiymətli kağızlardır. Maliyyə sənədlərindən və qiymətli kağızlardan ibarət qeyri-material aktivlərdir. Maliyyə aktivlərinə aksioner kapital, istiqrazlar, bank kreditləri, icarə öhdəlikləri və s. aiddirlər. Maliyyə aktivlərinə aid edilən gələcək qazanc nəğd pul barədə gələcək iddia və ya tələbdir. Gələcək ödəniş üçün üzərinə öhdəlik götürmüş şəxs maliyyə aktivinin emittenti adlanır, maliyyə aktivininin sahibi isə investor adlanır. |
| **333** | Maliyyə asılılığı əmsalları (Maliyyə leverici əmsalı) | Leverage ratios | Коэффициенты финансовой зависимости (финансового левериджа) | Maliyyə asılılığı əmsallarına borcla yüklənmə əmsalı və faizin ödənməsi əmsalı aiddirlər.<br>*Bax: Borcla yüklənmə əmsalı.*<br>*Bax: Faizin ödənməsi əmsalı.* |
| **334** | Maliyyə leverici | Leverage financial | Финансовый Леверидж | Cəlb olunmuş vəsaitlər və imtiyazlı istiqrazlar istifadə olunduqda yaranır, yəni investisiya olunmuş kapitalın gəlirliyinin artırılması üçün təsbit edilmiş dəyəri olan vəsaitlərdən istifadə etdikdə yaranır. Nə qədər ki, gəlirlər cəlb olunmuş vəsaitlər üçün ödənclərdən artıqdır, şirkətin sahiblərinin gəlirləri atrmaqda davam edir. Firma borca girərkən təsbit olunmuş ödənclər seriyası barəsində öhdəliklər götürür. Səhmdarlar yalnız ödənclərdən sonra qalan kapitaldan istifadə edə bilərlər. Beləliklə, borc maliyyə asılılığına (maliyyə leverici) səbəb olur. Maliyyə leverici bir qayda olaraq adi səhmlərlə bağlıdır. Maliyyə leverici riskə və ya aktivlərin gözlənilən gəlirliyinə təsir etmir, amma adi səhmlər üçün riski artırır və səhmdarları məcbur edir ki, daha yüsək mənfəət tələb etsinlər. |

| | | | | |
|---|---|---|---|---|
| **335** | Maliyyə lizinqi | Financial lease, Full-payment lease | Финансовый лизинг (капитальный, с полной выплатой) | Maliyyə lizinqi əmlakın iqtisadi ömrünün böyük hissəsini əhatə edir və icarəçi tərəfindən lizinq sazişi pozula bilməz və ya pozularkən icarəverənə dəymiş zərəri ödəməlidir. Maliyyə lizinqinin digər adları - kapital lizinqi və tam ödənişli lizinqdir. |
| **336** | Maliyyə planlaşdırılması | Financial planning | Финансовое планирование | Maliyyə planlaşdırılması aşağıdakılarından ibarət prosesdir:<br>1. şirkətin malik olduğu investisiya və maliyyələşmə imkanlarının analizi;<br>2. gözlənilməzliklərdən qaçmaq üçün gələcək qərarların nəticələrinin proqnozlaşdırılması və cari və gələcək qərarlar arasındakı əlaqələrin araşdırılması;<br>3. mümkün həllər içindən seçilmiş həllin əsaslandırılması;<br>4. maliyyə planlaşdırılması ilə müqayisədə şirkətin əldə etdiyi nəticələrin qiymətləndirilməsi.<br>Maliyyə planlaşdırılması qısa müddətli (12 aydan çox) və uzunmüddətli (5 və ya 10 il) olmaqla iki növə bölünürlər. Maliyyə planlaşdırılmasının müəllifləri ümumiləşdirici və ya aqreqat göstəricilərdən istifadə edərək xırda detallardan yan keçməyə çalışırlar. |

| | | | | |
|---|---|---|---|---|
| **337** | Maliyyə çətinlikləri | Financial distress | Финансовые затруднения | Maliyyə çətinliklərinin yaranması kreditorlar qarşısındakı öhdəliklirin pozulması və əməl olunmasındakı çətinliklərlə bağlıdır. Bəzi hallarda maliyyə çətinlikləri müflisləşməyə səbəb olur. Maliyyə çətinlikləri ilə üzləşən levericləşmiş şirkətin qiymətli kağızlarının cari bazar dəyəri maliyyə çətinlikləri ilə əlaqədar xərclərin gətirilmiş dəyəri məbləğində azalır:<br>*Firmanın dəyəri = məxsusi kapital hesabına maliyyələşmənin dəyəri + vergi müdafiəsinin gətirilmiş dəyəri - maliyyə çətinlikləri xərclərinin gətirilmiş dəyəri.*<br>Maliyyə çətinlikləri xərcləri müflisləşmə ehtimalından və əgər müflisləşmə baş verərsə yaranmış xərclərin məbləğindən asılıdır. |
| **338** | Maliyyə əmsalları | Financial rations | Финансовые коэффициенты | Şirkətin maliyyə vəziyyəti barədə irihəcmli məlumatların ümumiləşməsi və fəaliyyətinin müqayisəli analizinə kömək edən alətlərdir. Maliyyə əmsallarının dörd növü vardır:<br>1) maliyyə asılılığının əmsalı göstərir ki, şirkət borc kapitalından nə dərəcədə istifadə edir;<br>2) Likvidlik əmsalları göstərir ki, şirkətin pul vəsaitləri nə dərəcədə əlçatandır;<br>3) Rentabellik əmsalları şirkətin aktivlərinin istifadəsinin effektivliyini nümayiş etdirir;<br>4) Bazar aktivliyi əmsalları şirkətin investorlar tərəfindən necə qiymətləndirdiklərini xarakterizə edir. |
| **339** | Maliyyə fyuçersi | Financial futures | Финансовый фьючерс | Faiz dərəcələrinin və valyuta kurslarının dəyişmələri ilə əlaqədar riskləri azaltmaq üçün maliyyə fyuçerslərindən istifadə olunur. Mal fyuçerslərindən fərqli olaraq maliyyə fyuçersləri gələcəkdə maliyyə aktivlərinin alqı-satqı öhdıliklərini əhatə edir. |

| | | | | |
|---|---|---|---|---|
| **340** | Maliyyə maneəsi | Financial slack | Финансовый заслон | Gələcəkdə səhmlərin məcburi buraxılması təhlükəsinə qarşı xarici kapitalın əvəzinə paylanmamış gəlirdən istifadə etmək hesabına pul vəsaitlərindən, asan satıla bilən bazar qiymətli kağızlarından maliyyə ehtiyatının yaradılması maliyyə maneəsi adlanır. |
| **341** | Maliyyə meneceri | Financial manage | Финансовый менеджер | Maliyyə meneceri şirkətin maliyyə planlaşması və investisiya qərarları üçün məsul şəxsə deyilir. Kiçik firmalarda eyni bir şəxs maliyyə menecmentinin bütün funksiyalarını icra edə bilir. Böyük firmalarda ixtisaslaşmış maliyyə menecerləri fəaliyyət göstərirlər. Xəzinədar - maliyyə vəsaitlərinin cəlb edilməsi, pul vəsaitləri hesablarının idarə olunması, banklar və digər maliyyə institututları ilə əlaqələr üçün cavabdehdir. Mühasib-kontroler (baş mühasib) mühasibat uçotu, maliyyə hesabatları, daxili audit, əməkhaqqının və vergilərin ödənilməsi, smeta tutulması və hesabatların saxlanması aiddirlər. Daha böyük şirkətlərdə xəzinədarın və mühasib-kontrolorun işlərinə nəzarət etmək üçün direktor vəzifəsi nəzərdə tutulur. |
| **342** | Maliyyə riski | Financial risk | Финансовый риск | Şirkət tərəfindən real aktivlərə investisiyaların maliyyələşməsi məqsədi ilə yaratdığı borc öhdəlikləri ilə bağlı risklər maliyyə riski adlanır. Bu riskin əsas daşıyıcıları şirkətin səhmdarlarıdır. |
| **343** | Maliyyə vekseli | Finance bill | Финансовый вексель | Bank akseptləri xüsusi əməliyyatların maliyyələşdirilməsi üçün tətbiq olunur. Maliyyə vekseli və dövriyyə kapitalına aksept terminləri ümumi maliyyələşdirmə məqsədi ilə bəzi banklar tərəfindən akseptləşdirilən veksellər barəsində işlədilir. |

| | | | | |
|---|---|---|---|---|
| **344** | Maliyyələşmə | Financing | Финансирование | Maliyyələşmə adətən aşağıdakı sualların cavabını tapmağı tələb edir:<br>1) Gəlirlərin əsas hissəsini reinvestisiyaya, yoxsa dividendlərə ayırmaq lazımdır?<br>2) Əgər firmaya əlavə pul lazımdırsa, yeni səhmlər buraxmaq, yoxsa borc getmək lazımdır?<br>3) Qısamüddətli, yoxsa uzunmüddətli borclardan istifadə etmək lazımdır?<br>4) Borcu nə formada götürmək lazımdır - uzunmüddətli adi səhmlərin köməyi ilə, yoxsa konvertasiya olunan , yəni adi səhmlərə dəyişilə bilən səhmlərin vasitəsi ilə. |
| **345** | Marjinal vergi dərəcəsi | Marginal tax rate | Маргинальная налоговая ставка | Marjinal vergi dərəcəsi vergitutma bazasının son limit artımında tətbiq edildiyi dərəcədir. Marjinal vergi dərəcəsi proqressiv vergi sistemi tətbiq olunan ölkələrdə təklif edilir. Məs., Azərbaycanda fiziki şəxslərin gəlir vergisinin marjinal vergi dərəcəsi 25%-dir. |
| **346** | Mədən vergisi | Mineral royalty tax | Промысловый налог | Azərbaycan Respublikasının ərazisində, o cümlədən Xəzər dənizinin gölünün) Azərbaycan Respublikasına mənsub olan sektorunda faydalı azıntıların çıxarılmasına görə mədən vergisi tutulur. |
| **347** | Məhsulla ödəniş | Production payment | Оплата продукцией | Layihənin maliyyələşdirilməsi bir başa borc verilməsi şəklində deyil, alternativ yolla gerçəkləşdirilir. Bu halda banklar nə ana şirkətə, nə onun törəmə filialına kredit vermir, əvəzində onların nəzarətində olan vasitəçi firmanı maliyyələşdirirlər. Bu zaman firma aldığı vəsaitləri bank kreditinin ödənməsi üçün istifadə edir. |

| | | | | |
|---|---|---|---|---|
| **348** | Mənfəət | Earnings, Income, Profit | Прибыль | Malların satışından və xidmətlərin göstərilməsindən əldə olunan gəlirin istehsal və satış xərclərindən üstün olması. Müəssisənin əldə etdiyi bütün mənfəət ümumi mənfəət adlanır. Ümumi mənfəətdən müxtəlf ayırmalardan sonra (vergilər, faizlər, icarə haqları, xeyriyyə) qalan mənfəət xalis mənfəət adlanır. Müəssisənin işinin effektivliyinin əsas göstəricisi mənfəət normasıdır, yəni əldə olunan mənfəətin istehsal vasitələrinin dəyərinin və əməkhaqqının cəminə olan nisbəti. İqtisadi praktikada, adətən illik mənfəət normasından istifadə olunur. |
| **349** | Mənfəətin dinamikası | Earnings record | Динамика прибыли | Hər səhmə düşən orta mənfəətin illərə görə paylanmasını əks etdirən diaqram. Mənfəətin dinamikasının əsas xüsusiyyəti ondan ibarətdir ki, mənfəət illər üzrə təsadüfi dəyişir, ona görə də ekstropolyasiya mümkün deyildir. Bu səbəbdən gələcək proqnoz baxımından, eləcə də keçmiş dövrlərin dinamikasını dəqiqləşdirmək baxımından mənfəətin dinamikasını bilmək kifayət deyildir, yalnız orta qiymətlərdən danışmaq mümkündür. Mənfəətin proqnozlaşdırılması üçün digər informasiya mənbələrindən istifadə etmək vacibdir. Mənfəətin dinamikasını müəyyən etmək üçün zaman sıralarının analitik göstəricilərindən istifadə olunur. |
| **350** | Məsrəflər | Costs | Затраты | Təsərrüfat subyektinin məhsulun istehsalına çəkdiyi pul formasında xərclər. Məsrəflərə aiddirlər: xammalın dəyəri, amortizasiya ayırmaları, əməkhaqqı və sosial sığortaya ayırmalar; alınma yarımfabrikatlar; inzibati-təsərrüfat; qaimə xərcləri və ümumi xərclər hesab olunan ziyanlar. İstehsalın və idarəetmənin effektivliyini göstərən mühüm göstəricidir. |

| | | | | |
|---|---|---|---|---|
| **351** | Miller – Orr modeli | Miller – Orr model | Модель Миллера - Оppa | Əgər şirkət pul vəsaitlərinin gündəlik axınını proqnozlaşdıra bilmirsə, onda pul vəsaitlərinin qalığının idarə olunması üçün Miller – Orr modelindən istifadə edə bilər. Bu model realizmi və sadəliliyi ilə digər modellərdən (məs., Bomol metodu) fərqlənir.<br>Modelin əsas mahiyyəti ondan ibarətdir ki, şirkət pul vəsaiti ehtiyatlarının aşağı və yuxarı sərhədlərini təyin edir. Əgər pul vəsaiti ehtiyatları yuxarı sərhəddə çatırsa, onda şirkət qiymətli kağızlar almaqla onu normal həddə enidrir. Əks halda əgər pul vəsaiti ehtiyatları aşağı sərhəddə çatırsa onda qiymətli kağızları satmaqla onu normal həddə qədər qaldırır. Miller və Orr göstərmişlər ki, sərhədlərin seçilməsi üç amildən asılıdır. Əgər pul vəsaitlərinin gündəlik dəyişməsi çox böyükdürsə və ya qiymətli vərəqlərin alqı-satqısı çox vəsait tələb edirsə, onda nəzarət sərhədlərini bir-birindən uzaq təyin etmək lazımdır. Və əksinə, əgər faiz dərəcəsi yüksəkdirsə onda nəzarət sərhədlərini bir-birinə yaxın təyin etmək lazımdır. Bu qaydaya əməl etdikdə pul vəsaitləri ehtiyatının qayıdış nöqtəsi aşağı sərhəddən iki sərhəd arasındakı məsafənin 1/3-i qədər yuxarıda yerləşir. Miller və Orr modelində qayıdış nöqtəsi məcmu əməliiyat xərclərini və faizlərin ödənilməsini minimallaşdırır. |
| **352** | Milli istiqrazlar | Domestic bonds | Национальные облигации | Daxili bazarda dövriyyəyə buraxılmış istiqrazlar. |

| | | | | |
|---|---|---|---|---|
| **353** | Monopolist rəqabət | Monopolistic competition | Конкуренция монополистическая | Eyni bir malın müxtəlif növlərinin satıcılarının çoxluğu və bazara nisbətən asan girişlə xarakterizə olunan bazar strukturu. Mükəmməl rəqabətdən fərqli olaraq belə rəqabət malın qiyməti ilə deyil, onun xarakteri ilə əlaqədar olur. Hər bir firma yeni alıcılar cəlb etmək üçün öz mallarının keyfiyyətini reklam etməyə çalışırlar.<br>*Bax: Mükəmməl rəqabət.* |
| **354** | Monte Carlo modeli | Monte Carlo simulation model | Модель Монте - Карло | Monte Carlo modeli metodunun mahiyyəti ondan ibarətdir ki, kompüterin köməyi ilə paylanması əvvəlcədən təyin edilmiş təsadüfi kəmiyyətin müşahidəsi yaradılır. Bu metod kompüter eksperimentinin bir nümunəsidir və statistik nəticələr əldə etməyə imkan verir. Monte Carlo modeli təkcə statistik tədqiqatlarda deyil, elmin bir çox sahələrində, o cümlədən ekonometrikada istifadə olunur. |
| **355** | Mübadilə vekseli | Bill exchange | Переводной вексель | Kommersiya vekselinə mübadilə vekseli də deyilir.<br>*Bax: kommersiya vekseli.* |
| **356** | Müddətin uzadılması hüquqlu istiqraz vərəqələri | Extendable bonds | Облигации с правом продления срока | *Bax: Vaxtından əvvəl satış hüquqlu istiqraz vərəqələri.* |

| | | | | |
|---|---|---|---|---|
| **357** | Müddətli bank depoziti | Bank time depozit | Банковский срочный депозит | Müddətli bank depozitlərinin çox yayılmış forması əmanət hesablarıdır. Əmanət hesabı qeyri-müəyyən dövrə edilmiş investisiyadır. Bu hesabdan məbləğ istənilən vaxt götürülə bilər. Bankın əmanətin götürülməsi barədə 30 gün əvvəldən xəbərdarlıq tələb etməyə haqqı olsa da, adətən bu hüquqdan istifadə olunmur. Ona görə də əmanət hesabları yüksək likvidliyi ilə fərqlənirlər və fiziki şəxslər, eləcə də kiçik şirkətlər bu hesablardan həvəslə istifadə edirlər.<br>Müddətli bank depozitinin alternativ forması qeyd edilmiş müddəti olan depozitlərdir. Əgər əmanət təyin olunmuş müddətdən əvvəl götürülərsə, bank faiz dərəcəsinin azaldılması formasında cərimə tətbiq edir. |
| **358** | Müddətli likvidlik əmsalı | Quick ratio, Acid – test ratios | Коэффициент срочной ликвидности («лакмусовая бумажка») | Pul vəsaitlərinin, bazar qiymətli kağızlarının və debitor borcların məcmu cəminin qısamüddətli öhdəliklərə olan nisbətinə deyilir.<br>$R_{aqt} = \frac{M+A+D}{S}$;<br>Burada:<br>$R_{aqt}$ - müddətli likvidlik əmsalı;<br>$M$ - pul vəsaitləri;<br>$A$ - bazar qiymətli kağızları;<br>$D$ - debitor borcları;<br>$S$ - qısamüddətli öhdəliklər. |

| | | | | |
|---|---|---|---|---|
| **359** | Müddətsiz renta | Perpetuity | Бессрочная рента | Böyük Britaniya hökümətinin qiymətli kağızlarının bir növüdür. Hökümət bu istiqrazların ödənməsi haqqında heç bir öhdəlik daşımır, lakin təsbit olunmuş illik gəliri hər il qeyri-müəyyən müddətdə ödəməyə boyun olur. Bu qiymətli kağızların gəlir norması vəd olunmuş illik ödəmələrin gətirilmiş dəyərə nisbətinə bərabərdir. |
| **360** | Müflisləşmə | Bankruptcy | Банкротство | Borclunun öz öhdəliklərini yerinə yetirə bilməməsi, borcunu pul vəsaitlərinin yoxluğu səbəbindən qaytara bilməməsi. Müflisləşmə məhdud məsuliyyətli şirkətlərdə və qeyri - məhdud məsuliyyətli şirkətlərdə müxtəlif nəticələrə səbəb olur. Müflisləşmə- əsas aktivlərin dəyərinin enməsidir. Müflisləşmə imkanı səhmdarların hüqugudur və səhmlərin dəyərinə müsbət təsir göstərir. |
| **361** | Müflisləşmə məsrəfləri | Costs of bankruptcy | Издержки банкротства | Məhkəmə xərcləri, inzibati xərclər və mütəxəssislərin haqlarının ödənməsi əsas xərclərdir. Məhdud məsuliyyətli şirkətlərdə səhmdarlar ancaq şirkəti itirirlər (şirkət və onun səhmləri kreditorların sahibliyinə keçir), qeyri - məhdud məsuliyyətli şirkətlərdə isə səhmdarlar şirkətin borclarını tam həcmdə ödəməlidirlər. |
| **362** | Müflisləşmənin birbaşa xərcləri | Direct bankruptcy costs | Прямые издержки банкротства | Müflisləşmənin birbaşa xərcləri dedikdə, məhkəmə və inzibati xərclər, ekspertlərin dəvət olunması ilə bağlı xərclər nəzərdə tutulur. |

| | | | | |
|---|---|---|---|---|
| **363** | Mühasibat betası | Accounting beta | Бухгалтерская бета коэффициент | Risk - firmanın mənfəəti ilə bütün real aktivlərinin mənfəətləri arasındakı əlaqənin möhkəmliyindən asılıdır. Bu əlaqə ya mühasibat betası, ya da pul vəsaitləri axını betası ilə qiymətləndirilir. Bu betaların betanın real qiymətindən fərqi qiymətli kağızların gəlirliyi əvəzinə mühasibat mənfəətinin və ya pul vəsaitləri axınınn dəyişişikliklərinin istifadə olunması ilə bağlıdır. |
| **364** | Mühasibat gəlirliliyi | Profitability, Return on accounting | Рентабельность бухгалтерская | İnvestisitya layihəsini dəyərləndirmək üçün istifadə olunur. Mühasibat gəlirliliyini hesablamaq üçün layihə üzrə proqnozlaşdırılan orta mənfəətin amortizasiya və vergi ödəncləri ilə fərqinin investisiyaların orta balans dəyərinə olan nisbətini götürmək lazımdır. |
| **365** | Mühasibat gəlirliyinə inflyasiyanın təsiri | Effect of inflation on book return | Влияние инфляции на бухгалтерскую доходность | 1. İnflayasiya tamamlanmamış istehsalın və hazır məhsulun nomunal dəyərini artırır.<br>2. İnflyasiya gücləndikcə əsas vəsaitlərin qalıq dəyəri reallıqdan daha çox uzaqlaşır, yəni balans dəyəri cari dəyəri azaldır. Ona görə də balans dəyərinə əsaslanan amortizasiya sxemi aktivlərin cari dəyər dəyişməsi mənzərəsini təhrif edir.<br>3. İnflyasiya borc kapitalından istifadə edən firmalara özünəməxsus təsir göstərir. Belə ki, borcverənlər ödənişləri inflyasiyaya uğrayaq gələcək dollarla alırlar, ona görə də onlar ssudanın real dəyərinin azalmasını kompensasiya etmək üçün daha yüksək faiz dərəcəsini tələb edirlər. Faiz dərəcəsinin gözlənilən inflyasiyanın kompensasiyası üçün nəzərdə tutulan hissəsi inflyasiya mükafatı adlanır. |

| | | | | |
|---|---|---|---|---|
| **366** | Mühasibat mənfəəti | Accounting earning | Бухгалтерская прибыль | Mühasibat uçotunda iqtisadi mənfəətin illər üzrə dinamikası izlənmir. Ona görə də mühasibat mənfəətini iqtisadi mənfəətdən fərqləndirmək lazımdır. Mühasibat mənfəətini hesablamaq üçün aşağıdakı metodikadan istifadə olunur. Mühasibat uçotunda pul vəsaitləri axını 2 kateqoriyaya ayrılır: cari və kapital xərcləri. Cari xərclər həmin mənfəətdən çıxılır. Kapital xərcləri isə əvvəlcə kapitallaşdırılır və sonrakı illər üçün bu və ya digər sxem üzrə (adətən, birbaşa müntəzəm silinmə metodu ilə) amortizasiyası hesablanır. Şirkətin mənfəəti haqqında hesabat təsərrüfat fəaliyyətindən yaranan faktiki pul vəsaitləri axınını əks etdirir, amma aktivlərin dəyərindəki faktiki dəyişiklikləri əks etdirə bilmir. Bu səbəbdən şirkətin mənfət hesabatı qismən baş vermiş faktı (təsərrüfat fəaliyyətindən yaranan faktiki pul vəsaitləri axınını), qismən isə proqnozu (aktivlərin dəyərinin amortizasiyasını) əks etdirir. |
| **367** | Mühasibat uçotu | Accounting | Бухгалтерский учот | Təşkilatın əmlakı, öhdəlikləri və onların hərəkəti haqqında təsərrüfat əməliyyatlarının pul ifadəsində fasiləsiz, hərtərəfli və sənədləşdirilmiş nizamlanmış uçot sistemi. Mühasibat uçotunun əsas metodları: sənədləşdirmə, inventarizasiya, mühasibat hesabları, 2-li yazılış, balans, qiymətləndirmə və hesablama, mühasibat hesabatları. Mühasibat uçotu yerli qanunvericliyin tələblərinə uyğun aparılmalıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **368** | Mükəmməl kapital bazarı | Perfect capital market | Совершенные рынки капиталов | Mükəmməl kapital bazarında aşağıdakı şərtlər ödənməlidir:<br>1. Kapital bazarına giriş imkanına məhdudiyyət yoxdur, bazarın heç bir iştirakçısının qiymətlərə ciddi təsir edə biləcək dominantlığı yoxdur;<br>2. Kapital bazarına giriş xərc tələb etmir və qiymətli kağızlarla sərbəst alış-veriş üçün heç bir maneə yoxdur;<br>3. Qiymətli kağızların hər növünün qiyməti və miqdarı haqqında informasiya bazarın bütün iştirakçıları üçün əlçatandır;<br>4. Heç bir vergi dağıdıcı amil rolunu oynamır. |
| **369** | Mükəmməl rəqabət | Perfect competition | Конкуренция совершенная | Mükəmməllik dedikdə, firmalar arasındakı rəqabətin nəzəri, ideal səviyyəsi nəzərdə tutulur. Bu nəzəri model iqtisadi nəzəriyyədə firmanın real şəraitdə rəqabət davranışını müqayisə etmək üçün baza səviyyəsi kimi qəbul edilir. Bu modelin əsasında aşağıdakı fərziyyələr durur: verilmiş istehsal sahəsində eyni cinsli məhsullar istehsal edən və bu sahənin ümumi istehsalında payı kiçik olan firmaların say çoxluğu; istehsala girişin və ondan çıxışın maneəsiz olmaması; istehlakçıların tam məlumatlı olması. Mükəmməl rəqabətin əsas nəticəsi bütün firmaların bərabərliyi şəraitində iqtisadı mənfəətin sıfır olmasıdır.<br>*Bax: Monopolist rəqabət.* |
| **370** | Mümkünlüyün sərfəliyi | Convenience yield | Выгода доступности | Əldə olan malla onun alınmasına olan fyuçers arasında ciddi fərq var. Fyuçersin üstünlüyü ondan ibarətdir ki, birinci, ödənişlər təxirə salındıqları üçün alıcı öz pul vəsaitləri üçün faiz qazanır, ikinci, malın saxlanması, qorunması ilə bağlı xərclərdən azaddırlar. Lakin fyuçers müqaviləsi malın dərhal istifadə olunması imkanının dəyərindən, mümkünlüyün sərfəliliyindən məhrumdurlar. |

| | | | | |
|---|---|---|---|---|
| **371** | Müntəzəm aşınma | Straight-line depration | Равномерная амортизация | Aşınmanın hesablanmasının metodlarından biridir. Bu metoda görə aşınmanın illik məbləği ilkin investisiyaların sabit payı ilə likvidlik dəyərinin fərqinə bərabərdir. |
| **372** | Müntəzəm illik məsrəflər | Equivalent annual costs | Равномерные годовые затраты | Alqının ümumi gətirilmiş dəyərinin və avadanlığın istismar xərclərinin yekunu müntəzəm illik məsrəflər adlanır. |
| **373** | Mürəkkəb faiz | Compound interest | Сложный процент | Əsas məbləğə və əvvəlki dövrlərin faizlərinə hesablanmış faizlər.Mürəkkəb faiz dərəcəsi tətbiq etməklə gələcək pulun dəyəri aşağıdakı düstur vasitəsi ilə hesablanır.<br>$FV = P * (1 + i)^n;$<br>Burada:<br>FV-gələcək pulun dəyəri;<br>P- pulun indiki dəyəri;<br>i- faiz dərəcəsi . |

| | | | | |
|---|---|---|---|---|
| **374** | Mütləq likvidlik əmsalı | Cash ratio | Коэффициент абсолютной ликвидности | Pul vəsaitləri və bazar qiymətli kağızları asan likvidləşən aktivlərdir. Ona görə də maliyyə analtikləri baxımından mütləq likvidlik əmsalı, yəni pul vəsaitləri və bazar qiymətli kağızlarının cəminin qısamüddətli borclara olan nisbəti təhlil üçün əhəmiyyətlidir.<br>$L_{abs} = \frac{M+P}{D_s}$;<br>Burada:<br>$L_{abs}$ - mütləq likvidlik əmsalı;<br>$D_s$ - qısamüddətli borclar;<br>$M$ - pul vəsaitləri;<br>$P$ - bazar qiymətli kağızları. |
| **375** | NASDAQ fond birjası | NASDAQ, National Association of Securities Dealers Automated Quotation | «Насдак» — Автоматизированные котировки Национальной ассоциации дилеров по ценным бумагам | Qiymətli kağızlar üzrə Dilerlərin Milli Assosasiyasının avtomatlaşdırılmış kotirovkası – yüksək texnologiyalı şirkətlərin (elektronika, proqram təminatı və s. istehsalı) səhmlərində ixtisaslaşmış ABŞ birjasıdır. ABŞ-da NYSE və AMEX ilə birlikdə 3 əsas fond birjasını təşkil edir. NASDAQ fondu NASDAQ OMX Group şirkətinə məxsusdur və 1971-ci ilin fevral ayında Nyu-Yorkda təsis edilmişdir. NASDAQ fondunun əsas indekslərinə NASDAQ Composite, NASDAQ-100 və NASDAQ Biotechnology Index aiddirlər. |

| | | | | |
|---|---|---|---|---|
| **376** | Natural formada ödəniş hüquqlu istiqraz vərəqələri | Pay – in – kind bonds | Облигации с правом выплат в натуральной форме | Bu istiqrazlar üzrə ödənişlər iki formada olur: pul şəklində və ya nominal üzrə ekvivalent məbləğdə istiqrazlarla. Bu istiqrazlar şirkətlər üçün daha sərfəlidirlər, çünki səhmdarlarla pul vəsaitləri hesabına deyil, qiymətdən düşmüş istiqrazlarla hesablaşmağa imkan verir. |
| **377** | Nominal vergi dərəcəsi | Nominal tax rate | Номинальная налоговая ставка | Nominal vergi dərəcəsi dedikdə vergi qanunvericiliyinə əsasən vergi dərəcələri başa düşülür. Praktikada nominal vergi dərəcəsi effektiv vergi dərəcəsindən fərqlənə bilər. |
| **378** | Normal artım | Normal growth | Нормальный рост | Biznes inkişafının bir növüdür. Bu plan şirkətin altqurumlarının öz rəqiblərinə təzyiq göstərmək hesabına deyil, onun məhsulunun satış bazarının artmasına paralel olaraq inkişaf etməsini nəzərdə tutur.. |
| **379** | Normal xərclər | Normal costs | Нормальные затраты | Əgər təqaüd fondunun balansında fonddankənar öhdəliklər yoxdursa, şirkətə yalnız təqaüd fonduna hər il qazanılmış əlavə təqaüdlərin dəyərini köçürmək qalır. Belə requlyar ödəmələr normal xərclər adalanırlar. |

| | | | | |
|---|---|---|---|---|
| **380** | Normal paylanma | Normal distribution | Нормальное распределение | Kəsilməz təsadüfi kəmiyyətin gümbəzə oxşayan simmetrik paylanması. Normal paylama 2 kəmiyyətlə - orta qiyməti və standart kənarlaşma ilə xarakterizə olunur.<br>  <br><br>PDF = $\frac{e^{-\frac{(x-\mu)^2}{2\sigma^2}}}{\sqrt{2\pi}\sigma}$;<br>Burada:<br>$\mu$ - orta qiymət;<br>$\sigma$ - standart kənarlaşmadır.<br>Digər adı Qaus paylanmasıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **381** | Opportunist fəaliyyət | Opportunity activity | Оппортуниские действие | Opportunist fəaliyyət dedikdə, hər hansı bir bağlanmış biznes müqaviləsinin şərtlərindən yayınmaqla digər tərəfin hesabına gəlir əldə edilməsi nəzərdə tutulur. Transaksiya xərcləri mübadilə prosesinə qədər, mübadilə prosesində və ondan sonra baş verə bilər. Transaksiya xərcləri müəyyənləşərkən qarşılıqlı asılı olan şəxslərin əlamət kriteriyaları müəyyənləşməlidir. |
| **382** | Opsion | Option | Опцион | Maliyyə alətlərindən biridir. Alıcı öz üzərinə öhdəlik götürmədən müqavilə (opsion) əsasında müəyyən aktivi müəyyən müddətdə müəyyən məbləğə almaq və ya satmaq hüququ qazanır. Opsionun satıcısı öz növbəsində müqavilənin şərtləri əsasında alqı-satqını icra etmək öhdəliyini üzərinə götürür. Opsion ticarəti birjalarda həyata keçirilir. Opsion müqavilələri təkcə adi səhmlərin alqı-satqısı üçün deyil, həmçinin istiqrazlar, fond indeksləri, mallar və xarici valyuta üçün də bağlanır. Opsionların çoxlu növləri var: alış üçün (Opsion koll), satış üçün (Opsion put), 2-qat opsion (streddl), "kəpənək", "pullu", "lüt" opsionlar. |
| **383** | Opsion koll | Call option | Опцион «колл» | Opsion koll onun sahibinə səhmi icra qiyməti və ya razılaşma qiyməti deyilən xüsusi qiymətlə almaq hüququ verir. Bir çox hallarda opsion ancaq konkret gündə icra oluna bilər. Belə opsion avroopsion adlanır. Digər hallarda opsion müəyyən gündə və ya ondan əvvəl icra oluna bilər. Belə opsion amerikan opsionu adlanır. |
| **384** | Opsion konversiyası | Option conversion | Опционная конверсия | Opsion koll, opsion put və səhmlərin müxtəlif kombinasiyalarda istifadə olunmasıdır. Səhmlərlə və istiqrazlarla manipulyasiya etməklə opsion put opsion kolla və əksinə çevrilə bilər. |

| | | | | |
|---|---|---|---|---|
| **385** | Opsion put | Put option | Опцион «пут» | Opsion put opsion kolla bənzəyir, ancaq söhbət aktivləri almaqdan deyil, satmaqdan gedir. *Bax: Opsion koll.* |
| **386** | Opsion varrantı | Option warrant | Опционный варрант | Alıcıya səhm, yaxud istiqraz almaq seçimi hüququ verir. |
| **387** | Opsion deltası | Option delta | Дельта опциона | "Koll" opsionunu köçürmək üçün zəruri olan səhmlərin miqdarı. Digər adı - *hedcləşmə əmsalı.* |
| **388** | Opsionların qiymətləndirilməsinin binominal metodu | Binomial method for option valuation | Биномиальный метод оценки опционов | Bu metodda fərz olunur ki, opsionun icra müddəti bir neçə dövrə bölünə bilər. Opsionun icra müddətinin çoxlu sayda dövrlərə bölünməsinin üstünlüyü ondan ibarətdir ki, aktivlərinin dəyərinin gələcək qiymətlərinin öyrənilməsinə kömək edir. Alternativ kimi Blək-Şols formulundan istifadə olunur. Blək-Şols formulası daha sürətlə və daha dəqiq nəticə versə də, bir çox hallarda opsionların qiymətləndirilməsinin yalnız binominal metodundan istifadə etmək olur.<br>*Bax: Optionların qiymətləndirilməsi üçün Blək-Şols formulu* |
| **389** | Optionların qiymətləndirilməsi üçün Blək-Şols formulu | Black-Scholes formula for options valuation | Формула Блэка-Шольца для оценки опционов | Blək-Şols formulu "koll" tipli sadə opsionlar üçün verilmişdir. Formula kifayət qədər mürəkkəbdir və belə interpretasiya oluna bilər: opsionun dəyəri deltanın opsionun qiymətinə hasili ilə bank borcunun fərqinə bərabərdir.<br>*Bax: Opsionların qiymətləndirilməsinin binominal metodu* |

| | | | | |
|---|---|---|---|---|
| **390** | Opsionun dəyəri | Option value | Стоимость опциона | Qiymətləri və miqdarı, alınma müddətləri əvvəlcədən razılaşdırılmış qaydada qiymətli kağızların və malların alışı-satışı. Opsionlar kontr-müqavilə olduqları üçün qüvvədə olduqları müddətdə tərəflər üzərinə müəyyən öhdəliklər qoyur. Opsionlar adətən qiymətli kağızların və daşınmaz əmlakın alqı-satışına tərtib olunur, amma istənilən mala və ya xidmətə tətbiq oluna bilər. |
| **391** | Opsionun ekvivalenti | Option equivalent | Эквивалент опциона | Adi səhmlərə qoyulan investisyaların və borcun kombinasiyası nəzərdə tutulur. Bu zaman ekvivalentin əldə edilməsinə çəkilən xalis xərc opsionun dəyərinə bərabər olmalıdır. |
| **392** | Optimal maliyyə planı | Optimal financial plan | Оптимальный финансовый план | Optimal maliyyə planının seçilməsinin elmi-nəzəri metodları təklif olunmamışdır və bu problemin həlli menecerlərin məharətindən və subyektiv mülahizələrindən asılıdır. |
| **393** | Ortamüddətli veksel | Medium-term note | Среднесрочный вексель | Ödəmə müddəti 1 ildən 10 ilə qədər olan veksellərdir. |
| **394** | Örtülmüş varrant | Covered warrant | Покрытый варрант | Varrant dedikdə, şirkətin öz səhmləri və ya istiqrazları hesabına buraxdığı uzunmüddətli opsion başa düşülür. Əgər şirkət öz riskini dıgər şirkətlərin səhmlərindən ibarər paket hesabına örtürsə, bu örtülmüş varrant adlanır. |
| **395** | Ödənmə gətirilmiş xalis gəlirin alternativi (əvəzi) kimi | Playback as alternative to | Окупаемость как альтернатива к чистой приведенной стоимости | Ödənmə qaydasına görə layihələrin seçilməsində ödənmə müddəti kiçik olan layihəyə üstünlük vermək lazımdır. Ödənmə müddəti məcmu proqnozlaşdırılan pul vəsaitləri axınının ilkin investisiyaların ödənməsi üçün zəruri olan illərlə ölçülür. |

| | | | | |
|---|---|---|---|---|
| **396** | Ödənmə qaydası | Payback rule | Правило окупаемости | Ödənmə qaydası layihələrin seçilməsində investisiyanın xərcini çıxartma müddəti əsas rol oynayır. Lakin bu qaydaya görə xərcini çıxartma müddəti ərzində pul vəsaitləri axını bərabər olan layihələr eyniqiymətlidirlər, sonrakı pul vəsaitləri axını isə nəzərə alınmır. Ona görə də xalis gətirilmiş dəyər qaydasından istifadə etmək daha məqsədəuyğundur. |
| **397** | Öhdəliklərin konsolidasiyası | Consolidation of bills | Консолидация обязательств (Сводных данных) | Vaxtı ötürülmüş veksellərin ödənməsi üçün borc, istiqraz. |
| **398** | "Ölü prokat" | Demis hire | Мертвый прокат | Gəmiçilikdə maliyyə lizinqi ölü prokat və ya boş gəminin çarteri adlanır. |
| **399** | Ötürülən depozit çeki | Depository transfer check | Депозитарный переводной чек | Pul vəsaitlərinin əldə edilməsini sürətləndirmək üçün bank əməliyyatlarının təmərküzləşdirilməsi (konsentrasiya) metodundan istifadə olunur. Alıcılar sirkətin yerli şöbəsinə ödəyirlər, şöbə öz növbəsində yerli bankın hesabına qəbz qoyurlar. Yığılmış vəsaitlər müntəzəm olaraq şirkətin əsas banklarının birinin hesabına köçürülür. Ötürülən depozit çeki birbaşa yerli bank tərəfindən şirkətin təmərküzləşmə bankında müəyyən hesaba yazılır. |

| | | | | |
|---|---|---|---|---|
| **400** | Planlaşdırma dövrü | Horizon planning | Горизонт планирования | Maliyyə planlaşdırılması 4 bənddən ibarət prosesdir:<br>1) şirkətin maliyyələşmə və investisiya imkanlarının analizi;<br>2) cari qərarların nəticələrinin öngörümü;<br>3) müxtəlif layihələr sırasında seçilmiş variantın əsaslandırılması;<br>4) şirkətin əldə etdiyi nəticələrin maliyyə planında nəzərdə tutulmuş məqsədlərlə müqayisəsi;<br>Uzunmüddətli layihələr üçün ayrılmış müddət planlaşdırma dövrü adlanır və adətən 5 və ya daha çox illəri əhatə edir. |
| **401** | Portfel | Portfolio | Портфель | Sifarişlərin, malların, aktivlərin, qiymətli kağızların çoxluğu. İqtisadiyyatın müxtəlif sahələrində tətbiq olunur. İqtisadiyyatda portfel yanaşması firmanın, fərdin sərəncamında olan varidatın strukturunun optimallaşdırılması, risklərin minimallaşdırılması üçün istifadə olunur. |
| **402** | Portfel nəzəriyyəsi | Portfolio theory | Теория портфеля | Portfel nəzəriyyəsinin müəllifi Harri Markoviçdir.<br>Bax: H.M. Markowitz. Portfolio selection //Journal of Finance. 7: 77-91. March 1952. O göstərmişdir ki, investorlar qiymətləri müxtəlif cür dəyişən səhmləri elə seçmək olar ki, portfelin gəlirliyinin standart kənarlaşması minimum olsun. H. Markoviç effektiv portfel konsepsiyanı yaratmışdır. Effektli portfel investisiyaların yüksək gəlirliyini və standart kənarlaşmanın kiçikliyini təmin edir. |
| **403** | Portfel riski | Portfolio risk | Риск портфельный | Səmərəli diversifikasiya olunmuş portfelin riski yalnız ona daxil olan qiymətli kağızların bazar riskindən asılıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **404** | Proyekt vekseli | Project note | Проектный вексель | ABŞ yaşayış və şəhər idarələri qiymətli kağızları üçün dövlət təminatı verilir. Bunlara proyekt vekselləri deyilir. |
| **405** | Proyektlərin qarşılıqlı təsiri | Project interaction | Взаимовлияние проектов | Kapital yatırımları üzrə hər bir qərar alternativ layihələrin seçilməsi ilə bağlıdır ki, buna layihələrin qarşılıqlı təsiri deyilir. Layihələrin qarşılıqlı təsirinin çox mürəkkəb təzahürləri ola bilər. Ən mühüm amillər aşağıdakılardır: 1) investisiya qoyuluşları üçün optimal müddətin seçilməsi; 2) uzunmüddətli və ya qısamüddətli istismar müddəti olan avadanlığın seçilməsi; 3) istimarda olan avadanlığın dəyişilməsi zamanının seçilməsi; 4) izafi güc xərclərinin seçilməsi; 5) yüklənmə faktorlarının dəyişkənliyi. |
| **406** | Pul bazarı | Money market | Денежный рынок | Qısamüddətli investisiyalar bazarı pul bazarı adlanır. Pul bazarının çox investisiyaları xalis diskont qiymətli kağızlarından ibarətdir, yəni bu qiymətli kağızlar üzrə faizlər ödənmir. İki cəhət pul bazarının qiymətli kağızları üzrə gəlirin hesablanmasını çətinləşdirir: 1) onlar diskont əsasında qiymətləndirirlər; 2) qiymətləndirmə bazası kimi 360-günlük müddətdən istifadə olunur. |
| **407** | Pul bazarında investisiyanın gəlirliyi | Money-market investment | Доходность инвестиций денежного рынка | Pul bazarında investisiyaların əksəriyyəti diskontlu qiymətli kağızlardır. Belə kağızlar üçün faiz ödənmir: gəlirliyi satış və alış qiymətləri arasındakı fərqlə müəyyən olunur. Pul bazarının qiymətli kağızlarının gəlirliyinin iki xüsusiyyəti var: əvvəla, onlar adətən diskontlu kağızlar olurlar, ikincisi, qiymətlənditmə bazası kimi 360-günlük dövr istifadə olunur. |
| **408** | Pul formasında dividendlər | Cash dividends | Дивиденды в денежной форме | Dividendlər adətən pul formasında ödənilir. Digər hallarda, səhm və ya məhsul formasında ödənilə bilir. |

| | | | | |
|---|---|---|---|---|
| **409** | Pul vəsaitləri büdcəsi | Cash budget | Бюджет денежных средств | Maliyyə menecerinin problemi pul vəsaitlərinin gələcək mənbələrinin proqnozu və onların istifadə variantlarını müəyyənləşdirməkdir. Belə proqnozlar iki cəhətdən əhəmiyyətlidir: birinci, menecerə gələcəkdə pul vəsaitlərinə olan qiymətləndirməyə imkan verir; ikinci, sonrakı maliyyə hadisələrini qiymətləndirmək üçün normativ və ya plan rolunu oynayırlar.<br>Pul vəsaitləri büdcəsinin hazırlanması üçün şirkətlər müxtəlif üsullardan, "korporativ modellərdən ", LOTUS 1-2-3 proqram paketindən və s. istifadə edirlər. Büdcə iki hissədən ibarət olur: pul vəsaitlərinin daxil olması və onların xərclənməsi. Daxilolmalar debitor borclardan və digər mənbələrdən (torpaq satışı, vergilərə görə kompensasiya, sığorta polisi və s.) yaranırlar. Xərclər isə təchizatçılara ödənişlər, əməkhaqqı, idarəçilik və digər xərclərə, kapital qoyuluşlarına, mənfəət vergisinə, faizlərin və dividendlərin ödənməsinə və s. bəndlərə bölünürlər.<br>Pul vəsaitləri büdcəsi aylıq və ya rüblük tərtib olunur. |
| **410** | Pul vəsaitlərinin artıqlığı | Cash surplus | Избыток денежных средств | Əgər şirkətin uzunmüddətli maliyyə ehtiyatları kapitala artan (kumulyativ) ehtiyacını üstələyirsə, onda pul vəsaitlərinin artıqlığı qısamüddətli investisiyalar üçün istifadə oluna bilər. Şirkətlər artıq pul vəsaitlərini adətən xəzinə veksellərinin və digər asan satılan qiymətli kağızların alınmasına sərf edirlər. Bu isə vergi ödəyicisi olan firmalar üçün ən yaxşı halda sıfır xalis gətirilmiş dəyər olan investisiya deməkdir. Ona görə də müntəzəm pul artıqlığı olan şirkətlər üçün uzunmüddətli maliyyə qoyuluşlarını kapitala kumulyativ ehtiyac səviyyəsinə endirmək məqsədəuyğundur. |

| | | | | |
|---|---|---|---|---|
| **411** | Pul vəsaitləri axını betası | Beta cash flow | Бета потока денежных средств | Risk - firmanın mənfəəti ilə bütün real aktivlərinin mənfəətləri arasındakı əlaqənin möhkəmliyindən asılıdır. Bu əlaqə ya mühasibat betası, ya da pul vəsaitləri axını betası ilə qiymətləndirilir. Bu betaların betanın real qiymətindən fərqi qiymətli kağızların gəlirliyi əvəzinə mühasibat mənfəətinin və ya pul vəsaitləri axınınn dəyişikliklərinin istifadə olunması ilə bağlıdır. |
| **412** | Pul vəsaitlərinin diskontlaşmış axını | Discounted cash flow | Дисконтированный поток денежных средств | Gətirilmiş dəyərin üstünlüyü onun additivliyindədir, yəni pul vəsaitləri axınının gətirilmiş dəyəri həmin axınların gətirilmiş dəyərlərinin cəminə bərabərdir. |
| **413** | Pul vəsaitlərinin dəyişməsinə nəzarət | Tracing changes in | Контроль за изменением Денежных средств | Pul vəsaitlərinin dəyişməsinə nəzarət pul vəsaitlərinin mənbələrini öyrənməklə həyata keçirilir:<br>1) uzunmüddətli borclar; 2) bölüşdürülməmiş mənfəətin yenidən investisiyası (reinvestisiya); 3) ehtiyatların bir hissəsinin satılması; 4) öz təchizatçılarından kredit hesabına alışların genişləndirilməsi.<br>Bu mənbələrin öyrənilməsi şirkətin pul vəsaitlərinin hansı səbəbdən artması kimi çox əhəmiyyətli suala cavab tapmağa imkan verir. Pul vəsaitlərinin mənbəyi və istifadəsi haqqındakı hesabatı sadələşdirmək üçün yalnız xalis dövriyyə kapitalını artıran və ya azaldan əməliyyatlarla kifayətlənmək olar. Belə kontekstdə dövriyyə kapitalı fondlar, bütün hesabat isə fondların mənbəyi və istifadəsi haqqında hesabat adlanır. |

| | | | | |
|---|---|---|---|---|
| **414** | Pul vəsaitlərinin etibarli/ nominal axınının diskont-lanşdırılması | Of safe / nominal cash flow | Дисконтирование Надежного / номинального потока денежных средств | Pul vəsaitlərinin etibarli axını nəzəri baxımdan riskin olmamağını göstərir. Praktiki baxımdan isə bu odeməkdir ki, öhdəliklərin yerinə yetirilməməsi və ya pul vəsaitləri axınının kəsilməsi riski cüzidir. Pul vəsaitlərinin axınının nominallağı o deməkdir ki, ödənişlərin məbləği təsbit olunmuşdur və inflyasiyadan asılı deyildir. |
| **415** | Real aktivlər | Real assets | Реальные активы | Real aktivlərə həm material aktivlər (məs.: maşın və avadanlıqlar, zavod və müəssisələr, ofislər), həm də qeyri - maddi aktivlər (texnologiyalar, patentlər və əmtəə nişanları) aiddirlər. |
| **416** | Reinvestisiya əmsalı | Plowback ratio | Коэффициент реинвестирования | Reinvestisiya əmsalı = 1 - dividendlərin ödənməsi əmsalı; |
| **417** | Requlyar pul dividendləri | Regular cash | Регулярные денежные дивиденды | Əgər dividendlər müntəzəm olaraq (aylıq, rüblük, yarımillik və ya illik) ödənilirsə və gələcəkdə də ödənilməsinə təminat verilirsə, buna requlyar pul dividendləri deyilir. |
| **418** | Rentabellik əmsalları | Profitability ratios, Efficient ratios | Коэффициенты рентабельности | Rentabellik əmsallarına aktivlərin dövretməsi əmsalı, xalis dövriyyə kapitalının dövretməsi əmsalı, xalis gəlir norması, ehtiyatların dövretməsi əmsalı, debitor borclarının ödənməsinin orta müddəti, rentabellik əmsalı və dividend ödənişləri əmsalı aiddirlər. |

| | | | | |
|---|---|---|---|---|
| **419** | Rentabelliyin mühasibat norması | Book rate of return | Бухгалтерская норма рентабельности (рентабельность) | Rentabelliyin mühasibat norması dedikdə, mühasibat mənfəətinin aşınmanın by və ya digər sxem üzrə hesablanmış dəyərinə olan nisbəti nəzərdə tutulur və aşağıdakı formula ilə verilir: $R_{oi} = \frac{C_i + (BV_1 - BV_0)}{BV_0}$; Burada: $R_{oi}$ - rentabelliyin mühasibat norması; $C_i$ – pul vəsaitləri axını; $BV_0$ – ilkin xalis balans dəyəri; $BV_1$– aşınmadan sonrakı xalis balans dəyəri. |
| **420** | Rentinq | Renting | Рентинг | Maşın və avadanlıqların sonradan satın almaq hüququ istisna olmaqla qısamüddətli icarəsi. |
| **421** | REPO sövdələşməsi | Repurchase agreement, REPO | Сделка РЕПО | Qiymətli kağızın alınması (satışı) - müəyyən müddətdən sonra əvvəlcədən müəyyənləşdirilmiş qiymətlə geri satılması (alınması) öhdəliyi ilə. |
| **422** | Report | Репорт | Report | *Bax: Deport.* |
| **423** | Revolver abunə sistemi | Revolving underwriting facility | Система револьверной подписки | Digər adı veksellərin alınması sistemidir. Avrokommersiya kağızlarının buraxılışı imzalanmamış veksellərin emissiyası adlanır. Yəni, bank firmanın qısamüddətli öhdəliklərinin satılmasına razılıq verir, lakin satılmamış vekselləri almaqdan imtina edir. |

| | | | | |
|---|---|---|---|---|
| **424** | Risk | Risk | Риск | Obyektiv olaraq nəticənin qeyri-müəyyənliyi ilə bağlı planlaşdırıldığından az gəlir əldə edilməsi və ya birbaşa itkilər təhlükəsi. Risk hər bir biznes fəaliyyətinə məxsusdur, lakin ən çox uzun dövr üçün nəzərdə tutulmuş qərarlarda özünü göstərir.<br>İqtisadi risklərin aşağıdakı növləri vardır: makroiqtisadi, mikroiqtisadi və maliyyə riskləri. Maliyyə riskləri öz növbəsində kredit, faiz dərəcələri, valyuta, portfel və hüquqi risklərə bölünürlər. |
| **425** | Risk arbitrajı | Risk arbitrage | Арбитраж риска | Şirkətlərin birləşməsi əməliyyatlarında yaranan möhtəkirlik. Möhtəkirçi rolunda riskdən tam qorunmuş və hedcləşmiş mövqedə duran investor çıxış edir. Bu zaman investor birləşmənin baş tutmaması ilə əlaqədar bütün riski öz üzərinə götürür. |
| **426** | Risk və portfel nəzəriyyəsi | Risk and theory of portfolio | Риск и теория портфеля | Fond bazarı riskli bazardır. Hər bir səhmə aid risk 2 hissədən ibarətdir: fərdi risk və bazar riski. İnvestorlar yaxşı diversifikasiya olunmuş portfel təşkil etməklə individual riski aradan götürə bilərlər. Tam diversifikasiya olunmuş portfelin riski yalnız bazar riskindən ibarətdir. Belə portfelin yaradılmasının nəzəri prinsipləri H.M.Markowitz tərəfindən işlənmişdir. H.M.Markowitz gəlirliyi yüksək, standart kənarlaşması (riski) aşağı olan portfelləri effektli portfellər adlandırmışdır. Belə portfellərin tapılması üçün xətti proqramlaşdırmanın bir variantı olan kvadratik proqramlaşdırmadan istifadə olunur. |

| | | | | |
|---|---|---|---|---|
| **427** | Risk-gəlir dilemması | Return-risk trade-off | Дилемма «риск – доход» | Maliyyə asılılığı (leveric) səhmdarların varidatına heç bir təsir etmir. Digər tərəfdən səhmlərin gözlənilən gəlirlik norması borc kapitalın məxsusi kapitala olan nisbətinə münasib artır. Lakin gözlənilən gəlirliyin hər hansı artımı riskin yüksəlməsi ilə müşayiət olunur və səhmdarların tələb etdikləri gəlirlik normasınının artmasına səbəb olur. |
| **428** | Riskin bazar qiyməti | Market-cost of risk | Рыночная цена риска | Bazar portfelinin riskinə görə gözlənilən mükafatın bazar gəlirinin dispersiyasına nisbətinə deyilir. |
| **429** | Riskli kapital | Venture capital | Венчурный (рисковый) капитал | Yeni yaranmış xüsusi şirkətlərə məxsusi kapital hesabına olan investisiyalar riskli (vençur) kapital adlanır. Bu kapitalın investoru rolunda sınaqdan keçməmiş şirkəti maliyyələşdirmək riskinə hazır olan vençur kapitalı sahəsində ixtisaslaşmış yoldaşlıqlar, investisiya şirkətləri və ya imkanlı vətəndaşlar çıxış edirlər. |
| **430** | Risksiz qoyuluş | Risk-free rate | Дисконтирование и безрисковая ставка | Standart kənarlaşmanın 0 olması deməkdir.<br>*Bax: standart kənarlaşma.* |
| **431** | Risksiz faiz dərəcəsi | Risk-free interest rate | Безрисковая процентная ставка | Standart kənarlaşması sıfır olan faiz dərəcəsi. Məs.: xəzinədarlıq veksellərinin faiz dərəcəsi. |

| | | | | |
|---|---|---|---|---|
| **432** | S&P 500 indeksi (SP500) | S&P 500 Index | Индекс S&P 500 (SP500) | Bu göstərici Standard & Poor's şirkəti tərəfindən ABŞ fond bazarının vəziyyətini təyin etmək üçün 500 səhmin qiymətləri əsasında hesablanmış göstəricidir. S&P şirkətinin analitikləri 500 səhmi elə qaydada seçirlər ki, fond birjasındakı və ümumiyyətlə, ABŞ iqtisadiyyatındakı vəziyyəti SP500 indeksi doğru-dürüst əks etdirə bilsin. Səhmlərin seçilməsində aşağıdakı prinsiplər əsas götürülür:<br>-səhmlər yüksək likvidliyə malik olamlıdırlar;<br>-səhmlər yüksək dərəcədə kapitallaşmış firma tərəfindən buraxılmalıdırlar;<br>-iqtisadiyyatın müxtəlif sahələri əks olunmalıdırlar. |
| **433** | Sabit artım tempi halları üçün düsturlar | Constant-growth – formulas | Формулы для случаев постоянного темпа роста | İstiqrazların və səhmlərin gətirilmiş dəyərlərinin sabit artım tempi halları üçün düsturları dedikdə, dividend gəlirinin norması, yenidən investisiya (reinvestisiya) əmsalı, məxsusi kapitalın rentabelliyi, dividendlərin artım tempi, bazar kapitalizasiyasının dərəcəsi düsturları nəzərdə tutulur. |
| **434** | Sadə faiz | Simple interest | Простой процент | Fazilər sadə və mürəkkəb olmaqla 2 növə bölünürlər. Mürəkkəb faizlər hesablanmış faizlərin reinvestisiyasını nəzərdə tutur və onların da faizi hesablanır. Sadə faizlər isə hesablanmış faizləri nəzərə almır. |
| **435** | Sadə veksel | Promissory note | Простой вексель | Veksellərin 2 növü var: sadə və köçürmə. Sadə veksel öhdəliklərin vekseli verən tərəfindən ödənilməsini nəzərdə tutur. |
| **436** | Satış gəlirliliyi | Profitability, Return on sales | Рентабельность релизации | *Bax: Xalis mənfəət norması.* |

| | | | | |
|---|---|---|---|---|
| **437** | Sekyuritizasiya | Securitization | Секьюритизация | Bank sindikatlarının fəaliyyətinə rəğmən bazarda avrodollar kreditləri əldə etmə cəhdləri. Sekyuritizasiya avrodollar bazarında 2 formada gerçəkləşir: 1) dəyişən dərəcəli istiqrazlar buraxmaq; 2)veksellərin emissiyası. |
| **438** | Serial istiqraz vərəqələri | Serial bonds | Серийные облигации | Serial istiqrazlar borc alana onları açıq bazarda geri almaq hüququ vermir, borc alan bu istiqrazları nominal qiymətlərlə ödəməlidir. |
| **439** | Sertifikat | Certificate | Сертификат | Setifikatlar müxtəlif şəkildə mövcud ola bilər.<br>1) müəyyən faktı təsdiqləyən yazılı şəhadətnamə; 2) dövlət istiqrazlarının növü; 3) istiqrazda iştirak haqqında və depozit almaq hüququ barədə yazılı şəhadətnamə. |

| | | | | |
|---|---|---|---|---|
| **440** | Səsvermə, səhmdar | Voting, stockholder | Голосование, акционер | Səhmdar - səhmdar cəmiyyətin üzvü, səhm sahibidir. Gəliri dividendlər kimi əldə edir. Səhmdarın hüquq və vəzifələri qanunvercilik aktları və səhmdar cəmiyyətin nizamnaməsi ilə müəyyən olunur. Bütün səhm sahibləri şirkətin mülkiyyətçiləridirlər. Onlar şirkətin paylanmaq üçün ayrılmış dəyərli obyektləri əldə etmək üçün imtiyazlı hüquqa və şirkətin fəaliyyətinə nəzarət hüququna malikdirlər. Praktikada nəzarət funksiyaları səsvermə hüququ kimi 2 formada gerçəkləşir: 1) şəxsi səsvermə; 2) direktorlar şurasının yaradılması zamanı səsvermə. Şirkətlərin birləşməsi yalnız səhmdarların razılığı ilə mümkündür.<br>Əgər şirkətin qeydiyyatı sənədlərində qərarların səs çoxluğu ilə qəbulu nəzərdə tutulmuşsa, onda hər bir direktor ayrıca seçilir və səhmdarın səslərinin sayı onun malik olduğu səhmlərin miqdarı ilə müəyyən olunur. Əgər qeydiyyat sənədlərində toplayıcı səsvermə metodu nəzərdə tutulmuşsa, onda bütün direktorlar ümumi səsvermə ilə seçilir və səhmdar öz arzusu ilə bütün səslərini bir direktora verə bilər. |
| **441** | Səhmlər | Shares, Stock | Акции | Səhmdar cəmiyyətin kapitalındakı payın məbləğini göstərən qiymətli kağız. Sahibinə aksioner cəmiyyətinin mənfəətinin bir hissəsini dividend şəklində almağa imkan verir. Səhmdə göstərilən məbləğ onun nominal dəyərini ifadə edir. Qiymətli kağızlar bazarında tələb və təklifdən asılı olaraq bazar kursu ilə satılır. |

| | | | | |
|---|---|---|---|---|
| **442** | Səhmlər üzrə cari dividendlərə ekvivalent olan faizlə gəliri verən istiqraz vərəqələri | Base yield bonds | Облигации с процентным доходом, эквивалентным текущим дивидендам по акциям | Səhmlər üzrə cari dividendlərə ekvivalent olan faizlə gəliri verən və 30 il üçün nəzərdə tutulmuş istiqraz vərəqələri. |
| **443** | Səhmlərin alınması | Repurchase of stock, Share repurchase | Выкуп акций | Səhmlərin alınması dividendlərin pul şəklində ödənilməsinin alternativi kimi tətbiq olunur. Səhmlərin alınması üç üsulla gerçəkləşir: 1) səhmlərin açıq bazarda alınması. 2) müsabiqə yolu ilə bütün səhmdarlardan, yaxud xırda səhmdarlardan alınması. Adətən firma investisiya bankının xidmətlərindən istifadə edir və banka müvafiq komission ödəyir; 3) səhmlərin iri səhmdardan alınması. Bu zaman "yaşıl şantajdan" istifadə olunur, yəni ələ keçirilməyə düşməncəsinə məcbur edilən şirkət namizəd şirkətin aldığı bütün səhmləri almağa çalışır. |
| **444** | Səhmlərin betası | Beta of stock | Бета коэффициент акций | Müəyyən dövr üçün şirkətin səhmlərinin gəlirliyinin bazar gəlirliyinə nisbəti.<br>*Bax: Beta əmsalı.* |

| | | | | |
|---|---|---|---|---|
| **445** | Səhmlərin geri alınması | Repurchase | Выкуп акции | Şirkət öz səhmdarlarına pul ödənişlərini 2 formada gerçəkləşdirir: dividendlərin paylanmsı və ya səhmlərin geri alınması. Səhmlərin geri alınması 3 üsulla baş verir: 1) şirkət öz səhmlərini açıq bazarda geri alır; 2) bütün səhmdar və yaxud yalnız kiçik səhmdarlardan müsabiqə formasında. Bu halda şirkət adətən alışın keçirilməsi üçün investisiya bankından istifadə edir və ona komissiyon haqqı ödəyir; 3) iri səhmdardan razılaşma əsasında alınması. Adətən, belə zərurət şirkətin başqası tərəfindən zəbt edilməsi təhlükəsi olduqda yaranır. |
| **446** | Səhm formasında dividendlər | Dividends stock | Дивиденды в форме акций | *Bax: Pul formasında dividendlər* |
| **447** | Səhmlərin xırdalanması və bazar effektivliyi | Stock split and market efficiency | Дробление акций и рыночная эффективность | Səhmlərin sayının artması ya dövriyyədə olan səhmlərin parçalanması, ya da səhmlərin dividendlər şəklində bölünməsinin nəticəsidir. Səhmlərin xırdalanması bir neçə səbəbdən sərfəlidir: səhmlərin dividendlər şəklində bölüşdürülməsi səhmdarlara inflasiyadan ağlabatan müdafiə ilə təmin edir və onlara inkan verir ki, balans dəyərinin artmasında iştirak etsinlər. Digər tərəfdən dividendlərin səhm şəklində bölüşdürülməsi investorlara həm daha yüksək gəlir verir, eyni zamanda şirkətin gözlənilən artımın maliyyələşdirilməsi üçün pul vəsaitlərini qorumağa imkan verir. Daha bir səbəb ondan ibarətdir ki, səhmlərin xırdalanması səhmdarlara səhmlərin sonrakı xırdalanmalarını güman etməyə imkan verir. Effektli bazarda investorlar şirkətin pul vəsaitləri axınında ancaq öz paylarında maraqlı olurlar. |

| | | | | |
|---|---|---|---|---|
| **448** | Səmərəli kapital bazarı | Efficients capital markets | Эффективные рынки капиталов | Səmərəli kapital bazarında qiymətli kağızların kursu emittentlər barəsindəki informasiyanı dəqiq əks etdirir və hər hansı yeni əlçatan informasiyaya çevik reaksiya verir. Əlçatan informasiyanın necə başa düşülməsindən asılı olaraq səmərəliliyin 3 formasını fərqləndirirlər: 1) zəif formasında nəzərdə tutulur ki, qiymətlər əvvəllər qiymətli kağızların müəyyən olunmuş kurslarını əks etdirir; 2) orta formasında hesab olunur ki, qiymətlər bütün elan olunmuş informasiyanı əks etdirir; 3) güclü forması isə əldə olunması mümkün olan ümüumiyyətlə bütün informasiyanın qiymətlərdə əks olunmasını tələb edir.<br>Maliyyə baxımından səmərəli kapital bazarında ixtiyari qiymətli kağızın bazarda üstünlük təşkil edən qiymətlərlə alınması və ya satılması heç vaxt müsbət xalis gətirilmiş dəyər yaratmır. |
| **449** | Sıfır kuponlu istiqraz vərəqələri | Zero coupon bonds | Облигации с нулевым купоном | Bu istiqraz vərəqələri həmçinin xalis diskont isiqrazlar adlanırlar və nominal dəyərinə nisbətən güzəştlə (diskontla) satılırlar. İnvestor qiymət artımı formasında xeyir götürür. Sıfır kuponlu istiqraz vərəqələri üçün faizlər ödənilmir və bütün xeyir ancaq qiymət artımından yaranır. |
| **450** | Sığorta | Insurance | Страхование | Təbii fəlakətlər, bədbəxt hadisələr və nəzərdə tutulmuş müəyyən hadisələrin baş verməsi ilə əlaqədar ödənişlərin aparılması üçün sığorta fondunun yaradılmasına yönəldilmiş tədbirlər sistemi. Sığortalamada fiziki və hüquqi şəxslərlə sığorta təşkilatları arasında hüquqi münasibətlər yaranır. Sığorta könüllü və ya icbari formalarda olur. |

| | | | | |
|---|---|---|---|---|
| **451** | Sifariş haqqında memorandum | Offering memoranda | Меморандум о размещении | İstiqrazların buraxılışı haqqında razılaşmanın nümunəsi qeydiyyat sənədləri paketinə daxildir. Onun əsas müddəaları emissiyanın prospektində sadalanır. Əgər istiqraz xüsusi qaydada(yəni, sadə veksel və ya borc qəbzi şəklində) buraxılıbsa, onda emissiya prospektinə uyğun olaraq memorandum tərtib olunur. |
| **452** | Sindikat | Syndicate | Синдикат | Monopolist birləşmənin təşkilatı forması. Sindikata daxil olan şirkətlər kommersiya satış sərbəstliklərini itirirlər, amma istehsal və hüquqi müstəqilliklərini saxlayırlar. Başqa sözlə, sindikatda məhsulun satışı və sifarişlərin bölüşdürülməsi mərkəzləşdirilmiş olur. Bir çox ölkələrdə iqtisadiyyatın inkişafını tormozlayan sindikatların yaranmasına qarşı qanunlar qəbul edilmişdir. |
| **453** | Sonrakı maliyyələşmə imkanı | Follow-on investment opportunity | Возможность последующего инвестирования | Şirkətlər layihələrin sonrakı maliyyələşmə imkanını öyrənərkən real opsionların qiymətləndirilməsinin nəzəri prinsiplərinə arxalanırlar. Onlar mənfi xalis gətirilmiş dəyəri olan layihələri gerçəkləşdirən zaman layihənin pil vəsaitləri axınınından savayı gələcək layihələr üçün "koll" opsionu əldə edirlər. Cari investisiyalar gələcəkdə əlverişli imkanların yaranmasına səbəb ola bilər. |
| **454** | Spot | Spot | «спот» | Valyutanın birbaşa və təxirəsalınmaz dəyişmə kursu (adətən 2 gün ərzində) |

| | | | | |
|---|---|---|---|---|
| **455** | Spred (yayılma) | Spread | Спред | 1) bu və ya digər malın və ya qiymətli kağızların qiymətlərinin amplitudası; 2) emittentin ödədiyi qiymətlə investorun ödədiyi qiymət arasındakı fərq; 3) iki və daha çox opsion və ya fyuçers kontraktların siyahı üzrə yerləşmələri; 4) təchizat müddətlərindən başqa bütün göstəriciləri eyni olan fyuçers kontraktlarının qiymət fərqləri. |
| **456** | Ssudanın verilməsində payçı iştirakı | Participation loan | Долевое участие в выдаче ссуд | Pul bazarının iri bankları borc haqqında ödəyə bildiklərindən daha çox təkliflərlə üzləşirlər. Kicik banklarda isə əksinə olur. Nəticədə lider banklar borc vermək haqqında razılaşır, sonra isə həmin razılaşmaları digər maliyyə institutlarına satırlar. Bu bank kreditləri ikinci əl bazarında aktivləşməyə səbəb olur. Kreditlərin belə satışı iki formada olur: öz qiyməti ilə başqasına satmaq, payçı iştirakı. Birinci halda, kreditlərin bir hissəsi borc alanın razılığı ilə digər borc verənə ötürülür; ikinci halda, lider bank "iştirakçı sertifikatını" təmin edir, yəni ssudanın bir hissəsinin ödəyəcəyi barədə öhdəlik götürür. Bu halda, borc götürənin bu razılaşmadan xəbəri olmaya da bilər. |
| **457** | Standart kənarlaşma | Standart deviation | Стандартное отклонение | Ehtimal nəzəriyyəsində təsadüfi kəmiyyətlərin əsas xarakteristikalarındandır. Standart kənarlaşma təsadüfi kəmiyyətin dispersiyasının kvadrat köküdür:<br><br>$\sigma = \sqrt{Dx}$;<br>Burada:<br>$\sigma$ - təsadüfi kəmiyyətin standart kənarlaşması;<br>$D$ - təsadüfi kəmiyyətin dispersiyası;<br>$x$ - təsadüfi kəmiyyətdir.<br>*Bax: Dispersiya, kovariasiya.* |

| | | | | |
|---|---|---|---|---|
| **458** | Sürətləndirilmiş amortizasiya | Accelerated depreciation | Ускоренная амортизация | Amortizasiya məbləğinin əvvəlcədən vergiyə düşən gəlirdən çıxılması. Qanunvericilik vergi qalxanından istifadə edə bilmək üçün sürətləndirilmiş amortizasiyadan istifadə etməyə imkan verir. Yeganə məhdudiyyət alternativ minimal vergidir. |
| **459** | Strip istiqraz vərəqələri | Stripped bonds | «Голые» («стрип») облигации | Separate Trading of Registered Interest and Principal of Securities - ABŞ Xəzinədarlığının müddətindən ödənilmək hüququ olmayan təminatlı nominal qiymətlərlə ayrıca satılan qiymətli kağızları. |
| **460** | Şəxsi müflisləşmə | Personal bankruptcy | Персональное банкротство | Əgər fiziki şəxs öz öhdəliklərini yerinə yetirə bilmirsə, onda kreditorlar məhkəməyə müraciət edə bilirlər. Əgər borclunun girovu varsa, onda kreditor girovun sahibinə çevrilir və onu sata bilər. Əksər hallrda kreditor borclunun əmlakına həbs qoyulmasını tələb edə bilər və borcun borclunun əməkhaqqından tutulmasına nail ola bilər. Borclu ödəmə qabiliyyəti olmadığı halda iflas prosesinə məruz qalır. Borclu o halda ödəmə qabiliyyəti olmayan sayılır ki, bunu özü təsdiq etsin, yaxud məhkəmə və ya kreditorlar müəyyən etsin ki:<br>a) borclu kreditorun irəli sürdüyü qanuni ödəmə tələbini bu cür tələb verildikdən sonra iki ay ərzində yerinə yetirməmişdir və ya;<br>b) borclu qanunvericiliyə müvafiq surətdə həyata keçirməli olduğu ödənişləri vaxtı çatdıqca həyata keçirməyə qadir deyildir və ya;<br>c) borclu öz borclarını vaxtı çatdıqca ödəməyə qadir deyildir. |
| **461** | Şərti satış üçün müqavilə | Conditional sales contract | Контракт на условную продажу | Bu müqvilə üzrə satıcı alıcıya satdığı və verdiyi mülkiyyət üzərində bütün məbləğin ödənilməsinə qədər mülkiyyət hüququnu özündə saxlayır. |

| | | | | |
|---|---|---|---|---|
| **462** | Şərti vergitutma sistemi | Imputation tax system | Система условного налогообложения | Bəzi ölkələrdə (məs: Avstraliya) səhmdarların gəlirləri 2-qat vergitutmadan qorunulur. Belə ki, səhmdarlar dividendlərə görə vergidən şirkərin ödədiyi korporativ vergidəki paylarını çıxırlar. Bu sistem şərti vergitutma sistemi adlanır. |
| **463** | Şirkətin alınması | Buy-out | Выкуп (компании) | Digər şirkətin alınması investisiya qoyuluşu hesab oluna bilər, ona görə də uzunmüddətli yatırımlar barədə qərar vermənin əsas prinsipləri tətbiq oluna bilər. Əlbəttə, bu əməliyyat səhmdarların varlanmasına səbəb olduqda məqəsədəuyğundur, lakin şirkətlərin birləşməsinin qiymətləndirilməsi müxtəlif çətinliklərlə üzləşir: 1) xərclər və sərfəlilik mütləq diqqətlə müəyyənləşdirilməlidir; 2) birləşmə vaxtı vergilər, hüquq və mühasibatla bağlı məxsusi problemlər yarana bilərlər; 3) düşməncəsinə birləşmələrdə, yəni iştirakçılar könüllülük əsasında birləşə bilməyəndə, hücüm və müdafiə ilə bağlı taktiki üsullardan istifadə olunacağı nəzərə alınmalıdır; 4) birləşmənin səbəbləri, eləcə də hansı tərəfin xeyir görəcəyi, hansı tərəfin zərərə düşəcəyi öyrənilməlidir. |
| **464** | Şirkətin istiqrazlar hesabına alınması | Buy-out leveraged | Выкуп за счет займа | Şirkətin istiqrazlar hesabına alınması iki əlamətlə fərqlənir: 1) alış qiymətinin əsas hissəsi "zibil" öhdəliklərin, yəni reytinqi investisiya reytinqindən aşağı olan borcların hesabına olur; 2) bu yolla alınan şirkətin səhmləri fond bazarında açıq satışa çıxarılmır. |

| | | | | |
|---|---|---|---|---|
| **465** | Şirkətin menecerlər tərəfindən alınması | Management buy-out | Выкуп менеджерами | Şirkətin istiqrazlar hesabına alınmasının əsas xüsusiyyətlərindən biri odur ki, satın alınmış şirkərin səhmləri fond bazarında açıq satışda olmur və şirkətin məxsusi kapitalı institusional investorlar qrupuna məxsus olur. Əgər alış zamanı bu qrupa menecerlər rəhbərlik edirlərsə, belə alqı-satqı şirkətin menecerlər tərəfindən alınması adlanır. |
| **466** | Şirkətin müflisləşməsi | Business bankruptcy | Банкротство компании | Şirkətin müflisləşməsi, adətən, uzun müddət xərclərin gəlirlərdən artıq olması və dəymiş zərərin aradan götürülməsi üçün heç bir mənbənin olmaması səbəbindən olur. Rəsmi olaraq, şirkət məhkəmənin qərarından sonra müflis hesab olunur. |
| **467** | Tabe edilən borc | Subordinated debt | Субординированный долг | Tabe edilən borc öhdilikləri ödəmək qabiliyyətini itirmiş firmaya borc tələbləri verildikdə kredit borclardan sonra ödənilir. Beləliklə, tabe edilən borc statusuna görə "kiçik" sayılır və yalnız "böyük" kreditorların bütün tələbləri təmin olunduqdan sonra ödənilir. |
| **468** | Tam ədədli proqramlaşdırma (“sıfır-bir”) | Integer programming | Целочисленное программирования («ноль – один») | Şirkətin səhmdarların varlanması xalis gətirilmiş dəyəri müsbət olan hər bir layıhənin qəbul edilməsi ilə artır. Lakin əgər invesitisiya proqramlarının mümkünlüyünə məhdudiyyətlər varsa, layihələrin seçilməsi üçün elə metod tapılmalıdır ki, o, şirkətin məhdud ehtiyatları çərçivəsində maksimal xalis gətirilmiş dəyəri təmin edə bilsin. Belə metodlardan biri xətti proqramlaşdırmadır. Belə məsələ xüsusi kompüter proqramı vasitəsi ilə həll olunur. Əgər layihələrin parçalanması mümkün deyilsə və nəticələrin tam ədədlərlə ifadə olunması tələb olunursa, onda xətti proqramlaşdırmanın tam ədədli proqramlaşma (“sıfır-bir”) deyilən formasından istifadə olunur. |

| | | | | |
|---|---|---|---|---|
| **469** | Tam ödənişli lizinq | Full – payout Lease | Лизинг с полной выплатой | *bax: maliyyə lizinqi* |
| **470** | Tamamlanmanın təminatı | Completion quarentee | Гарантия завершения | Borcun ödənilməsi üçün ciddi təhlükələrdən biri layihənin gerçekləşməsinin yubanması və ya texniki cəhətdən qeyri mümkünlüyüdür. Ona görə də bir sıra hallarda borc ana şirkət və ya sığorta şirkəti tərəfindən verilən tamamlanmanın təminatı olan səhm şəklində əldə olunur. |
| **471** | Tamamlama üzrə istiqraz borcu | Completion bonding | Облигацинный займ под завершение | Əksər hallarda layihənin maliyyələşməsi birbaşa borc şəklində olur. Layihənin yubadılması borcun vaxtında ödənilməsi üçün maneə ola bilər. Ona görə də istiqrazların müəyyən kateqoriyasını ana şirkət və ya sığorta şirkəti tərəfindən buraxılan tamamlama üzrə təminatı olan istiqraz borcu vərəqələri təşkil edir. |
| **472** | Tender təklifi | Tender offer | Тендерное предложение | Şirkətlərin birləşməsi prosesində birləşmənin təşəbbüskarı olan şirkət iki taktikadan istifadə edə bilər: 1) birləşmənin hədəfi olan şirkətin səhmlərini birbaşa və ya tender təklifi ilə səhmdarlardan ala bilər; 2) birləşmənin hədəfi olan şirkətin səhmdarlarının bir hissəsinin müdafiəsindən istifadə edərək səhmdarların illik ümumi iclasında etibarnamələr vasitəsi ilə özünün birləşmə təklifini qəbul etdirə bilər. |
| **473** | Təcavüzkar artım | Aggressive growth | Агрессивный рост | Şirkətin biznes planlarından biridir. İrihəcmli maliyyə qoyuluşlarını, yeni növ məhsulların yaradılmasını, əldə olan bazarda iştirakının genişlənməsini və yeni bazarların zəbt olunmasını əks etdirir. |

| | | | | |
|---|---|---|---|---|
| **474** | Tədavül opsionu | Traded option | Обращающийся опцион | Opsionlar firmaya gələcəkdə əvvəlcədən razılaşdırılmış qiymətlərlə aktivlərə alıb-satmaq hüququ (bu hüquq məcburi xarakter daşımır) verir. Firmalar opsionları başqa qiymətli kağızlarla uzlaşdıraraq və ya onlardan asılı olmadan dövriyyəyə buraxırlar. Digər tərəfdən ixtisaslaşmış opsion birjalarında iri həcmli opsion sövdələşmələri gerçəkləşir. Opsion müqavilələri bağlamaqla adi səhmləri almaq və ya satmaq mümkündür. |
| **475** | Tədavül səhmi | Outstanding share | Обращающаяся акция | Buraxılmış və investorların əlində olan səhmlərə tədavül səhmləri deyilir. Firmanın buraxdığı, lakin şirkətin xəzinədarlığında olan səhmlərə tədavüldə olmayan səhmlər deyilir. |
| **476** | Təkrar ümumi təklif | Secondary public offering | Вторичное публичное предложение | Yeni səhmlərin buraxılması hesabına şirkətə əlavə pul vəsaitlərinin cəlb edilməsi ilkin ümumi təklif adlanır, vençur kapitalistlərin və təsisçilərin əldə olan səhmləri satmaq cəhdləri isə təkrar ümumi təklif adlanır. |
| **477** | Tələb elastikliyi | Demand elasticity | Эластичность спроса | Tələb elastikliyi malın qiymətinin dəyişməsinin əlavə hər faizinə görə tələbin nisbi dəyişməsi ilə ölçülür. Əgər malın yaxşı əvəzedicisi varsa, onda elastiklik mənfi olacaq, yoxdursa elastiklik sıfıra yaxın olacaq. Nəzərə almaq lazımdır ki, məcmu təklif əyrisinə təkcə tələb elastikliyi deyil, həmçinin kondidensial informasiya gümanı da təsir edir. |

| | | | | |
|---|---|---|---|---|
| **478** | Təmin olunmuş borclar | Secured loans | Обеспеченные займы | Banklar qısamüddətli ssuda verdikdə likvidli aktivləri, məsələn, debitor borcları, ehtiyatları və ya qiymətli kağızları təminat kimi tələb edə bilər. Əgər bank borcun əvəzində debitor borcları girov (təminat) kimi qəbul edibsə, bank borcları özü borclulardan yığa bilər, borcun yığıla bilməyən hissəsini kliyent özü ödəməlidir.<br>Əgər bank borcun əvəzində ehtiyatları təminat (girov) kimi qəbul edirsə, onda ehiyatın yerləşdiyi anbarda verilən şəhadətnamə (sənəd) banka verilir. Bu zaman anbar sənədində ancaq malın yerləşdiyi yer və onun miqdarı göstərilıir. Malın keyfiyyəti və sığorta halları barədə borclu tərəfindən kreditora təminat verilməlidir. |
| **479** | Təmin olunmuş etibarli istiqraz vərəqəsi | Collateral trust bonds | Обеспеченные трастовые облигации | İpoteka istiqrazlarına oxşayır, amma şirkətin sərəncamında olan qiymətli kağızlarla təmin olunurlar. Adətən holdinq şirkətlər tərəfindən buraxılır, bu şirkətlərin aktivləri törəmə şirkətlərin səhmlərindən ibarət olur. |
| **480** | Təsbit edilmiş faiz dərəcəsi | Fixed interest rate | Фиксированная процентная ставка | Uzunmüddətli borc öhdəliklərinin emissiyası vaxtı təyin olunmuş faiz və ya kupon ödənişləri təsbit edilmiş faiz dərəcəsi adlanır. |
| **481** | Törəmə (maliyyə) alətlər | Derivative instruments | Производные (финансовые) инструменты | Törəmə (maliyyə) alətlərinə fyuçerslər, forvard müqavilələri, svoplar və opsionlar aiddirlər. Bunlar hedcləşdirmədə istifadə olunurlar. |

| | | | | |
|---|---|---|---|---|
| **482** | Transaksiya xərcləri | Transaction costs | Трансакционные издержки | Transaksiya xərcləri mübadilə prosesində mülkiyyət hüququnun bir tərəfdən digərinə verilməsi ilə baglı olan xərclərdir. İlk dəfə iqtisadi ədəbiyyatda transaksiya xərcləri termini Nobel mükafatı laureatı R.Kouz tərəfindən işlədilmiş və müasir institusianal nəzəriyyədə geniş tətbiqini tapmışdır. Transaksiya xərclərinin 5 əsas növü mövcuddur:<br>1. İnformasiyanın əldə edilməsi ilə bağlı xərclər;<br>2. Müqavilələrin və danışıqların aparılması ilə bağlı xərclər;<br>3. Qiymətləndirmə və gözləmə effekti ilə bağlı xərclər;<br>4. Mülkiyyət hüququnun qorunması ilə bağlı xərclər;<br>5. Opportunist fəaliyyətlə bağlı xərclər. |
| **483** | Transfer qiymət | Transfer price | Трансфертная цена | Bir çox dövlətlərin və beynəlxalq vergi planlaşdırılmasında istifadə olunan termindir. Qarşılıqlı asılılığı olan şəxslər arasında sövdələşmə və ya şirkətlərin altqurumları arasında mallarla və ya əqli mülkiyyətlə mübadiləsində istifadə olunan qiymət deməkdir. Transfer qiymətlərin vergi öhdəliklərinin azaldılması məqsədi ilə tətbiq edilməsi transfer qiymət yaranması adlanır. Transfer qiymətlər bazar qiymətlərindən ciddi surətdə fərqləndikdə, vergi orqanları vergi qanunvericiliyinin vergilərdən yayınmaya qarşı tələblərinə uyğun olaraq və müvafiq proceduralara əməl edərək vergilərin şərti metodlarla hesablanmasını tətbiq edə bilərlər. |

| | | | | |
|---|---|---|---|---|
| **484** | Transfer qiymətləndirmə | Transfer pricing | Трансфертное ценообразование | Qarşılıqlı asılı tərəflər arasında aparılan əməliyyatlarda qiymətlərin bazar qiymətlərinə münasibətdə fərqli müəyyən edilməsi transfer qiymətləri adlanır. Transfer qiymətləri bazar qiymətlərindən aşağı və ya yuxarı ola bilər. Qarşılıqlı asılı tərəflər arasında əməliyyat əsasən onların daxil olduğu transmilli şirkətlər tərəfindən aparılır. Əgər nəzərə alsaq ki, dünya ticarətinin 60-70%-i transmilli şirkətlərin payına düşür, onda bu üsulla vergilərdən yayınmanın böyük miqdarda olması şübhə doğurmur. Transfer qiymətləri əsasən qarşılıqlı surətdə asılı olan şəxslər tərəfindən həyata keçirilir<br>*Bax: Transfer qiymət.* |
| **485** | Trast fondu | Trust fund | Трастовый фонд | Anqlosakson hüquq sistemində geniş şəkildə tətbiq olunan etimadlıq (etibarlıq) fondudur. Bu sistemə uyğun olaraq trast fonduna verilən mülkiyyət onun mülkiyyəti hesab olunur və vergitutma baxımından trast fondunu təsis edən hüququ və ya fiziki şəxsin mülkiyyəti kimi baxılmır. Bir çox hallarda bu cür trastların təsis edilməsi vergidən yayınmağa şərait yaradır və vergi risklərini artırır. |
| **486** | Uzun hedc | Long hedge | «Длинный» хедж | Riski azaltmaq üçün alıcı fyuçers satırsa, bu "gödək" hedc adlanır. Riski azaltmaq üçün satıcı fyuçers alırsa, bu "uzun" hedc adlanır.<br>*Bax: Qısa hedc.* |
| **487** | Uzunmüddətli aktivlər | Long –lived, valuing | Долгосрочные активы | Bir il və daha çox dövr ərzində pul vəsaitlərinin axınını təmin edən aktivlər. |

| | | | | |
|---|---|---|---|---|
| **488** | Uzunmüddətli aktivlərin dəyərləndirilməsi modeli | Capital asset pricing model | Модель оценки долгосрочных активов | Uzunmüddətli aktivlərin dəyərləndirilməsi modelinin əsas mahiyyəti risklərin diversifikasiya oluna bilən və diversifikasiya oluna bilməyən risklərə bölünməsidir. Əsas risklər diversifikasiya oluna bilməyən risklərdir, çünki diversifikasiya oluna bilən risklər investorlar tərəfindən aradan götürülə bilərlər. Diversifikasiya oluna bilməyən risklər beta əmsalı vasitəsi ilə müəyyən olunurlar və investisiyaların dəyərinin bütün aktivlərin məcmu dəyərindən asılılıq dərəcəsini xarakterizə edirlər. |
| **489** | Uzunmüddətlı və ya qısamüddətli qurğuların istismarı | Long-lived versus short-lived equipment | оборудование с долглсрочным или краткосрочным периодом эксплуатации | Uzunmüddətlı və ya qısamüddətli qurğuların istismarı olan qurğuların seçilməsi müntəzəm illik xərclərin minimallaşdırılması ilə bağlıdır. Müntəzəm illik xərclər isə xərcləri gətirilmiş dəyərinin anuitet əmsalına nisbətinə bərabərdir. |
| **490** | Uzunmüdətli qoyuluşlar büdcəsi | Capital budget | Бюджет долгосрочных вложений (капитальный бюджет) | İri şirkətlər kapital qoyuluşları prosesində öz filialları və müəssisələri üçün illik uzunmüdətli qoyuluşlar büdcəsini tərtib edirlər. Son nəticədə büdcə qarşıdan gələn il üçün planlaşdırılan, eləcə də əvvəlki illərdən yarımçıq qalmış layihələrin siyahısından ibarətdir. Adətən, layihələr dörd qrupa ayrılırlar: 1) təhlükəsizlik texnikası və ekologiya ilə bağlı xərclər; 2) İstimar və ya istehsal xərclərinin azaldılması, yəni avadanlığın dəyişilməsi ilə bağlı xərclər; 3) Mövcud istehsal imkanlarının artıtılması; 4) Yeni məhsullara və ya müəssisələrə qoyulan investisiyalar. |

| | | | | |
|---|---|---|---|---|
| **491** | Uzunmüddətli maliyyə planlaşdırması | Lonq-time | Долгосрочное финансовое планирование | Uzunmüddətli maliyyə planlaşdırması 5 və ya 10 illik horizont üzrə planlaşdırılır. Uzunmüddətli maliyyə planlaşdırması adətən uzunmüddətli investisiyalar və ya kapitalın strukturu barəsində olan qərarlara aiddirlər, yəni uzunmüddətli aktivlər və öhdəliklərlə bağlıdırlar. Belə planlaşdırma, adətən, nisbətən kiçik investisiya layihələrinin vahid layihəyə çevrilməsi yolu ilə yaranır və hər bir layihə üzrə aqreqat investisiya göstəricilərindən istifadə olunur. |
| **492** | Üfüqi birləşmə | Horizontal merger | Горизонтальное слияние | Birləşmələr 3 cür olur: horizontal, vertikal və konqlemarat. Eyni sahənin şirkətlərinin birləşməsi horizontal birləşmə adlanır. |
| **493** | Vahid qiymət qanunu | Law of one price | Закон единой цены | Vahid qiymət qanunu nəzərdə tutur ki, inflyasiya templərində hər hansı bir fərq valyuta kursunun dəyişməsi ilə kompensasiya olunacaqlar. Daha ümumi halda alıcılıq qabilyyətinin pariteti terminindən istifadə olunur. İqtisadçılar ayrıca götürülmüş malın qiymətini nəzərdə tutduqda, vahid qiymət qanunu anlayışından istifadə edirlər, müxtəlif ölkələrdə qiymətlərin ümumi səviyyəsini müqayisə etdikdə alıcılıq qabiliyyətinin pariteti terminindən istifadə edirlər. |
| **494** | Vaxtından əvvəl satış hüquqlu istiqraz vərəqələri | Retractable bonds | Облигации с правом досрочной продажи | İnvestorlara ödəniş variantını seçməyə imkan verən istiqraz. Müddətin uzadılması (prolonqasiya) hüquqlu istiqraz vərəqələri ödəmə müddətini artırmağa imkan verir, vaxtından əvvəl satış hüquqlu istiqraz vərəqələri isə tələb üzrə ödəniş etməyə imkan verir. |

| | | | | |
|---|---|---|---|---|
| **495** | Vaxtından qabaq satınalma | Calling, Call provisions | Отзыв (досрочный выкуп) | Əksər firmalar borc öhdəliklərini buraxarkən, vaxtından qabaq satınalma hüququnu özlərində saxlamağı şərtləndirirlər, yəni bu buraxılışın bütün istiqrazlarını vaxtından qabaq satınalma hüququnu və imkanını qorumağa çalışırlar. Vaxtından qabaq satınalma qiyməti ilkin buraxılışda müəyyənləşdirilir. Adətən, kreditorlar 5 il ərzində vaxtından qabaq satınalma hüququnun istifadəsindən müdafiə olunurlar. |
| **496** | Valer | Valeurs | Валёр | Qiymətli kağızlar termininin fransız ekvivalenti. Fransada səhmlər *actions*, itiqrazlar *obligations* adlanırlar. İstiqrazlar həmçinin *fonds d'etat* (dövlət qiymətli kağızları), *fonds garantis* (təminatlı istiqrazlar) и *emprunts* (borclar) adlanırlar. |
| **497** | Valyuta | Currency | Валюта | Bu və ya digər dövlətin pul sisteminin əsasında duran pul vahidi. Azərbaycan Respublikasının valyutası manatdır. |
| **498** | Valyuta bazarı | Foreign exchange market | Валютный рынок | Müxtəlif ölkələrin valyutasının və valyuta ilə ifadə olunmuş ödəniş sənədlərinin, məs. poçt köçürmələri, veksellər, teleqraf köçürmələri və s. alınıb - satıldığı bazar. Dünya valyuta bazarı müxtəlif ölkələrin bankları arasında müxbirləşmə ilə formalaşır və müəyyən yerləşməsi yoxdur. |
| **499** | Valyuta fyuçersi | Foreign exchange futures | Валютный фьючерс | Valyuta fyuçersi bazarı mütəşəkkil valyuta bazarı olub valyutanın gələcəkdə təchizatını təmin edir. Fyuçers müqavilələri yüksək dərəcədə standartlaşdırılıb: onlar ancaq əsas valyutalar üçün tərtib olunurlar; valyuta məbləği dəqiq təyin olunurlar, müddəti isə məhdudlaşdırılır. Bu cür ciddi standartlaşma valyuta fyuçersi bazarının yüksək likvidliyinə səbəb olur. |

| | | | | |
|---|---|---|---|---|
| **500** | Valyuta kursu | Exchange rates | Валютный курс | Bir dövlətin valyutasının digər dövlətin valyutası ilə qiymətləndirilməsi |
| **501** | Valyuta opsiyonu | Currency option | Валютный опцион | Valyutanın indiki qiymətlə gələcəkdə alınıb - satılması hüququ. Opsionları iri banklarda, opsion müqavilələrini isə opsion birjasında almaq olar. |
| **502** | Valyuta riski | Currency risk | Валютный риск | Xarici ticarətdə valyuta və ya digər əməliyyatlarda zərər çəkmə təhlükəsi. Valyuta riski xarici valyuta kursunun milli valyuta kursuna nisbətən uğursuz dəyişilməsi ilə bağlıdır. Forvard müqavilələri valyuta riskini sığorta edən əsas alətlərdən biridir. |
| **503** | Varrant | Warrant | Varrant | 1) Qiymətli kağızların yeni buraxılışının əvvəlcədən (buraxılışdan öncə) nominal qiymətlə almağa imkan verən və qiymətli kağızla birlikdə verilən şəhadətnamə;<br>2) Qiymətli kağızların sahibinə üstünlük verən və qiymətli kağızla birlikdə verilən şəhadətnamə;<br>3)Müəyyən malın qəbul edildiyi haqda mal anbarının sənədi. |
| **504** | Veksel | Note, Draft | Вексель | Sənaye və maliyyə şirkətləri tərəfindən buraxılan qısamüddətli təmin olunmamış istiqraz vərəqələri və borc öhdəlikləri. |

| | | | | |
|---|---|---|---|---|
| **505** | Veksellərin emissiyası | Note | Эмиссия векселей | Firma üçün pul vəsaitləri əldə etməyin bir üsuludur. Veksellərin emissiyası sistemi borcalana qısamüddətli (5-7 illik) avroistiqrazlar buraxmağa imkan verir. Bu istiqrazlar firmanın adından banklar qrupu tərəfindən satılır. Banklar qrupu qiymətli kağızların növbəti buraxılışına abunə olur və bütün satılmamış vekselləri almağı boynuna götürür. Bu sistemin müqabilində firma ilkin abunə haqqını və illik abunə haqqını ödəyir. |
| **506** | Vergi agenti | Tax agent | Налоговый агент | Vergi agenti termini bir çox ölkələrin vergi qanunvericiliyində istifadə olunur. AR VM-nə əsasən vergi agenti dedikdə vergini hesablamağa, onu vergi ödəyicisindən tutmağa və təyinatı üzrə köçürməyə borclu olan şəxs başa düşülür. Məcəllədə həmçinin Vergi agentinin hüquq və vəzifələri öz əksini tapmışdır. |
| **507** | Vergi amortizasiyası | Tax depreciation | Налоговая амортизация | Vergi bazasının hesablanması üçün tətbiq olunan amortizasiya norması |
| **508** | Vergi güzəştləri | Tax preference items | Налоговые льготы | Vergiləri ödəməkdən tam və ya qismən azad etmə. Qanunvericilik yolu ilə müəyyən olunur və müstəsna hal daşıyır. Vergitutma obyektinə, bazasına və məbləğinə yönəlməsindən asılı olaraq vergi güzəştləri 3 qrupa bölünürlər: vergi müsadirəsi, vergi güzəşti və vergi krediti. Güzəştlər müxtəlif növlərə bölünürlər: vergitutma obyektinin vergi tutulmayan minimumu; vergi ödəyicilərinin müəyyən kateqoriyalarının vergidən azad edilməsi; vergi dərəcələrinin aşağı salınması; məqsədli vergi güzəştləri, o cümlədən vergi kreditləri (verginin alınmasının təxirə salınması) və digərləri. |

| | | | | |
|---|---|---|---|---|
| **509** | Vergi xərcləri | Tax Expenditures | Налоговые расходы | Beynəlxalq valyuta fondu (BVF) vergi xərclərini aşağıdakı kimi təyin edir:<br>Vergi xərcləri vergilərin standart strukturuna nisbətən təyin olunan elə güzəştlər və azadolmalardır ki, onlar dövlətin gəlirlərinin azaldılmasına səbəb olurlar. Bir halda ki, dövlət siyasətinin məqsədinə subsidiyalar və digər birbaşa xərclər vasitəsilə nail olmaq olar, güzəştlər büdcə xərclərinin ekvivalenti kimi təyin olunurlar.<br>Vergi xərcləri:<br>1. İtirilmiş vergi gəlirləridir, yəni büdcənin gəlirlərinin azalmasına səbəb olurlar;<br>2. Gəlirlərin baza (normativ) strukturuna nisbətən təyin olunan vergi güzəştləri və azadolmaları nəticəsində yaranırlar;<br>3. Dövlətin sosial-iqtisadi məqsədlərinə nail olmağa xidmət edirlər;<br>4. Dövlətin birbaşa xərclərinin alternatividirlər.<br><br>Adətən, vergi xərclərini qiymətləndirmək üçün 3 metoddan istifadə olunur:<br>• İtirilmiş gəlirlərə görə;<br>• Bərpa olunmuş gəlirlərə görə;<br>• Ekvivalent xərclərə görə.<br>Vergi xərcləri dövlətin sadəcə itirilmiş gəlirləri demək deyildir. Bunlar o gəlirlərdir ki, dövlət sosial-iqtisadi siyasətin konkret məqsədlərinə çatmaq naminə onlardan imtina etməyi mümkün hesab etmişdir. Başqa sözlə, hökumətin vergi sistemi çərçivəsində etdiyi maliyyə yardımıdır. |

| | | | | |
|---|---|---|---|---|
| **510** | Vergi immuniteti | Tax immunity | Налоговый иммунитет | Vergi immuniteti hər hansı bir fiziki və ya hüquqi şəxsə vergi qanunverciliyində və beynəlxalq hüquqda nəzərdə tutulmuş hallarda vergilərin ödənilməsindən azad olmasını nəzərdə tutur. Vergi immuniteti hələ qədim zamanlarda Romada tətbiq edilmişdir. Müasir dövrdə beynəlxalq hüquqda diplomatik nümayindəliklərə və ona bərabər tutulan təşkilatlarda çalışan işçilərə və onların ailə üzvlərinə Vergi immuniteti tətbiq edilir. |
| **511** | Vergi krediti | Tax credit | Налоговый кредит | Vergi krediti vergi orqanı tərəfindən vergi ödəyicisinin ödəməli olduğu vergilərin müddətinin dəyişilməsi ilə bağlı plan hüquqdur. Müxtəlif ölkələrin vergi qanunvericiliyində verginin ödənilməsinə verilən möhlət hüququ 3 aydan 1 ilə qədər dəyişə bilər. Adətən, beynəlxalq praktikada Vergi krediti aşağıdakı hallarda verilir:<br>• Müxtəlif fors-major hallarında, təbii fəlakət baş verdikdə;<br>• Dövlət sifarişinin yerinə yetirilməsi zamanı maliyyələşmədə olan yubanmalar;<br>• Şirkətin iflası zamanı.<br>Vergi krediti vergi ödəyicisi ilə bağlanmış müqavilə əsasında təqdim edilir. |

| | | | | |
|---|---|---|---|---|
| **512** | Vergi qalxanı | Tax shields | Амортизация как налоговый шит (налоговая защита) | Amortizasiya qeyri-pul formasında olan xərclərdir və vergiyə düşən gəlirin azalmasına səbəb olur. O, illik vergi qalxanını təmin edir: $T_s = A * T_n$; Burada: $T_s$ - vergi qalxanı; $A$ - amortizasiya; $T_n$ - vergi dərəcəsi. |
| **513** | Vergi mexanizmləri | Tax mechanism | Налоговые механизмы | Vergi mexanizmləri hüquqi-təşkilatı normaların, müxtəlif metod və formaların yığımından ibarət bir sistem olmaqla köməkçi alətlər vasitəsi ilə idarə olunur. Bu köməkşi alətlər vergi mexanizmlərinin elementlərini təşkil edir. Vergi mexanizimlərinin elementlərinin parametrləri kəmiyyət xarakteristikalarına malik ola və olmaya bilər. Kəmiyyət xarakteristikaları məlum olan parametrlərə misal olaraq vergi dərəcələrini, vergi yükünü, vergi güzəştlərinin dərəcələrini, vergidən yayınma faizini, vergi potensialını və s. aid etmək olar. Elmi nöqteyi nəzərdən vergi mexanizmlərininə vergi nəzəriyyəsinin kateqoriyası kimi baxmaq olar. |
| **514** | Vergi partnyorluğu sazişi | The agreement on the tax partnership | Соглашение о налоговом партнерстве | Vergi orqanı ilə vergi ödəyicisi arasında vergi risklərinin minimallaşdırılması məqsədi ilə könüllü şəkildə bağlanmış niyyət razılaşması. |

| | | | | |
|---|---|---|---|---|
| **515** | Vergi planlaşdırması | Tax planning | Налоговое планирование | Vergi planlaşmasının əsas məqsədi şirkətin qarşısına qoyduğu məqsədlərə çatmaq üçün vergiləri minimallşdırmaqdan ibarətdir. Əsasən mülti-mill şirkətlər tərəfindən vergilərdən yayınmaq və ya onu minimallaşdırmaq məqsədi ilə istifadə edilir. Beynəlxalq şirkətlər müxtəlif vergi dərəcələrinə malik ölkələrdə fəaliyyət göstərirlər. Bu isə müxtəlif növ törəmə şirkətlər yaratmaqla əsas biznesi aşağı vergi dərəcəli ölkələrə köcürməyə imkan verir. *Bax: transfer qiymətləndirmə.* |
| **516** | Vergi riskləri | Tax risks | Налоговые риски | Vergi öhdəliklərinin hər hansı səbəbdən düzgün müəyyən edilməməsi nəticəsində vergi ödəyicisinin maliyyə itkilərinə məruz qalmasının mümkünlüyü. |
| **517** | Vergi risklərinin minimallaşdırılması | Minimizing the tax risk | Минимизация налоговых рисков | Vergi ödəyicisinin vergi hesablamalarının tam və ya qismən yerinə yetirməsinə mənfi təsirlərin azaldılması və ya aradan qaldırılması. |
| **518** | Vergi sadələşdirilməsi | Tax simplication | Упрощение налогообложения | Vergi sadələşdirilməsi dedikdə ilk növbədə vergi sisteminin, vergi qanunvericiliyinin mümkün qədər sadələşdirilməsi nəzərdə tutulur. Bu sadələşdirmə vergi orqanları ilə vergi ödəyiciləri arasında partnyorluq əlaqəsini və şəffaflığı gücləndirir. Vergi sadələşdirilməsi vergi növlərinin mümkün qədər azaldılmasını, vergi inzibatçılığının şəffaflığının təkmilləşdirilməsini nəzərdə tutur. |

| | | | | |
|---|---|---|---|---|
| **519** | Vergi sistemi | Tax system | Налоговая система | Qanunvericilik əsasında büdcəyə ödənilməli vergilərin, rüsumların və digər məcburi ödəmələrin məcmusu. Müxtəlif ölkələrdə müxtəlif vergi sistemləri tətbiq olunurlar. Azərbaycan Respublikasında vergi sistemi Vergi Məcəlləsinin 4-cü maddəsi ilə müəyyənləşdirilir. Azərbaycan Respublikasında aşağıdakı vergilər müəyyən edilir və ödənilr:<br>1) dövlət vergiləri;<br>2) muxtar respublika vergiləri;<br>3) yerli vergilər (bələdiyyə vergiləri). |
| **520** | Vergi şəffaflığı | Tax transparency | Налоговая прозрачность | Dünya ölkələri arasında inteqrasiya meyllərinin güclənməsi, qloballaşma proseslərinin genişlənməsi ölkələr arasında vergitutma sahəsində informasiya mübadiləsinə olan tələbləri artırmışdır. Bu isə hər ölkənin öz vergi siyasətinin formalaşması üçün digər ölkələrdən alınan məlumatın ötürülməsinin şəffaflığını tələb edir. |

| | | | | |
|---|---|---|---|---|
| **521** | Vergi və birləşmələr | Taxes and mergers | Налог и слияния | Şirkətin başqa şirkət tərəfindən ələ keçirilməsi vergi tutulmasına məruz qala bilər və yaxud məruz qalmaz. Əgər vergi orqanları udulan şirkətin səhmdarlarını səhmlərin satıcısı hesab edirlərsə, onda həmin səhmdarlar kapital artımına görə vergi ödəməlidirlər. Digər halda isə udulan şirkətin səhmdarları köhnə səhmləri yeniləri ilə əvəz etmiş hesab olunurlar. Ələ keçirilmənin vergi statusu ödəniləcək verginin məbləğinə təsir edir. Əgər birləşmə vergiyə məruz deyilsə, onda şirkətlər əzəldən mövcud olan bir şirkət kimi qəbul edilir və vergi mexanizmində heç bir dəyişiklik olmur. Əks halda, yəni ələ keçirilmə vergiyə məruz qalmalıdırsa, birləşmiş şirkətin aktivləri yenidən qiymətləndirilir, aktivlərin dəyərinin artması və ya azalması vergiyə məruz qalan mənfəət və ya zərər kimi qəbul edilir. |
| **522** | Vergi və dividendlər | Dividends and taxes | Налог и дивиденды | Dividendlərin ödənməsi və ya kapitala çevrilməsi vergi siyasətindən və dərəcəsindən asılıdır. Əgər dividendlərə kapital artımına nisbətən daha yüksək vergi qoyulubsa, onda adətən dividendlər kapital artımına yönəldilir. Digər tərəfdən vergidən azad olan maliyyə institutlarının (məs., təqaüd fondu) kapital artımına üstünlük vermələri üçün əsasları yoxdur. Müasir qanunvercilikdə həm dividendlərə, həm də kapital artımına eyni vergi dərəcəsi tətbiq olunsa da, nəticələri müxtəlifdir. Dividendlərə tətbiq olunan vergi dərhal ödənməlidir, kapital artımına tətbiq olunan vergi isə səhmlərin satışından sonra da ödənilə bilər. Bu zaman fasiləsi şirkət tərəfindən vergi borclarının gətirilmiş dəyərinin azaldılması üçün istifadə edilə bilər. Ona görə vergi xidməti şirkətin dividend və ya kapital artımı taktikasını ciddi nəzarət altında saxlayır. |

| | | | | |
|---|---|---|---|---|
| **523** | Vergi və xarici əməliyyatların maliyyələşməsi | Financing of foreign operations | Налог и финансирование зарубежных операций | Beynəlxalq şirkətlərin vergi mexanizmləri filialların yerləşdikləri ölkələrin qanunvericiliyindən asılıdır. Törəmə filial adətən yerləşdikləri ölkənin vergilərini ödəyir. Eyni zamanda ana şirkətin yerləşdiyi ölkəyə köçürdüyü dividendlərə görə korporativ vergiləri ödəməlidir. Əgər iki ölkə arasında ikiqat vergitutma barəsində müqavilə varsa, törəmə şirkət ancaq yerli vergiləri ödəyir. |
| **524** | Vergi və istiqraz hesabına alış | Leveraged buyout and taxes | Налог и выкуп за счет займов | Şirkətin istiqraz hesabına alınması şirkətin ödəməli olduğu gəlir vergisinin azalmasına səbəb olur. Digər tərəfdən investorların ödəməli olduğu verginin həcmini artırır. Ona görə də əgər şirkətin ödəməli olduğu külli miqdarda öhdəlikləri varsa, istiqraz hesabına maliyyə vəsaitlərinin cəlb olunması korporativ vergiləri azaltmır, amma fiziki şəxslər səviyyəsində vergiləri artırır. |
| **525** | Vergi və lizinq | Leasing and taxes | Налог и лизинг | Lizinqdə icarayəverən əmlakın sahibkarı olduğu üçün amortizasiyanı vergiyə düşən gəlirdən çıxa bilər və beləliklə, amortizasiya üzrə vergi qalxanından istifadə etmiş olur. Ona görə də lizinq şirkəti üçün əmlakı kimi qalaraq vergi güzəştlərinin əvəzində icarədar üçün icarə güzəştləri etmək sərfəli ola bilər. Digər tərəfdən icarədar öz növbəsində vergiyə düşən mənfəətdən icarə haqlarını çıxa bilər, amma icarəyəverən öz növbəsində həmin icarə haqlarını vergiyə düşən mənfəətə daxil etməlidir. Amma vergi xidməti bu halda yalnız lizinqin olduğunu nəzarətdə saxlamalıdır. Çünki şirkətlər lizinqdən bəzən müddətli satış və təminatlı kredit sazişini gizlətmək üçün istifadə edirlər. |

| | | | | |
|---|---|---|---|---|
| **526** | Vergi və sıfır kuponlu istiqraz | Zero coupon bonds | Налог и облигации с нулевым купоном | Korporasiyaların adi istiqrazlarından fərqli olaraq bu istiqrazlar üzrə ildə iki dəfə faizlərin ödənməsi baş vermir. Əvəzində bu istiqrazlar nominal qiymətə nisbətən diskontla satılır və axır ödəniş üzrə isə nominal və istiqrazın buraxılışı vaxtı təyin olunmuş faiz dərəcəsinin bütün müddət üçün cəmlənmiş məbləği ödənilir. Sıfır kuponlu istiqrazlar korporasiyalar üçün ona görə cəlbedicidirlər ki, korporasiyalar vergi güzəştlərindən istifadə edə bilərlər. Amma istiqraz üzrə ödəniş sona saxlanılır. |
| **527** | Vergi yükü | Tax burden | Налоговая нагрузка | Vergi yükü ilk növbədə toplanılan vergilərin digər iqtisadi göstəricələrə görə müqayisədə müəyyən olunur. Adətən beynəlxalq praktikada vergi yükü dedikdə vergilərin məbləğinin ÜDM -ə olan nisbəti başa düşülür. |
| **528** | Vergidən yayınma | Tax evasion | Уклонение от налогов | Vergidən yayınma - vergi ödəyicisi tərəfindən bilərəkdən vergi öhdəliklərinin azaldılması və ondan yayınmaq məqsədi ilə vergitutma bazasını (gəlir, əmlak və s.) gizlədilməsi və ya azaldılması cəhdidir. Vergidən yayınma aşağıdakı formalarda həyata keçirilə bilər:<br>1. Səhv vergi bəyannamələri təqdim etməklə;<br>2. Balans göstəricilərini saxtalaşdırmaqla;<br>3. Mənfəət və gəliri gizlətməklə;<br>4. Səhmlərin dəyərini süni şəkildə aşağı salmaqla;<br>5. Xərclərə aid edilən məsrəfləri artırmaqla və s. |

| | | | | |
|---|---|---|---|---|
| **529** | Vergilər | Taxes | Налоги | Vergi - dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir. Vergilərin yaranması adətən dövlətin yaranması ilə əlaqələndirilir. |
| **530** | Vertikal birləşmə | Vertical merger | Вертикальное слияние | Birləşmələr horizontal, vertikal və konqlomerat olmaq üzrə 3 növə bölünürlər. Eyni sahənin şirkətlərinin birləşməsi horizontal birləşmə adlanır; Vertikal birləşmədə alıcı şirkət öz fəaliyyətini ya əvvəlki istehsal mərhələlərinə xammal mənbələri daxil olmaqla genişləndirir, yaxud istehsalın sonrakı istehlakçıya qədərki mərhələlərinə kimi genişləndirir. Konqlomerat birləşmələr müxtəlif sahələrə aid şirkətlərin birləşməsindən alınır. |
| **531** | Vertikal inteqrasiya | Vertical integration | Вертикальная интеграция | Vertikal tipli birləşmələrdə istifadə olunur. İri şirkətlər adətən birləşmədən sonra bir tərəfdən ehtiyatlar (resurslar) mənbəyini, digər tərəfdən isə alıcılar və təchizatçılarla birləşməyə çalışırlar. Vertikal inteqrasiya idarəetməni və koordinasiyanı asanlaşdırır. |
| **532** | Vestləmə (hüququn verilməsi) | Vesting | Вестирование | Təqaüd proqramı üzrə nəzərdə tutulan kompensasiya formasıdır. ABŞ qanunverciliyinə görə ən azı 5 il iş stajı olan işçi üçün bu iş müddəti ərzində qazandığı təqaüd məbləğlərinin tam ödənməsi təmin olunmalıdır. Bu hüquqa vestləşmə deyilir. |

| | | | | |
|---|---|---|---|---|
| **533** | “Yaşıl şantaj” | Greenmail | «Зеленый шантаж» | Zəbtolunma obyekti olan şirkət düşmən namizəd şirkəti onun əldə etdiyi bütün səhmləri almaqla əlinə keçirir. Təbii ki, səhmlərin alınması namizəd şirkəti öz məqsədindən imtina etməsinə sövq edən qiymətlərlə baş vermir. Digər tərəfdən, bu qiymət zəbt iddiası olan şirkətin səhmdarlarını təmin etmir. |
| **534** | Yaşıl vergi siyasəti | Green tax policy | Зеленая налоговая политика | Dünyada baş verən sosial-iqtisadi inkişafla bağlı istehsal həcminin genişlənməsi ətraf mühitə dəyən mənfi təsirləri artırır. Bu mənfi eksternalları (təsirləri) azaltmağın ən effektli yollarından biri by sahədə müxtəlif növ vergilərin tətbiqi ilə bağlıdır. Artıq dünyada iqtisadi-ekoloji siyasətin yeni tərkib hissəsi olan “Yaşıl vergi siyasəti” formalaşmışdır. Yaşıl vergi siyasəti vasitəsi ilə ətraf mühitə dəyən, atmosferə buraxılan zərərli qazların, suya buraxılan tullantıların həcmini azaltmaq mümkündür. |
| **535** | “Yetkin faktorinq” | Maturity factoring | «Зрелый» факторинг | Borcların qaytarılmasına kömək edən və şübhəli borclardan sığorta edən faktorinq. |
| **536** | Yol vergisi | Road fund taxes | Дорожный налог | Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələri və qeyri-rezident fiziki şəxslər , habelə Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri (bundan sonra bu fəslin məqsədləri üçün—avtomobil nəqliyyatı vasitələri) olan şəxslər Azərbaycan Respublikasının avtomobil yollarından istifadəyə görə yol vergisinin ödəyiciləridir. |

| | | | | |
|---|---|---|---|---|
| **537** | Yolda xalis qalıq | Net float | Чистый остаток в пути | Şirkət yolda olan ödənişin hesabına udur, lakin mümkünlüyün rəqsləri nəticəsində uduzur. Uduş və uduzmaq arasındakı fərq yolda olan xalis qalıq adlanır. Satıcının bankı ödəniş barədə qəbzi alıcının bankına göndərmək və ödəniş baş verməsinə qədərki müddətdə real pul məbləğinə malik olmur (adətən, 1-2 iş günü). Bu hadisə pula əl çatmazlığın mümkünlüyünün rəqsləri adlanır. |
| **538** | Yolda olan pul vəsaitləri | Float, disbursement float | Денежные средства в пути | Pul vəsaitlərinin yığılması və xərclənməsi prosesində yaranmış situasiyadır. Əgər şirkət digər şirkətə (məs: təchizatçı) ödəniş haqqında poçt ilə qəbz yollayırsa və bu barədə dərhal mühasibat uçotunda qeydiyyat aparmışsa, onda onun bank hesabındakı məbləğlə mühasibat uçotundakı məbləğ arasında müəyyən müddət üçün fərq yaranır. Zaman müddəti məbləği qəbul edən şirkətin öz bankına, bankın isə ödəyən şirkətin bankına ödəmə haqqında məlumat verməsi üçün lazım olan vaxtla müəyyən olunur. Şirkətin bank hesabındakı yaranmış fərq yolda olan pul vəsaitləri adlanır. |
| **539** | Yüklənmə faktorları | Load factors | факторы загрузки | Yüklənmə faktorları özünü avadanlığın sezonla bağlı olaraq tam və ya yarımçıq yüklənməsi ilə əlaqədardır. Yüklənmə faktorlarını dəyərləndirərkən hər variant üzrə layihə və əlavə xərclərin xalis gətirilmiş dəyərlərini hesablamaq vacibdir. |

| | | | | |
|---|---|---|---|---|
| **540** | Zamanla oyun | Playing for time | Игра на время | Dividend siyasəti və kapitalın strukturuna aid iqtisadi oyun formasıdır. Maliyyə çətinlikləri dövründə kreditorlar əmlakın hansısa hissəsini xilas etmək üçün firmanı hesablar üzrə ödəməyə məcbur etməyə çalışırlar. Səhmdarlar isə öz növbəsində ödənişi təxirə salmağa çalışırlar. Zamanla belə oyunda problemin həqiqi ölçülərini gizlətmək və cari il üçün daha yaxşı göstəricilərin nümayiş etdirilməsi üçün müxtəlif üsullardan (uçot metodunun dəyişdirilməsi, özbaşına bərpa barədə yalançı ümidlərin həvəsləndirilməsi, təkrar istehsala və tədqiqatlara çəkilən xərclərin azaldılması və s.) istifadə olunur. |
| **541** | “Zəhər həbi (padzəhr)” | Poison pill | «Ядовитая змея» | Şirkətlərin birləşməsi perspektivi yarananda ələkeçirilmə təhlükəsi ilə üzləşən şirkət əks-hücüm təşkil edir və ümumilikdə "zəhər həbi" adlanan üsullarla özünü qeyri-cəlbedici göstərməyə çalışır. |